www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12-13 dekabr 2015-ci il Şənbə № 277 (6305) Qiymәti 40 qəpik

**Xəbər**

## Bakıda orta məktəblərin mühafizəsinə silahlı polislər cəlb edildi

yazısı səh.2-də

**Gündəm**

### Türkiyə üçün və Türkiyənin "xilas kəməri"



Ərdoğanın kritik Türkmənistan səfəri bir çox "i"lərin üzərinə nöqtə qoya bilər; Türkiyənin özünüxilası Avropanın da Rusiya asılılığından xilası demək olacaq, çünki...

yazısı səh.7-də

### Prezident Nardarana 12 milyon manat ayırdı

yazısı səh.3-də

### Parlamentin komitə iclasında qalmaqal

yazısı səh.4-də

### Azərbaycanda Türkiyə hərbi bazaları qurulsunmu...

yazısı səh.5-də

### "Günəşli" yatağında itkin düşən 26 neftçidən xəbər yoxdur

yazısı səh.10-da

### Fuad Qəhrəmanlının vəzifədəki qohumları onu buraxdırmağa çalışır?

yazısı səh.11-də

### Ayaz Mütəllibov AXC hakimiyyətinə niyə qəzəblidir?

yazısı səh.4-də

### Yaşayış minimumu problemə çevrildi - açıqlamalar bir-birini təkzib edir...

yazısı səh.13-də

### Rauf Mirqədirovun azadlığı üçün "yaşıl işıq"

yazısı səh.11-də

### 2015-ci ilin iqtisadi mənzərəsi: devalvasiya və onun fəsadları...

yazısı səh.13-də

### Azərbaycan prezidentinin Çin səfərinin pərdəarxası

yazısı səh.12-də

## Beynəlxalq Bankın sabiq rəhbəri həbsdən müqavimətə başladı

# CAHANGİR HACIYEV TARANA GEDİR - SENSASİON GƏLİŞMƏLƏR

Keçmiş bank rəhbərinin 9 ay sonra həbsi və "dilinin açılması" hakimiyyət daxilində yeni bir gərginliyə yol açıb; bəzi nazirlərin sonu yaxınlaşır; vəkil maliyyə naziri Samir Şərifovu niyə nişan verdi; yeni həbslər gözlənir




yazısı səh.5-də

## Eldar Mahmudovun 250 "yararsız işçisi" MTN-dən niyə qovuldu - son məlumatlar

Onun "işvərəni" "Akula Akif" haqda yeni bilgilər ortaya çıxdı: "Parisin küçələrində pulsuz-parasız qalıb"

yazısı səh.3-də



*Elxan Şahinoğlu:*

**"Rəsmi Bakı "İran amilini" kənara qoyub İsraildə səfirlik açmalıdır"**

yazısı səh.6-da



*Ərəstun Oruclu:*

**"Akif Çovdarov açıq deyirdi ki, Eldar Mahmudov Azərbaycanın gələcək baş naziridir"**

yazısı səh. 8 və 9-da



### Heydər Əliyevin vəfatından 12 il ötdü

yazısı səh.2-də



## Prezidentlər dekabrın 19-da görüşə bilər

**Azərbaycan və Ermənistan prezidentlərinin görüşü dekabrın 19-da baş tuta bilər. APA-nın xəbərinə görə, bu barədə Ermənistanın "Jamanak" qəzeti məlumat yayıb. Qəzet yazır ki, görüşün İsveçrədə keçiriləcəyi gözlənilir. Xatırladaq ki, Ermənistanın "Qraparak" qəzeti də bir müddət əvvəl prezidentlərin bu il dekabrın 1-də Parisdə görüşəcəkləri barədə məlumat yaysa da, məlumat özünü doğrultmamışdı.**

## Ehtiyat hissələri idxalında yeni standart

**Bundan sonra avtonəqliyyat vasitələrinin ölkəyə idxal edilən, həmçinin istehsal edilən bütün ehtiyat hissələri yalnız sertifikatlaşdırıldıqdan sonra dövriyyəyə buraxıla bilər. Publika.az xəbər verir ki, bununla bağlı Nazirlər Kabinetinin qərarı ilə avtonəqliyyat vasitələrinin bütün ehtiyat hissələri təhlükəsizliyi təmin olunmalı məhsulların siyahısına daxil edilib.**

"Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Qanuna əsasən, uyğunluğun qiymətləndirilməsini, başqa sözlə, sertifikatlaşdırmanı akkreditasiya olunmuş müstəqil qurumlar həyata keçirir.

Qeyd edək ki, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Akkreditasiya Xidmətinin akkreditasiya etdiyi 3 sertifikatlaşdırma orqanının fəaliyyət sahəsində avtonəqliyyat vasitələrinin ehtiyat hissələrini sertifikatlaşdırmaq nəzərdə tutulub. Bunlar "AzeSert" MMC, "Azcertcenter" MMC və "TexnoSert" MMC-dir. Qurumlar haqqında ətraflı məlumatı Dövlət Akkreditasiya Xidmətinin rəsmi internet səhifəsindən - www.accreditation.gov.az saytından əldə etmək mümkündür.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi istehlakçılara akkreditasiya olunmuş qurumlar tərəfindən təhlükəsizliyi təsdiq olunmamış, sertifikatlaşdırılmayan ehtiyat hissələrini almamağı tövsiyə edir. "Milli Sertifikatlaşdırma Sistemi haqqında" Əsasnaməyə əsasən, sertifikatlaşdırma insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükə yaradan və ya mühüm zərər vuran məhsulun (proseslərin, xidmətlərin) buraxılmasının və satışının qarşısını almaq, istehlakçılara məhsulun (proseslərin, xidmətlərin) səriştəli seçilməsində köməklik və sahibkarların beynəlxalq iqtisadi, elmi-texniki əməkdaşlıqda və beynəlxalq ticarətdə iştirakı üçün şərait yaratmaq məqsədləri üçün keçirilir.

## Məhkəmə "AMAY Abdulla"ya yenə "yox" dedi

**Bakı Apelyasiya Məhkəməsində "AMAY" ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayevin və Elşən Novruzovun apelyasiya şikayəti üzrə məhkəmə prosesi yekunlaşıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, hakim Əflatun Qasımovun sədrlik etdiyi prosesdə birinci instansiya məhkəməsinin qərarı qüvvədə saxlanılıb.

A.Abdullayevin vəkili Osman Kazımov apelyasiya məhkəməsinin qərarından Ali Məhkəməyə kassasiya şikayəti verəcəklərini deyib və məhkəmənin qərarını əsassız adlandırıb.

Qeyd edək ki, Abdulla Abdullayev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 13 il müddətinə azadlıqdan məhrum edilib.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

**A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.**

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Heydər Əliyevin vəfatından 12 il ötür

**Azərbaycanın üçüncü prezidenti Heydər Əliyevin vəfatından 12 il keçir. Mərhum prezidentin anım günü 12 dekabrda olsa da, artıq dünəndən ölkənin rəsmi şəxsləri və eləcə də sıravi vətəndaşlar Fəxri Xiyabana gələrək onun məzarını ziyarət etməyə başlayıblar.**

Musavat.com-un məlumatına görə, dekabrın 11-dən milli təhlükəsizlik naziri vəzifəsini icra edən general-leytenant Mədət Quliyev başda olmaqla nazirliyin digər əməkdaşları da Fəxri Xiyabana gedərək, mərhum prezidentin xatirəsini anıblar. Bundan başqa Yeni Azərbaycan Partiyası, Azərbaycan Ağsaqqallar Şurasının üzvləri, tələbələr, məktəb şagirdləri də Fəxri Xiyabanda olublar.

Allah rəhmət eləsin!

❑ Əli RAİS







## Eldar Namazov haradadır?

### EL hərəkatının sədri hələlik danışmaq istəmir

**Artıq uzun müddətdir mətbuatda görünmür. Onun harada olması və nə işlə məşğul olmasından belə, medianın xəbər tutması çətinləşib. Bir neçə gün öncə Eldar Namazovu axtardıq, nəhayət onunla telefona əlaqəsi qura bildik. Xeyli vaxtdır səhhətində problemlər olduğunu deyən tanınmış siyasətçi bildirdi ki, müalicəsi davam etdirilir. E.Namazov ölkədə və regionda gedən prosesləri də izlədiyini, lakin hələlik hər hansı müsahibə, şərh vermək istəmədiyini vurğuladı. O qeyd etdi ki, səhhəti yaxşılaşan kimi jurnalistlərin suallarını cavablandıracaq.**

Qeyd edək ki, E.Namazov media ilə yaxşı münasibətlər quran siyasi fiqurlardan biri kimi tanınır. Onun uzun müddətdən bəri görünməməsi istər-istəməz medianın marağına səbəb olur.

Xatırladaq ki, Eldar Namazov 2013-cü il prezident seçkiləri dövründə ölkə siyasətində ən üzdə olan siyasətçilərdən biri idi. Ziyalılar Forumu, El Hərəkatı və Milli Şura çərçivəsində o, əsas sözçü idi. Bu aktivliyi onu hakimiyyətin hədəfinə də çıxarmışdı. Seçkilərdən sonra-2014-cü ildən başlayaraq isə Eldar Namazovun əvvəlki aktivliyi azaldı. Xeyli vaxtdır o, siyasi səhnədə heç bir fəaliyyəti ilə görünmür.

❑ E.SEYİDAĞA

## Rəsulzadəni təhqir edən deputatın qardaşı bıçaqlandı

### Saqif Həmzəyə avtoxuliqanlığa görə xəsarət yetirildiyi bildirilir...



**İstiqlalımızın banisi Məhəmməd Əmin Rəsulzadəni təhqir etməklə gündəmə gələn Gəncədən yeni seçilmiş deputat Naqif Həmzəyevin adı növbəti qalmaqlada hallanır. Bu dəfə yayılan məlumatda gənc deputatın qardaşı Saqifin bıçaqlandığı deyilir.**

Artıq bu barədə bir neçə gündür bəzi mətbuat orqanlarında yazılar dərc edilir. Deputatın qardaşının bıçaqlanması haqda məlumat bu xəbərlər yayılmamışdan bir neçə gün əvvəl redaksiyamıza daxil olmuşdu. Musavat.com-un əldə etdiyi məlumatda bildirilir ki, deputatın qardaşı Saqif Həmzəyev noyabrın 20-də bıçaqlanıb.

Hadisə "Yeni Gəncə" qəsəbəsi Mehmandarov küçəsinin yaxınlığında baş verib. Deputatın qardaşının bıçaqlanmasının səbəbi qeyd edilən ünvanda avtoxuliqanlıq etməsi olub. Avtoxuliqanlıq edən Saqif Həmzəyev bu hərəkətləri ilə ətrafda yaşayan gənclərin qəzəbinə tuş gəlib. Onlar arasında yaranan mübahisə deputat qardaşının bıçaqlanması ilə nəticələnib.

S.Həmzəyevin bıçaqlanma xəbərinin mətbuata çıxmaması üçün deputat tərəfindən böyük səylər göstərilib. Hadisənin mətbuata çıxması isə Naqif Həmzəyevin Məhəmməd Əmin Rəsulzadəni təhqir etməsindən bir neçə gün sonraya təsadüf edir. Hazırda deputatın qardaşı müalicə alır. Onun həyatına təhlükə yoxdur.

Əldə etdiyimiz məlumata görə, iş Gəncə Şəhər Baş Polis İdarəsinin müstəntiqi Elçin Əzizov tərəfindən araşdırılır.

Olayla bağlı rəsmi qurumların da mövqeyini öyrənməyə çalışdıq. Əvvəlcə Gəncə Şəhər Baş Polis İdarəsinin müstəntiqi Elçin Əzizovla əlaqə saxladıq. Ona hadisə ilə bağlı əlavə məlumat öyrənmək istədiyimizi, deputatın qardaşını bıçaqlayan şəxs və ya şəxslərin tutulub-tutulmamasını öyrənmək istədiyimizi dedik. Müstəntiq isə bildirdi ki, Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin icazəsi olmadan bu haqda heç bir məlumat verə bilməz. Müstəntiq hadisəni təkzib və təsdiq də etmədi.

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov** isə musavat.com-a açıqlamasında bu barədə nazirliyin mətbuat xidmətində heç bir məlumatın olmadığını bildirdi. E.Zahidov da hadisəni təkzib etmədi.

Məsələ ilə bağlı qalmaqallı deputat Naqif Həmzəyevin də fikirlərini öyrənməyə çalışdıq. Lakin bir neçə dəfə cəhd etsək də, o, zənglərimizə cavab vermədi.

❑ İlkin MURADOV

## Bakının narazı olduğu həmsədr dəyişdirilir

**ATƏT-in Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi ilə məşğul olan Minsk qrupunun amerikalı həmsədri Ceyms Uorlikin dəyişdirilməsi məsələsi nəzərdən keçirilir. Bunu Trend-ə diplomatik mənbələrdən deyiblər.**

Qeyd edək ki, Azərbaycan tərəfi C.Uorlikin Dağlıq Qarabağ münaqişəsi üzrə fəaliyyətindən və bəyanatlarından dəfələrlə narazlığını bildirmişdi.

Onun Vaşinqtonda Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimlə əlaqədar tədbirə qatılması və Karen Mirzəyan adlı şəxslə görüşməsi həmsədr kimi karyerasının başa çatmasında həlledici rol oynaya bilər.



## QHT Şurası 2016-cı il I maliyyə müsabiqəsinin istiqamətlərini təsdiq etdi

**Dekabrın 11-də Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının növbəti iclası keçirilib. Şura sədri, millət vəkili Azay Quliyev gündəlikdə olan ilk məsələnin 2016-ci il birinci maliyyə yardımı müsabiqəsinin elan edilməsi haqqında olduğunu deyib. Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov müsabiqəyə 10 istiqamət üzrə 56 mövzunun təklif edildiyini bildirib. Katibliyin icraçı direktoru müsabiqənin şərt və qaydaları, texniki tələbləri haqqında danışıb və mövzularla bağlı ətraflı məlumat verib.**

F.Qurbanov gündəlikdə olan digər məsələ ilə bağlı arayış verib və "Azərbaycan Respublikasında QHT-lərin vəziyyəti haqqında Milli Hesabat"ın yenilənməsinə ehtiyac olduğunu və bunun üçün 7 nəfərdən ibarət işçi qrupun yaradılmasını təklif edib.

Katibliyin icraçı direktoru Şuranın beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələləri haqqında məlumat verib. F.Qurbanov əməkdaşlıq üçün Şuraya müraciət edən beynəlxalq təşkilatlar haqqında danışıb və təklif olunan əməkdaşlıq mövzularını qeyd edib.

Azay Quliyev Şuranın maliyyə dəstəyi ilə həyata keçirilən layihələrin icrasının effektivliyinin artırılması üçün bundan sonra da zəruri addımların atılacağını və QHT-lərin üzərlərinə götürdükləri müqavilə öhdəliklərini tamlıqla yerinə yetirməli olduqlarını deyib.

Sahib Məmmədov, İlqar Məmmdov, Tahir Süleymanov, Əliməmməd Nuriyev, Vüqar Qədirov, Rəna Mirzəzadə və Dilarə Vəliyeva iclasda çıxış edərək rəy və təkliflərini bildiriblər. İclasda Şuranın 2016-cı il birinci maliyyə müsabiqəsinin istiqamətləri təsdiq edilib.

Müzakirələrdən sonra gündəlikdə dayanan məsələlər ayrılıqda səsə qoyularaq qəbul olunub.

## Bakıda orta məktəblərin mühafizəsinə silahlı polislər cəlb edildi

**Bakının orta məktəblərində təhlükəsizlik tədbirləri gücləndirilib. APA-nın məlumatına görə, paytaxt məktəblərinin mühafizəsinə silahlı polis əməkdaşları cəlb edilib.**

Məlumata görə, təhlükəsizlik tədbirləri daha çox Nardarana yaxın kənd və qəsəbə məktəblərində həyata keçirilir. Bütün müəllim və valideynlərə uşaqları nəzarətsiz qoymamaları barədə xəbərdarlıq edilib. Valideynlərə tapşırılıb ki, uşaqları məktəbə özləri gətirib, özləri evə aparsınlar.

**Hüquq-mühafizə orqanlarından APA-ya orta məktəblərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi təsdiqlənib.**

YENİ MÜSAVAT
N 277 (6304) 12 dekabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Milli təhlükəsizlik nazirinin 1-ci müavini Mədət Quliyev Milli Təhlükəsizlik Nazirliyində (MTN) baş verən son hadisələrə münasibət bildirib. M.Quliyev qeyd edib ki, Milli Təhlükəsizlik Nazirliyində işdən çıxarılan şəxslərin yerinə təyinat yox, əksinə ixtisarlar aparılmalıdır: “Biz hesab edirik ki, milli təhlükəsizlik nazirliyinin heyəti sayca az və operativ olmalıdır. Mən vəzifəyə təyin olunandan 250 yararsız əməkdaş vəzifədən kənarlaşdırılıb”.**

# Eldar Mahmudovun 250 “yararsız işçisi” MTN-dən niyə qovuldu - son məlumatlar

## Onun “işvərəni” “Akula Akif” haqda yeni bilgilər ortaya çıxdı: “Parisin küçələrində pulsuz-parasız qalıb”



M.Quliyev APA-ya açıqlamasında həmçinin qeyd edib ki, əvvəllər müxtəlif səbəblərə görə vəzifədən kənarlaşdırılan bacarıqlı əməkdaşlar yenidən xidmətə cəlb edilir. O, MTN-də baş verənlərlə bağlı başlanmış cinayət işinin gedişindən də danışıb: “Hazırda cinayət işi davam etdirilir və orda adı keçən fiqurlar təbii ki, günahı sübuta yetirilərsə, həbs ediləcəklər. Bu işdə kim qanunu pozubsa, qanun qarşısında cavab verəcək”.

**Akif Çovdarov Eldar Mahmudovun əleyhinə ifadə verib**

Bu il oktyabrın 17-də MTN-də başlanan “təmizləmə” bir çox gerçəkləri üzə çıxardı. Məlum oldu ki, ölkə vətəndaşı əlini başının altına qoyub yatarkən Eldar Mahmudovun ətrafı ölkə boyu talanlarla məşğul olub. Sahibkarlar çarmıxa çəkilib, onlardan pul-para, mal-mülkləri ilə yanaşı bəzilərinin canını da alıblar. Heç bir sənəd-sübutsuz adamları tutub işgəncəyə məruz qoyublar. Üstəlik, Eldar Mahmudovun “sağ əli” hesab olunan, hazırda həbsdə olan MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi Akif Çovdarovun şəxsi həbsxana saxladığı da üzə çıxıb.

Maraqlıdır ki, MTN-də “təmizləmə” başlayandan dərhal sonra 7 vəzifəli şəxs həbs olunsa da, onların sırasında A.Çovdarovun adına rast gəlinməmişdi. Sonradan belə bir məlumat da yayılmışdı ki, A.Çovdarov eks şefinə qarşı ifadə verməyib.

**Aldığımız son məlumatlar isə A.Çovdarovun E.Mahmudova qarşı ifadə verməməsi haqda deyilənləri şübhə altına alır. İstintaqa yaxın qaynağımız deyib ki, A.Çovdarov ilk gündən dolayısı ilə olsa da, Eldar Mahmudovun əleyhinə ifadə verib:** “Verməsəydi onu da digəri 7 nəfər kimi dərhal həbs edərdilər. Ümumiyyətlə istintaqda qayda belədir ki, əməkdaşlıq etməyən, istintaqda barəsində kifayət qədər məlumat olan şəxs dərhal qandallanır. Ola bilər ki, onun ifadələri birbaşa deyil dolayısı ilə Eldar Mahmudovun əleyhinədir. Mümkün deyil ki, o belə bir ifadə verməsin. Akif Çovdarovun ifadə verməkdən başqa yolu yoxdur. Verməyib nə edəcək?”

**Mahmudovun “işverən”i “Akula Akif”in gizlinləri...**

Oktyabrın 17-də Eldar Mahmudov tutduğu postdan uzaqlaşdırılandan 1 gün sonra “Akula” ləqəbli Akif Mustafayev Azərbaycandan qaçıb. Bu haqda “Yeni Müsavat” noyabrın 3-də “MTN işi”ndə yeni gizli kütləvi həbslər - şok təfsilat" sərlövhəli yazı dərc etmişdi. Həmin yazda bildirilirdi ki, A.Mustafayev Eldar Mahmudovun çetesinin əsas “işverən”lərindən olub.

**Kimdir bu şəxs və nələr edib?**

Akif Mustafayevi tanıyanların sözlərinə görə, o, ayrı-ayrı iş adamları haqda MTN-in sabiq rəhbərliyinə lazımi bilgilər verib, onları ilişdirirmiş. Sonradan həmin iş adamlarına öz “köməyini” təklif edirmiş. MTN zabitləri ilə iş adamlarının arasında vasitəçilik görüntüsü yaradıb, külli miqdarda pul alırmış. O da bildirilir ki, “Akula Akif” bu “xidmətlərindən” sonra MTN-in “əlindən qurtardığı” iş adamlarının biznesinə 20-30 faiz ortaq olurmuş. Onlara “krışalıq” edirmiş. “Akula Akif” oktyabrın 18-də ölkədən Fransaya gedib və sonradan onun izi itib. Azərbaycan Baş Prokurorluğu onu İnterpol xətti ilə axtarır. Belə məlumatlar var ki, “Akula Akif” Fransa paytaxtında gizlənir. Onun orada adamlarının olması haqda da xəbərlər var. Dekabrın 11-də virtualaz.org saytı 1 ay əvvəl yazdıqlarımızı təsdiqləyən xəbər yayıb. Sayt yazır ki, oktyabrın 18-də bazar günü, səhər saat 08:40 reysi ilə “Akula Akif” AZAL-ın reysi ilə Bakıdan Belarusun paytaxtı Minskə uçub. Oradan isə Parisə istiqamət alıb. Bu qaçışın detalları haqda məlumatlı olan mötəbər qaynaq bildirir ki, “Akula”nın Belarusda dayanmaq fikri yox olmayıb və ona təcili olaraq Şengen vizası əldə edərək Minskdən Avropaya uçmaq lazım idi. Mənbə bildirir ki, “Akula” əslində Avropaya birbaşa Bakıdan da uça bilərdi. Həmin gün onu heç kim axtarmırdı və əsas diqqət MTN-dəki mütəşəkkil qruplaşmanın neytrallaşdırılmasına, Mahmudovun qruplaşmasının nazirlikdəki əsas adamlarının nəzarət altına alınmasına yönəlmişdi. Buna baxmayaraq illərdir hansı cinayət əməlləri törətdiyini yaxşı dərk edən “Akula” istintaqın diqqətinin ona yönəlməsini gözləmədən aradan çıxmağı qərara almışdı. Və izi itirmək ümidiylə Avropaya birbaşa Bakıdan yox, Minsk üzərindən uçmağı qərarlaşdırıb. Sayt yazır ki, ona Minskdən Fransaya uçmaqda “Pokrovka” topdansatış bazarının faktiki sahiblərindən biri kimi tanınan, “Azfrut” şirkətinin təsisçilərindən olan şəmkirli “Pokrovka Məhərrəm” kömək edib. Belə məlumatlar var ki, “Akula Akif”in Fransa banklarında sanballı hesabları olsa da, həmin hesablar hazırda həbs altındadır. Ona görə də ehtimal olunur ki, o, Fransadan İspaniyaya keçməyə hazırlaşır. Orada onun mülkünün olması haqda da xəbər var. Azərbaycan hüquq-mühafizə orqanları “Akula Akif”i yaxalamağa imkan tapa bilməsələr də operativ qaydada onun barəsində cinayət dosyesi hazırlayıb İnterpola təqdim ediblər və barəsində qırmızı bülletenlə beynəlxalq axtarış əldə edilməsinə nail olublar. İnterpolun rəsmi saytında göstərilir ki, 1955-ci ildə andan olmuş Akif Mustafayev Azərbaycanın prokurorluq orqanları tərəfindən axtarışa verilib, ona qarşı “rüşvət” ittihamı var.

Azərbaycanın Baş Prokurorluğunun İnterpol və Avropa ölkələrinin hüquq-mühafizə orqanları ilə qurduğu operativ təmaslar sayəsində “Akula”nın bank hesablarına və əmlakına qısa müddət ərzində həbs qoyulub. Nəticədə o, Avropa paytaxtlarında pulsuz-parasız qalıb.

Yazmışdıq, bir də xatırladaq ki, noyabrın 1-də hüquq-mühafizə orqanları əməkdaşları Akif Mustafayevin Bakıdakı evində axtarış aparıb. “Akula”nın evindən xeyli daş-qaş, qızıl-zinət əşyaları və külli miqdarda pul götürülərək müsadirə edilib. Həmçinin onun Azərbaycan banklarıdan birindəki gizli seyfinin kodu da aşkar olunub. “Akula Akif” qaçarkən həmin kodu evindəki dəftərçədən cırıb tullamağı unudubmuş...

**Eldar Mahmudovla “Akula Akif” “Beluqa” arağına üstünlük verirmiş...**

Yazdıqlarımıza ekskurs edərək bir də yada salaq ki, “Akula Akif” birbaşa Eldar Mahmudovun yaxın çevrəsinə daxil olub və onun ən sadiq adamlarından hesab olunurdu. Eldar Mahmudova o qədər yaxın idi ki, nazirin hər həftənin şənbə günü villasında təşkil etdiyi, məhdud çərçivədə adamların qatıldığı ziyafətlərdə həmişə əsas qonaq kimi iştirak edirdi (“Akula”nı tanıyanlar deyir ki, o, həddən artıq məkrli, hər cür alçaq əməllərə əl atmağa qadir olan biridir). Virtualaz.org bu ziyafətlər haqda məlumatlı olan mənbəyə istinadən yazır ki, E.Mahmudov arağı ancaq “Akula” ilə içirmiş. Özü də keçmiş nazir son vaxtlar xeyli qayğılı görünürmüş və şənbə ziyafətlərində oturanda həddən artıq çox içirmiş. Mənbə hətta onun arağı 200 qramlıq stəkanla içdiyini də deyir. “Yeni Müsavat”ın bu ziyafətlər haqda bilgili olan qaynağı isə deyir ki, belə ziyafətlərə E.Mahmudovun oğluna məxsus eksklüziv şərablar və alkoqollu içkilər təklif edən butik - “Wine City”dən spirtli içkilər daşınıb. “Akula Akif”lə Eldar Mahmudov əsasən Rusiya istehsalı olan, xüsusi reseptura əsasında hazırlanmış “Beluqa” arağı içməyə üstünlük veriblər.

Sayt nazirin malikanəsindəki şənbə ziyafətlərinin proseduru haqda isə bunları yazır: əvvəlcə nazir və qonaqları günortaya qədər idmanla məşğul olurmuş. Sonra içki məclisi başlayırmış və məclis axşamdan xeyli keçənə qədər davam edirmiş. Məclis sauna və digər əyləncələrlə yekunlaşırmış.

**“Akula Akif” Paris küçələrində pulsuz-parasız dolaşır?**

Sayt yazır ki, “Akula Akif” Paris küçələrində pulsuz-parasız qalıb. Onun vəziyyətinə bələd olanlar deyir ki, “Akula” tamamilə müflis, miskin vəziyyətdədir və Fransa polisindən yayınmaq üçün zirzəmilərdə gizlənir, yerini tez-tez dəyişir. Eldar Mahmudovun tutduğu vəzifədən uzaqlaşdırılması ilə böyük bir cinayətkar dəstənin dəhşətli əməlləri faş oldu. Hazırda MTN-in 19 sabiq vəzifəli şəxsi Cinayət Məcəlləsinin müvafiq maddələri ilə həbs olunub, Eldar Mahmudov ev dustağı edilib, istintaqdan yayınan Akif Mustafayev barəsində axtarış elan edilib.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Prezident Nardarana 12 milyon manat ayırdı

## Qəsəbə məscidlərində dini mərasimlərin keçirilməsi qadağan edildi

**Nardaran dekabrın 1-dən etibarən Daxili Qoşunların və polisin nəzarətindədir. Kəndə yalnız yerli sakinlərin girişi və çıxışı mümkündür.**

Musavat.com-un məlumatına görə, Nardarana girişlərdə qurulan postlarda şəxsiyyət vəsiqələri və maşınlar yoxlanılır. Şəxsiyyət vəsiqəsi olmayan kənd sakinin hərəkəti belə mümkün deyil.

Hazırda 1500-ə yaxın ailəyə elektrik enerjisinin verilişi bərpa edilib. Təbii qaz isə sayğaclar və borular təmir edildikdən və yeniləndikdən sonra mümkün olacaq.

Kəndin mərkəzində yeni parkın inşası davam etdirilir. İlk dəfədir Nardaranda polis binasının tikintisinə başlanılıb. Polis binası Nardaranın mərkəzi hissəsi hesab edilən İmam Hüseyn meydanının yaxınlığında tikilir.

Dekabrın 11-də prezident İlham Əliyev Nardaran qəsəbəsinin abadlaşdırılması, qəsəbədəki sosial -mədəni infrastrukturun yenilənməsi, qəsəbənin sosial problemlərinin həlli məqsədilə 12 milyon manat məbləğində vəsait ayrılması üçün sərəncam imzalayıb.

***

Daxili Qoşunların tam nəzarətində olan Nardaranda 2 polisin və 4 dindarın ölümü ilə nəticələnən qaşıdurmadan sonra keçirilən aksiyalarda iştirak edən şəxslərin həbsi davam edir. Son günlərdə aksiyada iştirak edən və Müsəlman Hərəkatı Birliyinin sədri Tale Bağırzadəni dəstəkləyən xeyli sayda dindar saxlanılıb. Sonuncu rəsmi məlumatda saxlanılanların sayının 32 olduğu bildirilirdi. Son iki gündə kəndin iki məscidinin imamı həbs edilib. Əvvəlcə Hüseyniyyə məscidi Nardaran ziyarətgahının axundu Hacı Nuhbala Rəhimov həbs edilib. Daha sonra isə Cümə məscidinin axundu olduğunu iddia edən Hacı Ataməli Nur saxlanılıb.

**Kənddə baş verən son hadisələrlə bağlı musavat.com-a danışan Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimov bildirib ki, insanların məscidlərə toplaşmasına və dini mərasimlərin keçirilməsinə icazə verilmir:** “Hacı Nuhbala və Hacı Ataməli həbs edilib. Onların birinə 12, digərinə 30 sutka veriblər. Xeyli sayda həbs olunan var. Bildiyimiz qədər ilə onların böyük əksəriyyəti Binəqədi təcridxanasına köçürülüb. Məscidlər nəzarətdədir. Bu gün də cümədə insanlar məscidə gələ bilmədi. Dini mərasimlərin keçirilməsinə icazə verilmir”.

**Hazırda kənddə parkın salındığını deyən N.Kərimov prezidentin kəndə 12 milyon ayırmasına da münasibət bildirib:** “Təbii ki, prezidentimizin Nardarana diqqət ayırması müsbət haldır. İndi əsas məsələ bu pulun hara və necə xərclənəcəyidir. Prezidentin nəzarətində olarsa, bu pul ayrıldığı istiqamətdə də xərclənəcək. İnşallah, bundan sonra Nardaran üçün hər şey yaxşı olacaq”.

**Hazırda kənddə ən əsas problemlərdən birinin işsizlik olduğunu deyən N.Kərimov deyib ki, kənd sakinləri pul olmadığı üçün işıq yandırmır:** “Kənddə işsizlik baş alıb gedir. İş yerləri yoxdur. Əksər evlərə elektrik enerjisi verilib. Amma camaat işığı yandıra bilmir. Çünki onlar bilirlər ki, bu pulu ödəyə bilməyəcəklər. Ailələrdə işləyən bir neçə adam var idi, onlar da saxlanılıb. Çoxunun harada olmasından xəbərimiz yoxdur”.

Bu arada, Nardaran hadisələri ilə bağlı Cəlilabadda keçirilən əməliyyat zamanı rayon sakini Ramin Əliyev saxlanılıb.

R.Əliyev Cəlilabad rayon Polis Şöbəsi əməkdaşları tərəfindən saxlanılaraq Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə təhvil verilib.

**R.Əliyev “Müsəlman birliyi” adlandırılan təşkilata dəstək verməkdə təqsirli bilinərək həbs edilib.**

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 277 (6305) 12 dekabr 2015

# Ayaz Mütəllibov AXC hakimiyyətinə niyə qəzəblidir?

## Elçibəyi təhqir edən eks-prezidentin kininin səbəbləri bəlli oldu

**Eks-prezident Ayaz Mütəllibovun milli azadlıq hərəkatının lideri, mərhum prezident Əbülfəz Elçibəyi təhqir etməsi cəmiyyətdə kəskin reaksiya ilə qarşılanıb.**

Hətta ABŞ-da mühacir həyatı yaşayan **keçmiş spiker Rəsul Quliyev** də Ə.Elçibəy iqtidarının əleyhinə olmasına baxmayaraq, A.Mütəllibovun dediklərinə sərt münasibət bildirib. *(Hafta.az)* "Ayaz Mütəllibov həyatın bütün sahələrində, kiçik məişət problemindən tutmuş qlobal dəyişmələrə qədər elə bir primitiv səviyyədədir ki, onun dediklərinə reaksiya vermək, fikir söyləmək mümkün deyildir. Sözsüz, Əbülfəz bəy elə bir fikri heç vaxt səsləndirməyib və ümumiyyətlə, heç ağlına belə gəlməzdi. Ancaq Əbülfəz bəyin kifayət qədər şübhəli, müzakirə ediləsi çıxışları, sözləri olub. Həqiqət olan o çıxışlardan misal gətirmək əvəzinə belə yalan söyləməklə, diqqəti cəlb etmək primitivlik etalonudur. Bu insan Azərbaycan xalqının əleyhinə o qədər işlər görüb ki, əbədi susmalı və danışmamalıdır" deyə, eks-spiker bildirib.

**A.Mütəllibovun iddialarının əksinə olaraq R.Quliyev deyib ki, Kəlbəcərin işğalı Elçibəyin hakimiyyətinin itirməsinə əsas səbəblərdən biri oldu:**

"Kəlbəcərin işğalı faktiki Elçibəy hakimiyyətinin iflasına start verən hadisədir. Azərbaycanın 1-ci prezidentinin məhdud ağılı belə bir bəsit məsələni anlamağa imkan vermədiyindən, ağzına gələni danışır". R.Quliyev ardınca deyib: "Bu ağsaqqal yaşında olan adamın Elçibəy kimi bir şəxsiyyətə belə ucuz, məntiqsiz böhtan atması bir daha onun mahiyyətini aşdı. Ömür boyu millətinə qarşı işlər görmüş bu insanın, ölənə qədər də dəyişməyəcəyindən xəbər verdi. Bu təsadüflər nəticəsində hərtərəfli məhdud ağıllı bir şəxsin Azərbaycanda ən yüksək post tutmasıdır, xalqın faciəsi. Rus imperiyasının qulu olub, onun istənilən tapşırığını yerinə yetirən birisinin Əbülfəz Elçibəy kimi bir adam barədə sayaqlamasına şərh yazmaq çox ağırdır. Bu insan keçdiyi həyat yolunu nəzərdən keçirib, əgər qalıbsa, abrına qısılmalı və susmalıdır. Ancaq bu hərəkəti ilə xalqa xidmət etmiş olar".


Rəsul Quliyev


Fəhmin Hacıyev


Mirmahmud Mirəlioğlu

Qeyd edək ki, Mütəllibov Elçibəyi Kəlbəcəri ermənilərə təhvil verməkdə, həmçinin primitiv millətçilikdə ittiham edib. Ancaq A.Mütəllibov ilk dəfə deyil ki, bu sayaq davranır. Ortaya sual çıxır, eks-prezident AXC-dən, onun liderindən nə istəyir? Mütəllibov AXC-dən onun hakimiyyətini devirməsininmi əvəzini çıxır, ona görəmi belə aqressiv, qəzəblidir, yoxsa başqa səbəb var? Ümumiyyətlə, onun bitməyən kininin kökündə nə dayanır?

**Daxili Qoşunların sabiq komandanı Fəhmin Hacıyev** "Yeni Müsavat"a bildirdi ki, sovet nomenklaturasının nümayəndələrinin əksəriyyəti hələ də öz ölkələrinin müstəqilliklərini həzm edə bilmirlər: "Ayaz Mütəllibov da bu qəbildəndir. Ona görə də milli azadlıq hərəkatına və onun liderlərinə qarşı aqressivdir. Bundan əlavə, qisas hissi və mövcud hakimiyyətə yaltaqlanmaq cəhdləri var. Rusiya amili də ola bilər. Bir sözlə, Ayaz Mütəllibov "boz", yəni mənasız və mahiyyətsiz adamdır. Belələri gündəmdə qalmaq, öz günahlarını ört-basdır etmək üçün hər cür axmaqlıq edə bilərlər".

Xain xoflu olar. Bütün ömrü boyu karyerası naminə milli maraqları qurban verən birisinin haqqında çox danışmaq və boşuna zaman itirmək fikirindən uzağam. 20 Yanvar faciəsindən sonra Moskva qarşısındakı əməyinə görə birinci katib və sonra prezident kürsüsü ilə mükafatlandırılan Mütəllibovun həyatını millətimizin azadlığına qurban vermiş Əbülfəz Elçibəy haqqında danışmağa mənəvi haqqı yoxdur. Hakimiyyətdə qalmaq üçün Qarabağın müdafiəsinə süni əngəllər yaradan, müdafiə tədbirlərinin effektli təşkilinin qarşısını alan, Xocalıdan dinc əhalinin çıxarılmasına izin verməyən Mütəllibov əslində çoxdan cinayət məsuliyyətinə cəlb olunmalı idi. Xocalı faciəsinin törədilməsində ermənilərlə birlikdə birbaşa iştirak etmiş rus hərbçiləri və bunda maraqlı olan Rusiyanın hakim dairələri Ayaz Mütəllibovu həbsdən qorumaları bir daha sübut edir ki, bu adam hansı dövlətin maraqlarına xidmət etmişdir".

**KXCP sədri Mirmahmud Mirəlioğlu** "Yeni Müsavat"a açıqlamasında dedi ki, A.Mütəllibovun AXC hakimiyyətinə qarşı belə davranmasının səbəbini Allahdan və özündən başqa kimsə bilməz: "Bu, onun həm insan kimi təcrübəsi, həm də məsələlərə yanaşma tərzindən irəli gəlir. Həm də gündəmdə qalmaq üçün götürdüyü kursdur. Mütəllibom ən çətin günlərində Moskvaya sığınıb. Ola bilsin ki, indi də Moskvadan aldığı mesaja uyğun hərəkət edir. Uzun müddətdir burdadır, lakin ilk dəfədir ki, onu komanda yoldaşlarının məzarını ziyarət edən gördüm. Öz komandası qarşısında üzüqara olsa da, ilk dəfə idi onları ziyarətə getmişdi. 20 Yanvarla bağlı hüzn günü tədbirləri ilə bağlı ilk qərarı o verib, amma şəxsən mən onu 20 Yanvar günü ziyarətdə görməmişəm". **M.Mirəlioğlu A.Mütəllobovun mövqeyini təəccüblü saymır:** "Hər kəs bilir ki, Azərbaycanda rusmeyllilərin sayı artıb. Həm də Azərbaycan hakimiyyətinin razılığı, xeyir-duası omasaydı, ölkəyə qayıda bilməzdi. Hakimiyyətdə də rus qafalılar var, onlardan da mesaj ala bilər. Həm də ağlı elə buracandır. Sağ olsun, Azərbaycan mediasını ki, onun istər 20 Yanvar, istərsə də Heydər Əliyevlə bağlı vaxtilə danışdıqlarını tirajladı, hər kəs gerçəkliyin nədən ibarət olduğunu bildi. Onun münasibəti sırf siyasi xarakterlidir. Ayazın arxasında hər zaman Azərbaycana qarşı olan qüvvələr var və son nəfəsinə qədər bu qüvvələr onu belə mövqelər bildirməyə təhrik edəcəklər. Görünür, bu dəfə də səmt küləyinin ciddi təsiri olub".

**AXC hakimiyyəti dövründə Azərbaycanın Rusiyadakı səfiri postunda çalışmış Hikmət Hacızadə** isə bildirdi ki, A.Mütəllibov iradəsi zəif adamdır: "Bizdən, əlbəttə ki, hakimiyyətin devrilməsinin hayfını çıxmaq istəyir. Eyni zamanda yeqin hakim klana xoş gəlməyə çalışır. Mütəllibov siyasi və tarixi arenada təsadüfi bir insandır. O, indiyə qədər başa düşməyib ki, çərxi-fələk hansı tərəfə dövran edir, tarixi proses nədir, millət nədir, onun taleyi nədir. Özünə kənardan baxsa, yaxşıdır. 20 Yanvarda öz rolunu düşünsün, bunu heç kəs unutmayıb". **H.Hacızadə A.Mütəllibovun Kəlbəcərlə bağlı iddiasını da təkzib etdi:** "Bu, tamamilə uydurmadır. Elçibəy belə söz deməyib. Ümumiyyətlə, bu adamı birdəfəlik bağlamaq lazımdır. 20 Yanvar şəhidlərinin qanı onun əllərindədir. O, sussa, yaxşı olar".

❑ **Cavid TURAN**

# Parlament komitə iclasında qalmaqal

## Rafael Hüseynov: "Bundan vacib sizin üçün nə iş ola bilər?!"

### Milli Məclis təbii qazın, elektrik və ya istilik enerjisinin talanmasına görə yeni cəzalar müəyyənləşdirir

**Milli Məclisin Mədəniyyət komitəsinin 11 dekabr tarixli iclası özünün gözlənilməzliyi ilə yadda qalıb. Komitə yeni sədri Rafael Hüseynov (bundan əvvəl komitəyə sədrliyi Nizami Cəfərov icra edirdi-red.) iclasa qatılmayan deputatlara iradını bildirib.**

Komitə sədri çıxışında bu kimi halların növbəti iclasda da davam edəcəyi təqdirdə parlamentin sədrinə və İntizam Komissiyasına rəsmi şəkildə müraciət edəcəyini bəyan edib. Onun sözlərinə görə, parlamentdə komitələrin sayı artdığından, komitələrin üzvlərinin sayında məhdudiyyət yaranıb: "Misal olaraq, bizim komitənin 6 üzvü var. Ona görə də komitə iclaslarında bütün üzvlərin iştirakı zəruridir. Bu da tək bizim komitənin üzvlərinə deyil, bütün deputatlara aiddir. Çünki onların iclasda iştirak etməməsi bütövlükdə Milli Məclisin fəaliyyətinin pozulması deməkdir. Ona görə də bu gün komitənin iclasda iştirak etməyən üzvlərinə sadəcə xəbərdarlıq edin, gələn dəfə eyni hal təkrarlanarsa, o zaman parlamentin sədrinə və İntizam Komissiyasına rəsmi şəkildə müraciət edəcəyik". "Report" xəbər verir ki, R.Hüseynov ardınca bunları bildirib: "Bu gün komitənin üzvlərindən Ülviyyə Həmzəyeva və Zeynəb Xanlarova iclasa qatılmayıb. Komitənin katibliyi Ülviyyə Həmzəyevaya zəng edərək iclasa gəlməyinin vacibliyini bildirib. O isə işi çıxdığından iclasa qatıla bilməyəcəyini qeyd edib. Bir insanın həyatında Milli Məclisə seçilməkdən şərəfli bir iş yoxdur. Bundan vacib sizin üçün nə iş ola bilər?! Ona görə də xahiş edirəm ki, gələn dəfə üçün gəlməyənlər haqqında ciddi tədbirlər görülsün. Zeynəb Xanlarovanı da hər kəsdən əvvəl tanıyıram. O, mədəniyyətimiz üçün mühüm işlər görüb və bizim üçün çox gərəkli insandır. Əsas istəyimiz odur ki, o da iclasda iştirak etsin və öz məsləhətləri ilə komitənin işinin inkişafına öz töhfəsini versin".



Modern.az saytı məsələ ilə əlaqədar Zeynəb Xanlarovanın özü ilə əlaqə saxlamağa çalışıb. Köməkçisi Zeynəb Xanlarovanın adından onun iclasa nə üçün qatıla bilməməsinin səbəbini açıqlayıb. "Zeynəb xanım xəstədir. İclasa qatıla bilməməsinin də səbəbi boğaz ağrısıdır. Başqa heç nə deyə bilmərəm".

Komitə sədrinin xəbərdarlıq etdiyi xanım deputat Ülviyyə Həmzəyeva AzVision.az-a açıqlamasında əvvəlcədən iclasa gələ bilməyəcəyi haqda məlumat verdiyini bildirib: "Mən əvvəlcədən nə üçün iclasa gələ bilməyəcəyimlə bağlı Milli Məclisə məlumat vermişdim. Bu, nə söhbətdir? Mən işimə məsuliyyətli insanam. Belə səhlənkarlığa yol verməm".

Yeri gəlmişkən, parlamentin növbəti plenar iclasına yeni təkliflər göndərilib. Belə ki, Azərbaycanda təbii qazın, elektrik və ya istilik enerjisinin talanmasına görə yeni cəzalar müəyyənləşdirilir. APA ttps://apa.az/-nın məlumatına görə, bununla bağlı yeni İnzibati Xətalar Məcəlləsinə yeni bənd salınıb. Yeni Məcəllənin 282-ci maddəsinin ilk bəndində deyilir ki, təbii qazın, elektrik və ya istilik enerjisinin talanması nəticəsində az miqdarda ziyan vurduqda fiziki şəxslər 100 manatdan 150 manata qədər, vəzifəli şəxslər 800 manatdan 1000 manata qədər, hüquqi şəxslər isə 2 000 manatdan 2 500 manata qədər cərimələnəcəklər. "Qeyd" hissədə göstərilir ki, burada az miqdarda dedikdə 1000 manata qədər dəyən ziyan əsas götürülür.

Hazırda qüvvədə olan məcəllədə isə yalnız təbii qazın, elektrik və ya istilik enerjisinin istifadə qaydalarının pozulmasına görə cərimələr nəzərdə tutulur. İstifadə qaydalarının pozulmasına görə fiziki şəxslər 30 manatdan 40 manata qədər, vəzifəli şəxslər 70 manatdan 90 manata qədər, hüquqi şəxslər isə 250 manatdan 300 manata qədər cərimələnir. Bu bənd yeni məcəllədə də saxlanılıb.

Azərbaycan prezidenti tərəfindən təqdim olunan yeni İnzibati Xətalar Məcəlləsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Azərbaycan Milli Məclisinin 2015-ci ilin payız sessiyasında son plenar iclasının tarixi məlum olub. Milli Məclisdən verilən məlumata görə, iclas dekabrın 29-a təyin olunub. İclasın gündəliyi MM-in dekabrın 18-də keçiriləcək plenar iclasından sonra məlum olacaq.

❑ **CAVİD**

# Beynəlxalq Bankın sabiq rəhbəri həbsdən müqavimətə başladı

**Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin dekabrın 5-də həbsi "kredit işi"ilə bağlı istintaqa yeni yön verməklə bərabər, iqtisadi komandada yeni "zəlzələ effekti" yaradıb. C.Hacıyev gözlənilənlərin əksinə olaraq həbsdə susmur, əksinə, kameranın divarları arasında müqavimət göstərək, özünə "yoldaş axtarır".**



# Cahangir Hacıyev tarana gedir - sensasion gəlişmələr

## Keçmiş bank rəhbərinin 9 ay sonra həbsi və "dilinin açılması" hakimiyyət daxilində yeni bir gərginliyə yol açıb; bəzi nazirlərin sonu yaxınlaşır; vəkil maliyyə naziri Samir Şərifovu niyə nişan verdi?; gözlənilir ki, tezliklə kredit qalmaqalına bulaşmış digər yüksək vəzifəli şəxslərin adları da çəkiləcək

Mart ayından bəri israrla susan və heç bir açıqlama verməyən C.Hacıyev həbsindən bir həftə keçməmiş vəkili vasitəsilə irəli sürülən mənimsəmə ittihamında suçsuz olduğunu deyir, sensasion sayıla biləcək ad çəkir. Məlumata görə, C.Hacıyevin 9 ay sonra həbsi və "dilinin açılması" hakimiyyət daxilində yeni bir gərginliyə yol açıb ki, bu da bəzi nazirlərin də sonunu gətirə bilər. O da mümkündür ki, C.Hacıyevin uzun müddətdən sonra həbsi məhz "dilinin açılmasına" da hesablanıbmış.

**Cahangir Hacıyev Samir Şərifovu ittiham edir: "O, hara baxırdı?"**

**C.Hacıyevin vəkili Aqil Layıcov** AzadlıqRadiosuna açıqlamasında bildirib ki, əgər kredit verilibsə və qaytarılmayıbsa, bu, Cahangir Hacıyevlik məsələ deyil.

"Əslində qaytarılmaqdan da getmir söhbət, kreditin qaytarılmasında ləngimələr var. Bu isə öz həllini tapa bilən məsələdir. Cahangir Hacıyevin içəridə olması bu məsələnin həllinə maneə yaradacaq. O, azadlıqda olanda 400 milyonluq vəsaitin 200 milyondan artığının banka qaytarılmasına nail olub. Öz əlaqələri, kanalları vasitəsilə bunu edib, bəzi sübutlar xaricdədir. İndi istintaq təcridxanasında saxlanması onun bu işi başa çatdırmasına imkan vermir. O, həbs ediləndən sonra bir manat da olsun geri qayıtmayıb", - deyə, vəkil bildirib.

**A.Layıcov onu da deyib ki, müdafiə etdiyi şəxs qaytarılmayan kreditlər üzrə özünü məsuliyyətli saymır. Çünki orda kriteriyalar var, bu kriteriyalar müəyyən olunmalıdır:** "Əksər kreditlər Müşahidə Şurasının tapşırığı ilə verilib. Müşahidə Şurasında təmsil olunan məhz Maliyyə Nazirliyidir. Kredit veriləndə Maliyyə Nazirliyi hara baxırdı və indiyədək niyə adekvat addım atmırdı? Cahangir Hacıyev sadəcə icra orqanına baxıb, ali orqan Müşahidə Şurası olub. Bu qurumda isə əsas söz sahibi Maliyyə Nazirliyidir". Vəkil onu da bildirib ki, Cahangir Hacıyevin sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun əleyhinə ifadə verməsi barəsində yayılan məlumatların heç bir əsası yoxdur.

**Samir Şərifov "bombanın partlayacağını" bilirmiş, amma...**

Beynəlxalq Bank səhmlərinin 51,07%-i dövlət adından çıxış edən Maliyyə Nazirliyinə məxsusdur. Maliyyə nazirinin müavini Azər Bayramov isə Müşahidə Şurasının sədridir. Yəni C.Hacıyev vəkili vasitəsilə ilk dəfə açıq mətnlə bildirir ki, bankda baş verənlərdən maliyyə naziri Samir Şərifovun xəbərsiz olması mümkün deyildi. Bu yaxınlarda parlamentdə olan müzakirələrdə maliyyə naziri "hansı səbəbdən heç bir girov olmadan Beynəlxalq Bank müəyyən sahənin adamlarına iri məbləğdə kreditlər verilib", - sualına cavab olaraq C.Hacıyevi günahlandırmışdı: "Beynəlxalq Bankın sabiq rəhbərliyi tərəfindən ciddi səhvlərə yol verilib. Bu səbəbdən əvvəlki rəhbərlik tutduğu vəzifədən kənarlaşdırılıb. Bankın keçmiş rəhbərliyi təminat olmadan riskli layihələrə imza atıb. Beynəlxalq Bank Azərbaycan Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş tələblərə əməl etməyib. Hazırda bəzi edilən əməllərə hüquqi qiymət verilməsi üçün hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır" deyə, məsuliyyəti C.Hacıyevin üzərinə qoyub.

C.Hacıyevlə S.Şərifov arasında münasibətlər heç vaxt yaxşı olmayıb. S.Şərifovun bank sektorunda özünə yaxın kadrları toplamasını C.Hacıyev heç vaxt həzm edə bilməyib. Onların münasibətlərin korlanmasının əsas səbəblərindən biri də bir neçə il əvvəl büdcə hesablaşmalarının Beynəlxalq Bankdan alınması idi. Samir Şərifov bu əməliyyatları həyata keçirmək səlahiyyətlərini "KapitalBank"a verdikdən sonra onların arasındakı gərginlik daha da artmışdı, həmçinin bu proses Beynəlxalq Banka xeyli maddi zərər vurmuşdu. Bəzi məlumatlara görə, Cahangir Hacıyevlə Samir Şərifovun münasibətləri açıq qarşıdurma səviyyəsinədək pisləşə də, Eldar Mahmudov faktoruna görə maliyyə nazirinin C.Hacıyevi sıradan çıxarmağa gücü çatmayıb. Əksinə, "qudalar ittifaqı" bank sektorunda S.Şərifova güc göstərə bilib, bəzi bankları onun nəzarətindən çıxarıb, öz adamlarını yerləşdiriblər.

"Axı, necə olub ki, Samir Şərifov Cahangir Hacıyevin böyük məbləğli kredit transplarına göz yumub", - sualının cavabını həm də E.Mahmudovun gücündə axtarmaq lazımdır. Məlumata görə, müəyyən periodda Maliyyə Nazirliyi və Mərkəzi Bank rəhbərliyi C.Hacıyevə xəbərdarlıq da edib. Amma bunların faydasız olduğunu biləndən sonra susmağa üstünlük veriblər. Belə xəbərlər də var ki, maliyyə naziri C.Hacıyevin "bombasının öz əlində partlayacağını" bilib və bunu zamanın öhdəsinə buraxıb. Məsələn, hələ bir neçə il əvvəl Cahangir Hacıyevin şəriki olan Xəqani Bəşirov adlı iş adamına Beynəlxalq Bankdan 185 milyon manat kredit verməsi, sonuncunun isə həmin pulları mənimsəməsi barədə iddialar ortaya çıxmışdı. Bildirilirdi ki, bankir X.Bəşirovun adına rəsmiləşdirilən müxtəlif məhdud məsuliyyətli cəmiyyətlərə kredit ayırıb. Həmin kreditlər vaxtında ödənilmədiyi halda, C.Hacıyev yenə də X.Bəşirovun nəzarətindəki MMC-lərə kreditlər ayırmaqda davam edib. O zaman da S.Şərifov susqunluğunun qoruyub və X.Bəşirov həbs olunsa da, az sonra müəmmalı şəkildə azad olunub, hazırda da Fransada yaşayır.

Əlbəttə, baş verənlərdə S.Şərifovun da ciddi məsuliyyəti var və bəzi iri həcmli kreditlərə onun razılığı verildiyi barədə məlumatlar da yayılıb. İddia edilir ki, S.Şərifov bəzi nazirlərin biznesini idarə edən iş adamlarına kredit ayrılmasında köməklik edib. Onların kimliyin isə C.Hacıyev də bilir. Xəbərlərə görə, C.Hacıyev qaytardığı 200 milyonun böyük hissəsini vəzifəli şəxslərdən toplaya bilib. Maliyyə naziri isə bu işə yaxın durmayıb və kredit verməyə kömək etdiyi hökumət adamlarına "borcunuzu qaytarın" deməyib.

**Hacıyev bir neçə dəfə Şərifovla görüşüb də...**

Maliyyə Nazirliyindəki mənbə isə ittihamla bağlı "Yeni Müsavat"a daha sensasion bilgilər verib. Mənbə deyib ki, C.Hacıyev işdən çıxarıldıqdan sonra bir neçə dəfə Maliyyə Nazirliyində olub və S.Şərifovla görüşüb də.

S.Şərifov prezidentə yaxın kadr kimi işini ehtiyatlı tutub və Beynəlxalq Bankla bağlı bəzi bilgiləri mütəmadi dövlət başçısına çatdırıb. Əslində bu qalmaqal elə Samir Şərifovun prezidentə məruzəsindən sonra ortaya çıxıb və Cahangir vəzifəsindən qovulub. Cahangir Hacıyev də məsuliyyəti "tək üzərinə götürməyəcəyi" barədə həm S.Şərifova, həm onun müavinlərinə, eləcə də adlarını hələ də sirr kimi saxladığı bəzi məmurlara xəbərdarlıq da edibmiş. Amma onlar E.Mahmudovun işdən rüsvayçı uzaqlaşdırılmasından sonra C.Hacıyevi yaxın belə buraxmayıblar, telefonlarını qaldırmayıblar.

**Yeni həbslər olacaq**

Gözlənilir ki, tezliklə S.Şərifovla bərabər C.Hacıyev digər yüksək vəzifəli şəxslərin də adlarını çəkəcək. Belə ki, E.Mahmudovdan sonra xeyli zəifləyən C.Hacıyevin tarana getməkdən başqa yolu da qalmır. Bu isə iqtidar daxilində yeni istefalar və səs-küylü həbslərə səbəb olacaq. Belə görünür ki, C.Hacıyevin həbsi ilə rahatlaşanlar indi daha da narahat olmağa başlayıblar...

❑ **"Yeni Müsavat"**



# Azərbaycanda Türkiyə hərbi bazaları qurulsunmu...

## Təklif müsbət qarşılanır, amma...

**Ölkəmizin ətrafında olan böyük dövlətlər arasında gərginlik getdikcə artır. Rusiya-Türkiyə qarşıdurmasına İran da müdaxilə etməyə başlayıb. İran son günlər atdığı bir neçə addımla Rusiyaya dəstək nümayiş etdirmiş oldu. Ekspertlər bildirir ki, sərhədlərində olan üç böyük dövlətin arasında qarşıdurmanın dərinləşməsi Azərbaycanın iki od arasında qalmaq təhlükəsini yaradır.**

Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər "Yeni Müsavat"a bildirib ki, Azərbaycanın beynəlxalq etibarlı təhlükəsizlik təminatı olmalıdır. S.Əkbər hakimiyyətə demokratik dünya ilə inteqrasiyaya getmək, Avropa Birliyi və NATO ilə birləşmə yolunu tutmaqla Azərbaycana beynəlxalq təhlükəsizlik təminatını almaq təklifini verib. S.Əkbər həmçinin təklif edib ki, ilk növbədə Türkiyə ilə sıx hərbi-siyasi müttəfiqlik münasibətləri qurulmalıdır, Azərbaycanda Türkiyənin hərbi bazaları qurulmalıdır. İlk növbədə bu iş Naxçıvandan başlamalıdır.

**KXCP sədri Mirmahmud Mirəlioğlu** bildirdi ki, Azərbaycanın iki od arasında qalması əsrlərdir davam edir və təhlükə heç zaman sovuşmayıb. Biz bu təhlükələrdən qorunmaq üçün Türkiyə ilə ən yüksək səviyyədə hərbi-strateji müttəfiqliyi həyata keçirməliyik: "Biz təhlükədən çıxış yolu axtarmalıyıq. Hesab edirəm ki, tarixi ənənələr, Qars müqaviləsi var. Bu ənənələrə söykənib Türkiyə ilə hərbi müttəfiqlik məsələsini daha da inkişaf etdirmək lazımdır. Tarixi təcrübədən yararlanmaq lazımdır və Azərbaycan bu yolla özünü sığortalamalıdır. Milli təhlükəsizliyimizi qorumaqdan ötrü bu addım atılmalıdır".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** sözügedən təklifin milli maraqlarımız baxımından müsbət təklif, ideya olduğunu söylədi: "İdeya kimi cəlbedici və maraqlıdır. Lakin bu ideyanın həyata keçməsinə əngəl törədə bilən iki məsələ var. NATO-nun üzvü olan Türkiyəyə NATO-dan münasibət necə olacaq? İkincisi, Rusiyanın buna münasibəti necə olacaq? Amma Azərbaycan-Türkiyə münasibətlərində bu mərhələ gərək çoxdan olaydı. Bu mərhələ çoxdan olsaydı indi problemlərlə üz-üzə qalmazdıq. Amma təəssüf ki, bəzən fürsətlər buraxıldı. İndi ən azı müzakirələr açmaq, müzakirələri aparmaq və müzakirələrin nəticəsində həm NATO-nun, həm Rusiyanın nəbzini yoxlamaq olar. Təbii ki, regionda baş verən hadisələr Azərbaycana ciddi şəkildə təsir edəcək. Çalışacaqlar ki, Azərbaycana təzyiq etsinlər, Azərbaycanı Türkiyə ilə birgə olmaq yolundan çəkindirsinlər. Amma hər halda bizim təhlükəsizlik çətirimiz Qərb dünyasıdır, Türkiyədir, Avropadır, ABŞ-dır. Çünki bu çətir daha güvənli, demokratik çətirdir. Ona görə biz oranı seçməliyik və strateji olaraq oraya hədəflənmiş kurs götürməliyik".

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, nəzəri baxımdan bu təklif, ideya müsbətdir: "İdeya kimi çox yaxşı ideyadır. Ancaq reallaşmasının nə dərəcədə mümkün olub-olmadığı məsələsinə diqqət etmək lazımdır. Türkiyə NATO-nun üzvüdür. NATO-nun razılığı olmadan Türkiyə başqa bir dövlətin ərazisində hərbi bazalar qura bilməz. Çünki NATO-nun özünün standartları, qaydaları, taktikası var. İkincisi, NATO-nun nizamnaməsi Varşava müqaviləsi ləğv ediləndən sonra dəyişilib və demokratiyanın, insan hüquqlarının müdafiəsi funksiyası da bu qurumun üzərinə qoyulub. Bu da Azərbaycandan insan hüquq və azadlıqlarının Avropa, NATO standartlarına uyğun təmin edilməsini tələb eləyir. Azərbaycanda qeyd olunan sahələrdə vəziyyət bu standartlara uyğun deyil. Nəhayət, üçüncü amil gəlir. Bu da geopolitik durumdur. 50 milyonluq Ukrayna nəinki NATO ilə əməkdaşlıq, hətta Avropa Birliyi ilə birləşmək istiqamətində kiçicik addım atmaq istəyəndə Rusiya onun ərazisinin bir hissəsini işğal elədi. Azərbaycan NATO üzvü olan ölkənin hərbi bazalarını öz ərazisində yerləşdirmək istəsə bizim Ukraynadan fərqli bir taleni yaşamayacağımıza hansı təminat varmı? NATO, ABŞ, Türkiyə Azərbaycanın ərazilərinin Rusiya tərəfindən işğal edilməməsi üçün hər hansı təminatı öz üzərlərinə götürərsə, Türkiyə hərbi bazalarını Azərbaycana yerləşdirmək üçün addımlar atmaq olar. İndiki halda isə Türkiyə ilə Azərbaycan arasında hərbi müttəfiqlik yalnız müdafiə xarakterli ola bilər. Vacib deyil ki, bu bizim ərazimizdə hərbi kontingent saxlanması kimi olsun. Dövlətlər arasında xarici təhlükədən qorunmaq haqqında daha ciddi müqavilələr imzalamaq olar".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 277 (6305) 12 dekabr 2015



# Rus vassalının dedikləri

**Azər RƏŞİDOĞLU**

**Eks-prezident Ayaz Mütəllibovun Əbülfəz Elçibəy barədə səsləndirdiyi təhqiramiz ifadələr bumeranq effektini verdi. Əslində, qıcıq doğuran bir rus vassalının müstəqilliyin banisinə münasibəti idi. Məsələ ondadır ki, Azərbaycan müstəqilliyini qazandıqdan sonra Moskva ilə münasibətlərində məsafə saxlamağa başladı.**

Ayaz Mütəllibov Rusiyanın maraqlarının ifadəçisi olan sonuncu rəhbər idi. Onun hakimiyyətdən devrilməsi elə Rusiyanın Azərbaycandakı əlinin kəsilməsinə xidmət edirdi. Əlbəttə ki, müxalifətin hakimiyyətə gəlmək istəyi, Qərbin Azərbaycanda möhkəmlənmək cəhdləri də mövcud idi.

Lakin A.Mütəllibova qarşı çıxan yüz minlərlə insanın əsas hədəfi Moskva idi. Onun hakimiyyətdə qalması Rusiyanın mövcudluğu demək idi, bu isə yeni müstəqilliyini əldə edən ölkə üçün təhlükəli idi. Elə buna görə də A.Mütəllibov getməli idi və xalq onu Moskvaya yola saldı.

1992-ci ildə hakimiyyətə gələn Əbülfəz Elçibəy ölkəni Türkiyə və ABŞ-la yaxınlaşdırdı. Bu müstəvidə müşahidə edilən ifrat yaxınlaşma Rusiya və İranı qıcıqlandırdı. Elə bu səbəbə də Elçibəyin hakimiyyəti uzun çəkmədi.

1993-cü ildə Gəncə qiyamı nəticəsində hakimiyyətə gələn yeni iqtidar Rusiya və ABŞ arasında manevr etsə də, 1994-cü ilə "Əsrin müqaviləsi"ni imzalamaqla əslində Bakının seçiminin Vaşinqton olduğunu nümayiş etdirdi. Lakin Qərbin yardımı ilə Qarabağ problemini həll etmək mümkün olmadı. Qarabağın Azərbaycanın nəzarətindən çıxarılması prosesində Rusiya ilə eyni dərəcədə Qərb də məsuliyyət daşıyır.

Qərbə inteqrasiya demokratiya müstəvisində də irəliləyişlərə səbəb olmadı. Təxminən 20 faiz ərazilərini itirən ölkə korrupsiya, siyasi məhbuslar, insan haqlarının pozulması, məmur özbaşınalığı kimi problemlərdən əziyyət çəkməyə başladı. Bu isə antiqərb əhval-ruhiyyəsinin artması ilə sonuclandı.

İlham Əliyev hakimiyyətə gəldiyi gündən rəsmi Bakı xarici siyasətində Qərblə daha sıx əməkdaşlığa başladı və bunun nəticəsi olaraq, eyni şəxsin dalbadal üçüncü dəfə prezident seçilməsinə "Sem dayı" "yaşıl işıq" yandırdı. Lakin bütün bu illər ərzində Rusiya Azərbaycana yenidən qayıdacağını dəfələrlə bəyan etdi.

2008-ci ildə Gürcüstan ərazisinə soxulan Rusiya Abxaziya və Cənubi Osetiyanı tam öz nəzarətinə aldı və bununla da rəsmi Bakının da nəzarətinə çatdırdı ki, Kreml Cənubi Qafqazda əsas söz sahibi olaraq qalmaqdadır.

Lakin Bakı gələcək perspektivdə Qərb ilə müttəfiqliyə səy göstərməyə başladı və Qəbələ RLS-in bağlanması bu istiqamətdə atılan əsas addım idi. Kreml anladı ki, neft-qaz sazişi baş qatmağa yönəlib, əslində Bakı tərəfdaş kimi Vaşinqtonu seçib.

Moskva özü üçün daha təhlükəli gedişatdan narahat idi.

Bakı NATO ilə sıx əməkdaşlığa nail ola bilərdi.

Odur ki, Kreml yenidən A.Mütəllibov zamanında olduğu kimi Azərbaycanda öz nəzarətini bərpa etmək istəyir.

Moskva Azərbaycanda yaşayan rusların vasitəsilə özünə "beşinci kolon" yarada bilmir. Ruslar siyasi həyatda aparıcı mövqelərə malik deyillər. Odur ki, Kreml Rusiyada yaşayan azərbaycanlılardan istifadə etmək niyyətini gizlətmir.

Rusiyada yaşayan azərbaycanlı ziyalılar, habelə, vaxtilə Azərbaycan hakimiyyətində təmsil olunan şəxslər Kremlin planında yer alırlar. Rusiyaya çörək pulu ardınca gedən soydaşlarımız da Kreml tərəfindən nəzərdən keçirilir.

Rusiyanın ölkəmizdə sabitliyi pozması və bu dalğada Bakıda peyda olmasının mümkün ssenarilərindən biri də "etnik kartı" işə salma perspektividir.

Kreml Moskvada yerləşən və guya ləzgi və talışların hüququnu müdafiə edən təşkilatlar olduğu deyilən qurumlara hər cür şərait yaradır və onların əli ilə Azərbaycanda etnik qarşıdurma yaratmaq arzusunu gizlətmir. Rusiya Azərbaycanın enerji daşıyıcılarına sahib olmaq istəyir və anlayır ki, Qərbi bölgədən çıxartmağın başqa yolu mövcud deyil. Bakı və Moskva arasındakı gərginliyin əsas səbəbi də elə budur.

Azərbaycan isə Qərblə imzaladığı enerji layihələrinə böyük ümidlə baxır və bu müstəvidə rusların xeyrinə dəyişiklik etmək niyyətində deyil.

**Rusiya isə hesab edir ki, ABŞ-ın Cənubu Qafqazda mövcudluğu Kremli cənub sərhədlərinə nəzarətdən məhrum edə bilər. Kreml anlayır ki, Azərbaycan və Gürcüstanın Qərbə açıq olması Şimali Qafqazda Kreml əleyhinə hazırlanan planların işə düşməsi ilə sonuclana bilər. Odur ki, Azərbaycandakı "rus uşaq"larını danışdırmağa başlayıb...**

**Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi fonunda İsrail Türkiyəyə qaz ixrac edə biləcəyini açıqlayıb. Bir neçə gündür İsrail mediası bu məsələ ilə bağlı müzakirələr aparır. Həm rəsmilərin, həm də siyasi ekspertlərin açıqlamalarından bəlli olur ki, İsrail tərəfi iqtisadi münasibətlərin dərinləşdirilməsi ilə iki ölkə arasında uzun müddətdir davam edən soyuq münasibətlərin bitməsini mümkün sayır.**



# "Bakı Ankara-Təl-Əviv yaxınlaşmasına vasitəçilik edə bilər"

## Elxan Şahinoğlu İsraillə Türkiyə arasında qaz anlaşmasının bölgədə yeni düzən yarada biləcəyini deyir

**"Səudiyyə Ərəbistanı və Qətər xaricində ərəb dünyası Türkiyənin yanında yer almadı, heç biri "Türkiyənin sərhədini pozan təyyarəni vurmaq hüququ var" ifadəsini səsləndirmədi. Belə olan halda Türkiyənin yenidən İsraillə münasibətlərini normallaşdırmasına ehtiyac var"**

İsrail ekspertləri bildirir ki, Kremllə Ankara arasında uçaq krizi Türkiyənin Rusiya, eləcə də Rusiyanın əbədi, əzəli müttəfiqi İranla münasibətlərində ciddi çatlar yaradacaq. Bu durum Rusiyanın Türkiyəyə qaz satışında da problemlərə səbəb olacaq.

**"Rəsmi Bakı, nəhayət ki, "İran amilini" kənarda qoyub İsraildə səfirlik açmalıdır"**

İsrailin Kiprə yaxın iqtisadi sularından çıxarılan neft Ankara üçün Rusiya qazını əvəz edə bilər. Üstəlik bu qaz Türkiyə üzərindən yeni boru xətti çəkilməklə İsrail qazının Avropaya daşınmasına imkan yaradar. **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** "Yeni Müsavat"a müsahibəsində bu layihənin real olduğunu deyib.

**- Elxan bəy, bölgədəki yeni siyasi-iqtisadi durum uzun illərin gərginliyi aradan qaldıra, Netahyahu- Ərdoğan yaxınlaşmasına səbəb ola bilərmi?**

- Hesab edirəm ki, Türkiyənin Rusiya, İran və İraqın mərkəzi hakimiyyəti ilə münasibətlərinin gərginləşməsi fonunda Ankaranın İsraillə əlaqələrini normallaşdırmaq zərurəti yaranıb. Türkiyənin hazırki prezidenti, keçmiş baş naziri Rəcəb Təyyub Ərdoğan Davosdakı məşhur çıxışında İsraili Qəzza bölgəsini dağıtmaqda və qətliamlarda ittiham etmişdi. Bu çıxışdan sonra Türkiyə ilə İsrail arasında münasibətlər soyudu. Ərdoğan bununla ərəb dünyasının Türkiyəyə siyasi dəstəyinə və yatırımlarına ümid edirdi. Ancaq reallıqda heç biri baş vermədi. Səudiyyə Ərəbistanı və Qətər xaricində ərəb dünyası Türkiyənin yanında yer almadı, heç biri "Türkiyənin sərhədini pozan təyyarəni vurmaq hüququ var" ifadəsini səsləndirmədi. Belə olan halda Türkiyənin yenidən İsraillə münasibətlərini normallaşdırmasına ehtiyac var. İsrailin Türkiyəyə qaz ixracatı təklifi münasibətlərin normallaşdırılması üçün yaxşı fürsətdir. "Türk axını" layihəsinin dondurulması və İrandan qaz ixracatının azalması fonunda İsrailin təklifini müsbət dəyərləndirmək lazımdır.

**- Əgər Türkiyə-İsrail yaxınlaşması baş verərsə, bu Ankara-Tehran münasibətlərinə necə təsir edə bilər?**

- Türkiyə cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan İsraillə əlaqələri yenidən bərpa etməyə qərar verərsə, "görəsən Tehran buna necə reaksiya verəcək" sualı üzərində baş sındırmayacaq. Çünki Ərdoğanın Davos çıxışına və 2010-cu ildə İsrailin hərbi qüvvələrinin Türkiyəyə məxsus "Mavi Mərmərə" gəmisinə hücumuna qədər iki ölkə arasında strateji tərəfdaşlıq münasibətləri var idi.

**"Tehran Ankaranın əməyini yerə vurdu"**

Hətta iki ölkə arasında birgə hərbi təlimlər keçirilirdi. Ərdoğan hakimiyyətinin ilk illərində İsraillə əməkdaşlığı davam edirdi. Ərdoğan İsrail hökumətinə hətta Suriya ilə aralarındakı problemləri həll etmək üçün vasitəçilik də təklif etmişdi. Ancaq bir az sonra Ərdoğan həm İsraillə, həm də Suriya hakimiyyəti ilə körpüləri yandırdı. Suriyadakı savaş Türkiyə-İran

**"İsraillə münasibətlərin normallaşdırılması həm də dünyadakı yəhudi lobbisinin dəstəyini qazanmaq deməkdir. Türkiyənin belə bir dəstəyə də ehtiyacı var"**

münasibətlərinə də mənfi təsir edib. Ankara Əsədsiz Suriya formulunu dəstəklədiyi bir vaxtda Tehran Əsəddən ikiəlli yapışıb. İndi də Tehran Rusiyaya dəstək olsun deyə Türkiyəyə qaz ixracatını azaldılmasına çalışır. Bununla Tehran bilərəkdən Ankara ilə münasibətlərin korlanmasına gedir. Təsadüfi deyil ki, Türkiyənin baş naziri Əhməd Davudoğlu partiyasının son toplantısındakı çıxışında İranın siyasətindən narazı qaldığını açıq bildirdi. Davudoğlu haqlıdır. Tehran Türkiyənin yaxşılığını yerə vurdu. Qərb İrana qarşı sanksiyalar tətbiq etdikdə, Ankara bunun əleyhinə çıxdı, İran üçün dünyaya çıxış rolunu oynadı, üstəgəl nüvə probleminin həlli üçün Braziliya ilə birgə təkliflər irəli sürdü ki, İranı Qərbin artan təzyiqlərindən qorusun. Bu yaxşılığın əvəzində isə Tehran hazırda Moskva ilə birləşərək Türkiyəyə əlavə problemlər yaratmaq istəyir. Belə olan halda Ankara İsraillə münasibətləri yenidən normallaşmağa qərar verərkən, İran tərəfə heç boylanmayacaq. Bu yanaşma bizə də aiddir. Rəsmi Bakı nəhayət ki, "İran amilini" kənarda qoyub İsraildə səfirlik açmalıdır.

**- Sizcə, Türkiyə ilə İsrail arasında münasibətlərin normallaşması bölgədə yeni düzən formalaşdıracaqmı?**

- Ankara Tel-Əvivlə münasibətləri normallaşdırarsa, ən azı bir istiqamətdə zərbədən - basqıdan qurtular. Çünki Ərdoğan Qəzza bölgəsinin mühasirəsinə və bombardman edilməsinə görə İsraillə münasibətlərdən qoparkən, Tel-Aviv Türkiyənin bölgədəki maraqlarını zəiflədəcək addımlar atmağa başladı, kürdlərin bir qisminin silahı və kəşfiyyat dəstəyini məhz İsraildən alınmasına dair xəbərlər dolaşdı. İsrail hökuməti Türkiyə əleyhinə Yunanıstan və yunan Kipri ilə sıx əlaqələr qurdu. İndi də əgər Ankara Tel-Avivin qaz ixracatı təklifini qəbul etməzsə, İsrail hökuməti həmin qazı ya Yunanıstana, ya da Kipr yunanlarına satacaq. Ona görə də Ankara tələsməlidir. Türkiyənin düşmənləri getdikcə artır. Bu prosesi dayandırmaq və tərsinə hərəkət etdirmək lazımdır. Bunun birinci addım isə İsraillə münasibətlərin normallaşdırmasından keçir. İsraillə münasibətləri normallaşdırılması həm də dünyadakı yəhudi lobbisinin dəstəyini qazanmaq deməkdir. Türkiyənin belə bir dəstəyə də ehtiyacı var. Bu mənada Azərbaycan öz xidmətlərini Ankaraya təklif edə bilər. Rəsmi Bakının Ankara ilə sıx münasibətləri olduğu kimi Tel-Əvivlə də sıx əməkdaşlığı var. Rəsmi Bakının Moskvanı Ankara ilə barışdırması alınmadı, ancaq Ankaranı Tel-Avivlə barışdırması imkanı daxilindədir.

❑ **Aygün Muradxanlı**

YENİ MÜSAVAT
N 277 (6304) 12 dekabr 2015




# Türkiyə üçün və Türkiyənin "xilas kəməri"

## Ərdoğanın kritik Türkmənistan səfəri bir çox "i"lərin üzərinə nöqtə qoya bilər; Tehran Moskvanın Ankara əleyhinə qaz planlarına qoşulacaqmı? Türkiyənin özünüxilası Avropanın da Rusiya asılılığından xilası demək olacaq, çünki...

**Dünən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkmənistana rəsmi səfərə başlamalı idi. Səfər ən əvvəl "Su-24" insidentindən sonra gərginləşmiş Ankara-Moskva münasibətlərində hansı gəlişmələrə gətirə biləcəyi ilə diqqətdə idi. Söhbət öncələrdə də qeyd elədiyimiz kimi, Rusiyanın mümkün qaz şantajına qarşı Türkmənistanın, Azərbaycanın, digər dost-müttəfiq ölkələrinin hesabına qardaş ölkənin nə dərəcədə çevik və önləyici tədbirlər görəcəyindən gedir.**

Bu xüsusda baş nazir Əhməd Davudoğlunun Bakı ziyarətindən az sonra Ərdoğanın Türkmənistana səfəri mühüm önəm daşıyır. Eyni zamanda səfərin Türkiyə-Rusiya iqtisadi savaşında hara qədər genişlənə biləcəyinə müəyyən aydınlıq gətirməlidir. Doğrudur, hələ ki, şimal qonşumuz Türkiyəyə qaz nəqlini dayandırmayıb. Lakin Putinin son hədələrindən bəlli olur ki, Kremlin qaz nəqlinə zəmanəti 24 noyabradək kimi 100%-li də deyil.

Hərçənd, bu arada Rusiya tərəfdən Türkiyə tərəfdən münasibətlərin bərpasına yönəlik kövrək notlar da səslənir. Məsələn, Rusiya XİN-in nümayəndəsi Mariya Zaxarova "Vestnik Kavkaza" nəşrinə müsahibəsində iki ölkə arasında yaranmış durumu şərh edərkən bildirib ki, "Rusiya Türkiyəni və türk xalqını dost sayır".

Sitat: "Bizim dostluğumuz sözdə yox, əməldə öz təsdiqini tapıb. Əlbəttə ki, bizim tariximizdə müxtəlif məqamlar və müxtəlif vaxtlar olub, ancaq biz tərəfdən əlaqələrin inkişafı və irəliyə hərəkətin xeyrinə prinsipial seçim edilib... Son illər çoxlu sayda ortaq Rusiya-Türkiyə ailələri yaranıb. Onlar üçün həm Türkiyə, həm də Rusiya doğma evləridir. Bu adamlar hər iki dövləti sevir. Onların ortaq övladları var. Bu insanların hamısı sanki ikitərəfli əlaqələrin mahiyyətinə çevrilib".

Diplomat sonda iddia edib ki, "nə vurulan "Su-24" təyyarəsi, nə də Rusiya öz tarixində heç vaxt Türkiyəni hədələməyib. Lakin xoşməramlı jestlərə rəğmən Rusiya rəsmisi Türkiyənin insidentə görə günahkar olduğunu və üzr istəməli olduğunu söyləməyi də unutmayıb. Bunu isə Türkiyə heç vaxt etməyəcək. Demək, əlaqələr də qeyri-müəyyən vaxtadək gərgin qalacaq, bəlkə də bir qədər də kəskinləşəcək.

***

"Hazırda Türkiyə əleyhinə atılan addımlar şantaj xarakter daşıyır və hay-küydən savayı bir şey deyil. Politoloq Qabil Hüseynli bu sözləri Axar.az-a açıqlamasında deyib. Sabiq dövlət müşavirinə görə, Rusiya və İran Türkiyəni təkləyə bilməyəcək: "İran Rusiyanın diktəsi ilə hərəkət eləsə də, Türkiyəni təkləyə bilməyəcəklər. Türkiyənin yanında NATO və ABŞ var. Türkiyə özü də bir NATO ölkəsi kimi müstəqil sürətdə istənilən şantaj və iqtisadi sanksiyalara cavab vermək qüdrətindədir. Ankara İranın belə bir addım atacağını öncədən bilirdi. Məhz buna görə də qaz axtarışlarına çıxmışdı. Qətər və Əlcəzair Türkiyəyə söz verib. Eyni zamanda "Şahdəniz-2" və TANAP işə düşərsə, Türkiyənin başqa dövlətlərdən qaz asılılığı aradan qalxacaq".

Politoloq hesab edir ki, əgər Türkiyənin qaza ehtiyacı kəskin artsa, onda Avropa ölkələri də hərəkətə keçə bilər: "Məsələn, böyük qaz istehsalçıları Norveç və ABŞ da Türkiyəyə qaz nəql edə bilər. Bor sözlə, Moskva və Tehranın hədəfləri nəticəsiz qalacaq. Çünki Türkiyə də Rusiyaya qarşı sanksiyalar hazırlayır. Türkiyəyə qarşı bu cür addım rublun inflyasiyasını artırıb, rus bazarları bahalaşma riski ilə üz-üzədir. Bu isə rus əhalinin büdcəsinə ciddi zərbə vuracaq. Rusiya hələ ki, hədə-qorxu taktikasından istifadə edir. Ötən illə müqayisədə Rusiya iqtisadiyyatında geriləmə baş verir. Bir sözlə, Türkiyənin sərəncamında olan bir sıra məsələlər var ki, Ankara bunları işə salarsa, Moskva daha çox əziyyət çəkəcək. O ki qaldı İrana, belə bir zamanda Rusiyanın sözü ilə oturub-durmaq Tehranın nüfuzuna böyük zərbə vuracaq".

*"Türkmənistan Türkiyə üçün çox əlverişli tərəfdaşa çevrilə bilər"*. Bu sözləri isə **politoloq Tofiq Abbasov** deyib. Onun fikrincə, Ankara-Moskva münasibətlərinin hazırkı durumu bu iki dövlət arasında qaz anlaşmasının əldə olunması üçün hər hansı müsbət dönüş vəd etmir: "Türkiyə qaz tranziti ölkəsinə çevrilmə planından əsla əl çəkmək niyyətində deyil. Odur ki, Ankara indi Moskvanın alternativini tapmaq istəyir ki, yaxın gələcəkdə Avropaya enerjidaşıyıcısının ötürülməsində özünün tranzit-paylaşdırıcı funksiyasını gerçəkləşdirsin. Bu mənada Türkmənistan Türkiyə üçün çox əlverişli tərəfdaşa çevrilə bilər. Təbii ki, Ankara həm də Transxəzər layihəsinin reallaşması yolunda hazırda fəallıq göstərir. Əvvəla, bu layihə gerçəkləşsə, Rusiya ciddi zərbə almış olacaq. Çünki dənizin altından çəkilməsi nəzərdə tutulan boru kəməri türkmən qazının qiymətini optimal edəcək. Bundan udan Azərbaycan və Türkiyə olacaq. Yox, Transxəzər layihəsi baş tutmasa, onda mavi enerjidaşıyıcısı İranın ərazisi ilə Türkiyənin ərazisinə çatdırılacaq. Bu variantda isə İran daha çox qazanc əldə edə biləcək, eləcə də Türkiyə də tranzitdən qazanacaq".

Analitik onun da qeyd edib ki, Ankara ilə Moskva arasında barışıq ehtimalı, demək olar, minimum həddədir: "Məhz bu amil Ankaranı tələsməyə sövq edir ki, Avropaya qaz ixracatında boşluq yaranmasın və Türkiyə bu prosesdə gözlədiyi mənfəəti götürə bilsin. Türkmənistan hazırda qazının böyük həcmini Çinə göndərir və Pekin həmin resursun özü üçün vacib əhəmiyyət kəsb etdiyini bildirir. Təsadüfi deyil ki, Çin Türkmənistanın enerji sektoruna çox miqdarda sərmayə qoymağı nəzərdə tutub. Hər halda, bu iki ölkənin qaz ətrafındakı anlaşması ən azı 25-30 ilə nəzərdə tutub".

***

**Göründüyü kimi, Moskva ilə gərginləşən münasibətlər Türkiyənin həm də Avropaya doğru bir etibarlı qaz tranzit ölkəsi, qaz xabı (paylayıcısı) kimi öz önəmini qoruyub saxlamaq zərurəti yaradıb. Dekabrda Davudoğlunun Azərbaycana, Ərdoğanın isə Türkmənistan səfərlərində əsas hədəflərdən biri də budur. Çünki energetik önəm həm də siyasi önəm, siyasi bağlılıq yaradır. Bu mənada Türkiyə özünə energetik "xilas kəməri" axtarmaqla əslində elə Avropa üçün də xilaskar rolunda çıxış edir.**

❑ **Analitik xidmət**

# Böyük siyasətin böyük adamları...



**Hüseynbala SƏLİMOV**

**Əvvəlcə bir gileydən başlamaq istərdim. Telekanallar az qala bütün günü insanları zövqsüz verilişlərlə və filmlərlə məşğul edirlər. Arabir maraqlı film də göstərməyə çalışırlar. Amma onları gecə saatlarında, gecədən bir xeyli keçmiş göstərirlər. O qədər gec olur ki, adam istəsə də bu filmlərə baxa bilmir... Bu səbəbdən mən bu yaxınlarda U.Çerçill haqqında filmə baxa bilmədim. Halbuki o, mənim üçün həmişə olduqca maraqlı insan olub. Nə qədər qəribə olsa da, xaraktercə sərt, baxışlarına görə isə mühafizəkar olan bu adam Avropanın bütünləşməsinə, qitədə demokratiyanın qorunub saxlanılmasına hamıdan çox töhfə verib.**

Müharibənin udulmasında müstəsna xidmətləri olan bu adam müharibə bitəndən sonra ilk seçkini uduzdu. Həmin vaxt onun iki müxtəlif fikir dediyi iddia olunur. Bəzilərinə görə, U.Çerçil deyibmiş ki, böyük millətlərin özlərinin böyük oğullarına sayğısızlığı təəccüblü görünməməlidir, ona görə ki, onlar böyük millətlərdir. Digərləri isə iddia edir ki, o günlərdə Çerçill özünə məxsus təmkinini saxlayaraq "Bu, demokratiyadır. Məgər biz onun uğrunda mübarizə aparmırdıqmı?" deyibmiş...

Nə isə... Qayıdaq gündəlik siyasi məsələlərə. Bu günlərdə Almaniyanın kansleri A.Merkel ilin adamı elan olundu. Mənim bu qadına münasibətim hər vaxt mürəkkəb olub.

Onun ikinci "dəmir ledi" olduğunu etiraf edirəm. Çox güclü bir siyasətçi olduğunu da qəbul edirəm. Avropanın tarixində bəlkə də üç parlaq lider olub - U.Çerçill, M.Tetçer və A. Merkel...

Ola bilsin, mənim sonuncunu Çerçill və Tetçerlə bir sıraya qoymağım bir az təəccüblü görünəcək, çünki bu qitənin tarixində bəlkə də daha böyük siyasətçilər olub. Elə Almaniyanın özündə K.Adenauer və H.Koll kimi siyasətçilər olub. Olsun... Bunu ən azı bir siyasi zövq və yaxud da münasibət kimi qəbul etmək lazımdır...

A.Merkelə mənfi münasibətimin mayasında onun Gürcüstanın və digər gənc ölkələrin NATO-ya üzv olmasına mane olması dayanır. Bəlkə də bu amil həmin ölkələrin NATO-ya üzv olmasında heç də həlledici amil deyildi. Amma mən Almaniya kanslerinə bunu bağışlaya bilmirəm. Fəqət, zaman özü bu xanımı Rusiyaya qarşı yönəlməyə məcbur etdi. İndi A.Merkel Rusiyaya qarşı siyasətin Avropadakı bayraqdarlarından hesab olunur...

Bu günlərdə Almaniyada 2017-ci ildə keçiriləcək parlament seçkilərinə hazırlıq barədə yazını oxuyurdum. Merkelin partiyası ölkənin Rusiyaya yönəlik siyasətinin əsaslarını müəyyən edən prinsiplər hazırlayıb. Həmin bu prinsiplər heç də qərəzli deyil. Bunu etiraf etmək məcburiyyətindəyik. Onlar Rusiya qarşısında şərt qoyur. Əgər bu ölkə özünün Ukraynadakı siyasətindən əl çəkərsə, o halda Rusiyaya qarşı siyasət də yenidən təftiş oluna və düzəlişlərə məruz qala bilər...

Amma böyük siyasət böyük siyasətdir. Bu gün Rusiya Aralıq dənizindəki və Xəzərdəki gəmilərindən İŞİD-in mövqelərini bombalayır. Təbii ki, bu, həm də bir nümayişdir - ruslar özlərinin SSRİ-nin dağılmasından sonrakı ilk geosiyasi debütlərini mümkün qədər daha təsirli etmək istəyirlər...

Həm də ruslar göstərmək istəyirlər ki, heç bir halda birqütblü dünya modelini qəbul etməyəcəklər. Tam büdcəsi ABŞ-ın hərbi büdcəsinin yarısına bərabər olan bir ölkənin belə iddialara düşməsi nə qədər real və əsaslıdır? Ruslar belə hesab edir ki, hərbi xərcləri artırmadan da ABŞ-a başğrısı ola bilərlər. Bunun üçün onlara imkan yaradan bu ölkənin nüvə başlıqlarının sayına görə dünyada ikinci ölkə olmasıdır. Bəli, nüvə başlıqları hələ də dünya siyasətində mühüm amil olaraq qalır...

Daha bir qütb olmağa iddialı geosiyasi komponentlərdən biri də birləşmiş Avropa idi. Amma miqrant axını, avronun mövqelərinin sarsılması, Avropanı, daha doğrusu, onun bəzi regionlarını bürüyən iqtisadi böhran onun bu cəhdlərini bir qədər zəiflətdi. Son vaxtlara qədər Avropa dünya siyasətində çox fəal idi. Avropa isə bu gün daha çox Almaniya deməkdir. Hərçənd Çerçill bir qədər fərqli düşünürdü. O, həmişə deyirdi ki, zəif İngiltərə zəif Avropa deməkdir. Hələ onu demirəm ki, Fransa da az iddialı görünmür. Amma məsəl var, deyirlər ki, toyun xərcini kim çəkirsə, hədiyyələr də ona çatır...

**Bu gün Avropadakı xərclər Almaniyanın boynundadır. Almaniyanın kansleri isə A.Merkeldir. Ona görə də istəsək də, istəməsək də, bu xanımın ilin birinci adamı olmasını qəbul etmək zorundayıq, çünki ilin birinci adamı birincilərin sırasından seçilir...**

Yeni MÜSAVAT
N 277 (6305) 12 dekabr 2015

# Kəllə xoşlayan uşaqlar



Zamin HACI
zaminhaci@mail.ru

**Məktəbin ağzında bir qardaş ət satır, hər dəfə dana kəlləsini, kəsilmiş ayaqları çöldən, dükanın qapısının üstündən asırdı. Bəzən dana kəlləsinin bütün üzü qan içində olurdu. İnək ağ, boz rəngdə olanda qan xüsusilə açıq, qorxunc görünürdü. Bir gün dözmədim, getdim xahiş elədim bunları dərs günləri eləməsin, balaca uşaqlara pis təsir edir. Sağ olsun, sözümü yerə salmadı (açığı, qəssablardan qorxuram, desəydi hoppan burdan, heç bilmirəm neyləyərdim), ancaq belə bir söz dedi: “Ən çox uşaqların xoşuna gəlir dana kəlləsi. Baxıb gülürdülər”. İnanmağım gəlmədi, pis olan uşaqları şəxsən görmüşəm, ancaq nə biləsən...**

Bəlkə artıq təhsil islahatı uğurla nəticə vermişdir? Bəlkə doğrudan da sabah məktəbə gedən balacalar ordan dana kəlləsi, dırnaq asılmasını görməyib dilxor olacaqlar, onları təhsil yollarında müşaiyət edən bu sevincdən məhrum edən kəsi - məni qarğıyacaqlar? Əgər belədirsə uşaqlardan üzr istəyirəm. Hələlik monitorinq davam edir, qəssab qardaşımız da xahişimizi yerə salmayıb, görək axırı nə olacaq.

Yeri gəlmişkən, keçən aylarda yeni təhsil nazirimiz Mikayıl müəllim “Maarifçi Fondu” adlı yeni bir maliyyə qurumu yaradılacağından xəbər vermişdi. Bu fond dövlət büdcəsindən qıraqda olacaq, tələbələrə qrant və yardımlar verilməsinə baxacaqdı. Düzü bilmirəm o fondun yaradılması hansı yerdə qaldı, ancaq dövlətin neft gəlirlərinin azalmasına qarşı tədbirlər planı bizi gözləyən daha maraqlı günlərdən xəbər verir. Dərsə getməyən uşaqların valideynlərini 100 manat cərimə eləməyin ardıyca “ştuçni” siqaret və 100 qram araq satanların cəriməsi xəbərləri gəldi. Bundan başqa, məscid və şadlıq evlərinə kamera qoyulacaq, düzgün dua eləməyən, həmçinin, yaxşı sağlıq deməyənlər cərimələnəcək. İcazəsiz mitinqə çıxanlar birbaşa 3 min manat cərimə ediləcək.

Bütün bunlar dövlət büdcəsi kəsirlərini doldurmaq üçün yaxşıdır. Molla Nəsrəddinin məşhur iqtisadi islahatındakı kimi, qənaət rejiminə keçirik, təki əcəl imkan versin. Hər devalvasiya qabağı bir-iki nazir qurban kəsmək effekt vermədi. Maliyyə ilahəmizə kütləvi qurbanlar lazımdır. Deputatxana qışda papaqsız küçəyə çıxanlar, corabsız ayaqqabı geyənlər, əsnəyəndə ağzını əliylə örtməyənlər, metroda gəyirənlər, sol əliylə sağ qulağını qaşıyanlar, dırnağını tutmayanlar, bığsız saqqal, saqqalsız bığ saxlayanlar, tək asqıranda “Əlhəmdüllah”, cüt asqıranda “Sağlam ol” deməyənlərə qarşı da müxtəlif cərimələr tətbiq edəcəkdir, bunlar hamısı İnzibati Xətalar Məcəlləsinə salınacaqdır.

Müftə pendir siçan tələsində olur - ingilis məsəlində deyilən kimi. Bizim ana yurdumuz isə tələ deyil, dünyanın analoqu olmayan, ən sürətli inkişaf etmiş məkanıdır. Cənnət görmək istəyən Azərbaycana gəlirsə, biz azərbaycanlılar burada yaşamağımızın qədrini bilməliyik, haqqını verməliyik. Vergilər, büdcəyə ödəmələr, cərimələr aşağı olanda, yaxud, ümumiyyətlə olmayanda hər yerdən cürbəcür antimilli ünsürlər axışıb gəlirdi. Ermənilər hətta ailəlikcə gəlirdilər!

Sonda media səhifələrindəki iki diskussiyaya qısa münasibətimi açıqlamaq istərdim. Bunlardan birində deputat Nafiq Həmzəyev Məhəmməd Əmin Rəsulzadəni, ikincisində isə eks-prezident Ayaz Mütəllibov həmkarı Əbülfəz Elçibəyi tənqid edib. (Bəziləri “təhqir edib” yazır, ancaq bunun üzərində xüsusi dayanmayaq).

Açığı, mən Elçibəyi dar günə atıb istefa verən komandasının üzvlərindən Mütəllibova qarşı nifrət açıqlamaları görəndə qımışdım. Vaxtilə Elçibəy özü “Surətin qiyamını niyə önləmədiniz” sualıma “Kimlə edəydim” cavabı vermişdi. Bu heç. Mən ən çox Rəsulzadə məsələsində narahat oldum. Nəsiman Yaqublu təklif eləmişdi ki, Rəsulzadəni təhqirləri qadağan edən qanun yaradılsın.

**Məncə, Rəsulzadə özü sağ olsa birinci bu qanuna qarşı çıxardı. Bu, tələdir. Yapistlərə sərf edən düşüncədir. Söz azadlığına hər hansı qadağa ziyanlıdır. Söz azadlığı həm də bizim xoşumuza gəlməyən, hətta təhqir saydığımız fikirləri nəzərdə tutur. *(Təbii, kimlərinsə sağlığına zərər vurmayan azadlıqdan söhbət gedir, bunu çox xırdalamağa yer yoxdur).* İctimai şəxsiyyətlər haqda hər cür müzakirə isə ümumiyyətlə qadağan edilə bilməz.**

# “Akif Çovdarov açıq deyirdi ki, Eldar Mahmudov Azərbaycanın gələcək baş naziridir” - Ərəstun Oruclu ilə müsahibə

## Tanınmış ekspertdən sensasion açıqlamalar: “Bu komandanın qarşısında bir məqsəd dururdu, hakimiyyəti ələ keçirmək”; “Neft daşlarındakı yanğından sonra matəm elan olundu ki, bu da həmin hadisənin terror olmadığını göstərən məqamdır”; “Eldar Mahmudov və onun dəstəsinin vurulmasının səbəbi siyasət idi”

**Son günlər ölkə gündəmi heç vaxt olmadığı qədər qaynar və gərgindir. MTN-də baş verən həbslər, Nardaran olayları, qalmaqalların “istisi” soyumamış, neft daşlarında baş verən yanğın ölkədəki əhvalı daha da gərginləşdirdi.**

**“Şərq-Qərb Araşdırmalar Mərkəzi”nin rəhbəri Ərəstun Oruclu** “Yeni Müsavat”ı maraqlandıran bütün suallara cavab verməklə, ağıllarda qalan sual işarələrinin bir qismini də yox etdi. MTN olayları, Nardarandakı çaxnaşma, neft daşlarındakı yanğın... eləcə də onların alt qatında gizlənən gerçəkliklər.

Qəzetimizin baş redaktoru Rauf Arifoğlunun və əməkdaşımızın suallarını cavablayan ekspert bu günə qədər gizli qalan bir çox həqiqətləri üzə çıxardı.



***- Aylardır ki, Azərbaycan bir gərginliyin içərisinə girib. Binəqədidəki yanğından başlayan, Bank işləri, MTN-dəki həbslər, Nardaran olayları ilə davam edən və son olaraq neft daşlarında baş verən yanğın... bunlar aylardır gündəmi zəbt edib. Hətta bu siyahıya Avropa Oyunları zamanı avtobusun yol verdiyi qəzanı və son günlər ermənilərlə intensivləşən silahlı toqquşmaları da daxil etmək mümkündür. Sanki ölkəmizə bir sui-qəsd ssenarisi tətbiq olunur. Sizcə, bu hadisələrin bir-biri ilə bağı var, ya sırf təsadüflərdir?***

- Xeyr, bunlar bir-biri ilə bağlıdır. Tamamilə razıyam ki, Azərbaycan son bir il ərzində çox gərgin bir mərhələyə keçdi. Binəqədidəki bina yanğını təsadüfi deyildi. Təsadüfi yanğın beşmərtəbəli binada, başqa bir binada ola bilərdi. Amma 16 mərtəbəli bir binanın yanması, yandırılması günü Azərbaycanda ATƏT-in təşəbbüsü və iştirakı ilə “Azərbaycanda tolerantlıq” mövzusunda konfrans keçirilirdi. Orada xeyli mühüm “kölgə fiqurları” iştirak edirdi. Bu barədə mətbuat çox geniş yazmadı. Amma mən şəxsən konfrans iştirakçılarının bir hissəsi ilə görüşmüşəm... O zamankı hadisə hamısı Azərbaycana sərt mesajların verilməsinin başlanğıcı idi.

***- Niyə verirlər o sərt mesajı? Nə baş verir ki, böyük güclər Azərbaycana belə sərt mesajlar verir?***

- Bunun başlıca səbəbi odur ki, indiki geosiyasi qarşıdurma dönəmində, hansı ki, Ukrayna prosesindən açıq mərhələyə keçdi, tərəflərin hər biri Azərbaycanı öz yanında görmək istəyir.

***- Yəni artıq manevr imkanı yoxdur...***

- Bəli, manevr imkanı məhdudlaşır, konkret mövqe istənilir. Qərb bunu qapalı şəkildə edir. Məsələn, Riqa sammitinə İlham Əliyevin getməməsinə bir qədər dözümlü yanaşdılar. Amma Qərb Ukraynaya yanaşdığı kimi Azərbaycana yanaşmadı.

***- Hansı mənada?***

- Ukraynadan tələb etdiyini Azərbaycandan tələb etmədi ki, mütləq daxil olmalısan. Amma deyək ki, Riqa sammiti başlayanda, ondan bir il əvvəl artıq bu söhbətlər pərdəarxasında mövcud idi ki, Azərbaycan uğrunda savaş başlayacaq. Yaxşı tanıdığım, mötəbər insanlardan biri o zaman dedi ki, Azərbaycan Rusiyanın yanında olmayacaq. Bu, mənə bir qədər təəccüblü gəldi, açığı. Biz bilirik ki, Azərbaycanda hakim siyasi elitada Rusiyaya loyal zümrənin çəkisi həddən artıq çoxdur. Bu halda sözünün çəkisi olan zümrənin fonunda bu nə dərəcədə mümkündür? Müəyyən hesablamalar apardıq. Gördük ki, Rusiyanın Azərbaycana verdiyi təkliflər - Gömrük İttifaqına inteqrasiya və Avrasiya İqtisadi Birliyinə qoşulma nə Azərbaycandakı hakim elitanın, nə də Azərbaycanın dövlət maraqlarına cavab verir. Rusiyada da rəsmilərin dilindən bu çağırış qabarıq şəkildə irəli sürülməyib. Amma Kremlə yaxın siyasi ekspertlər, millət vəkilləri Azərbaycanı Gömrük İttifaqında görmək istədiklərini açıqlayıblar. Belə olduğu halda, təbii ki, Azərbaycana təzyiqlər etmək lazımdır. Təzyiqlər hər iki tərəfdən idi - Qərbdən də, Rusiyadan da. Qərbdən siyasi məhbuslarla, Dağlıq Qarabağla bağlı həyata keçirilirdi. Amma Qərb burda da dərinə getmirdi. Məsələn, Serj Sərkisyan Ağ Evə dəvət olunmadı. Serj Sərkisyan getdi Vaşinqtona, dövlət katibi tərəfindən qəbul olundu.



## “Antiterror Mərkəzinin əməkdaşları və rəhbərləri nəylə məşğul idilər? Media ilə... 48 sayt yaratmışdılar”

***- Qərb bu jestləri “humanist” olması səbəbindənmi edirdi?***

- Xeyr, praqmatik olması nöqteyi-nəzərdən edir. Qərbin siyasəti həmişə soyuqqanlı olub.

***- Qərbin istədiyi iki-üç adamdan ikisi - Yunuslar artıq azadlığa çıxdı. Bu, hansısa bir anlaşmanın nəticəsidir?***

- Mənə elə gəlir ki, bu, Azərbaycan hakimiyyətinin mesajıdır. Təzyiqlər fonunda, Rusiya-Türkiyə münasibətlərindəki gərginlik var. Bu iki dövlət arasındakı münaqişə fonunda Ermənistanın əhəmiyyəti artır. Ermənistan Rusiyanın hərbi bazasıdır. Belə olan halda mövcud münaqişənin Azərbaycanın xeyrinə həll olunması ehtimalı da sıfra bərabərdir.

***- İndi Qarabağdakı son gərgin vəziyyət də bununmu nəticəsidir?***

- Birmənalı olaraq belədir. Azərbaycana xəbərdarlıq və təzyiqdir. Və ilk dəfə olaraq Azərbaycan ordusu tankları işə saldı. Bu da qarşılıqlı mesajdır ki, biz buna da hazırıq. Təsadüfi deyil ki, bu ərəfədə Türkiyə rəsmiləri ardıcıl olaraq Azərbaycana səfər etdi.

***- Amma bu səfər bizə baha başa gəldi. Neft daşlarındakı yanğını nəzərdə tuturam.***

- Açığı, mən orda təxribat elementləri görmürəm.Düşünürəm ki, bu qəza idi. Hava durumu ilə bağı qəza idi, məsuliyyətsizlik faktoru vardı. Bilirsiz ki, o tufan şəraitində bp öz işçilərini təxliyə etmişdi. Amma indi də Azərbaycan rəsmiləri and-aman edirlər ki, təxliyə üçün əsas yox idi.

## “MTN rəhbərliyi özləri haqqında hakimiyyətin yüksək eşalonunda belə bir fikir formalaşdırmağa nail olmuşdular ki, biz hakimiyyətin təhlükəsizliyinin təminatçısıyıq”

***- O qaz borusu partlaması olmasaydı, insanlar sağ qalacaqdı.***

- Təbii ki. Rəsmi versiya və bizim də əldə etdiyimiz məlumat budur ki, neft buruğu aşıb, qaz daşıyan borunu zədələyib. Metalların toqquşmasında da qığılcım ani olan bir şeydir. Bu, təbii ki, rəsmi versiyadır. Amma burda maraqlı məqam var. Biz görmüşük ki, terror, təxribat olan yerdə Azərbaycan hakimiyyəti heç vaxt matəm elan etməyib. Nə Neft Akademiyasında, nə Binəqədidəki binadan sonra. Amma neft daşlarındakı yanğından sonra matəm elan olundu ki, bu da həmin hadisənin terror olmadığını göstərən məqamdır.

***- Yəni bundan əvvəl baş verənlər zamanı onu edən qüvvələrə “sən məni matəmə sala bilməzsən, mən dözəcəm”, mesajı vermə məqsədimi vardı?***

- Bəli, məhz bu mesajı vermək idi məqsəd. İndiki isə qəza olduğu üçün matəm elan edildi.

***- Paralel olaraq, Qarabağda gərginlik var. Eyni zamanda siyasi sferada da gərginlik davam edir. İki nəfər - Yunuslar azad edildi. Bu, Qərb tərəfindən də müsbət qarşılandı. Amma siyasətdə kifayət qədər tanınan sima, AXCP sədrinin müavini Fuad Qəhrəmanlı həbs olundu. Siyasi cameyədə belə bir rəy vardı ki, onu hansısa gizli əl qoruyurdu. Çünki 2011-2012-ci illərdə Arif Hacılı və başqaları həbs olunarkən eyni maddə, fraqment və ittihamla o, həbsdən yayınmışdı. Bu proseslər nədən xəbər verir? İddialar var ki, Eldar Mahmudovun setinin müxalifətdəki uzantıları da təmizlənir... Bunlar arasında bağlantı görürsüzmü?***

- MTN-in sabiq rəhbərlərinin həbsi, təmizləmə prosesi ilə bağlı dəfələrlə münasibət bildirmişəm. Mən azsaylı adamlardan biriyəm ki, bunun siyasi proses olduğunu demişəm. Eldar Mahmudov və onun dəstəsinin vurulmasının səbəbi siyasət idi. Rəsmi versiyada soyğunçuluq, reketlik və sair göstərilsə də...

***- Hər halda ölkənin iki iri bankını boşaldıblar. Söhbət milyardlarla vəsaitin mənimsənilməsindən də gedir.***

- Amma burda başqa məqamlar da var. Gəlin düşünək: axı bu banklar dünən boşaldılmamışdı. Bu proses uzun müddət idi gedirdi. Təkcə Beynəlxalq Bankla bağlı proses son 6-7 ayı əhatə edirdi. Və hər kəsə bəlli idi ki, orda nələr baş verir. Amma burda incə məqam nədən ibarətdir? Tutaq ki, MTN rəhbərliyi digər nazirlərin, komitə sədrlərinin, dövlət rəsmilərinin özləri və ailə üzvləri ilə bağlı ifşaedici məlumatlar toplamaqla həm oradakı gəlir mənbələrini ələ keçirir, həm də onları iradələrinə tabe edirsə, bu, artıq dəstə, siyasi komanda yaratmaqdır.

***- Sizdə o təəssürat varmı ki, təkcə o, deyil?***

- Bəli, təkcə o deyil. Mən düşünürəm ki, bir neçə yüksək rəsmi gedəcək bu işdə.

***- Ad çəkə bilərsiz?***

- Hələ istəməzdim. Azı iki nazir gedəcək bu işdə.

***- (gülərək) Əvvəlki təcrübədən çıxış edərək bu dəfə də gedərkən bizə deyərsiz ki, bu dəfə hansı nazir gedəcək.***

- Bəli, iki ay əvvəl mən sizə Eldar Mahmudovun vəzifədən gedəcəyi ilə bağlı demişdim. Onun bütün konturları görünürdü.

***- Hər kəsin onu ən güclü bildiyi vaxtda siz onun gedəcəyini demişdiz və dediyiniz də baş tutdu.***

- Maraqlı burasıdır ki, artıq bu komandada siyasi iddialar meydana gəlmişdi. Məsələn, MTN qurumlarından biri, Antiterror Mərkəzinin əməkdaşları və rəhbərləri nəylə məşğul idilər? Media ilə... 48 sayt yaratmışdılar. Bu, bizim hesabladıqlarımızdır. Burda siyasi faktor ortadadır. Çünki media siyasi gücdür həm də. Bütün qərbyönümlü və digər vətəndaş cəmiyyətlərini sıradan çıxarmışdılar. Və ya Qərb ölkələrində öz agenturasına daxil olan insanlardan siyasi mühacir qrupu yaratmışdılar. Hətta onların əli ilə Qərb mətbuatına dövlət başçısı, onun yaxınları haqda ifşaedici məlumatlar da ötürürdülər.

***- Niyə? Kimin marağına xidmət edirdi bu?***

- Hər halda Azərbaycanın və onun rəhbərinin marağını təmsil etmirdilər.

***- Onlar “verbovka” olunmuşdu, təsirə düşmüşdü? Və ya maraq, gəlir əldə etmək, eləcə də gələcəkdə hakimiyyəti ələ keçirmək məqsədi idi?***

- Düşünürəm ki, hamısı bir yerdə və bir-birilə əlaqəli idi. Tutaq ki, Eldar Mahmudovu çox önəmsiz, ağır bir durumdan çıxarıb gətirib, milli təhlükəsizlik naziri təyin eləmiş İlham Əliyevə qarşı bu adamın işləməsi hansı motivlərlə izah olunur?

***- Bu, nonsens idi əslində.***

- Bilirsiz ki, onu Daxili İşlər Nazirliyinin Narkotiklərə qarşı Mübarizə İdarəsinin rəisi təyin etmiş və bir həftə sonra oradan qovmuşdular. Bu qrupu ki, Eldar Mahmudov başına topladı və MTN-in bütün strukturunu əhatə etdilər, onların hamısı polisdən gəlmiş, bəzi hallarda oradan da qovulmuş əməkdaşlar idi.

***- Müsahibələrinizdən birində Rusiya faktorunu da qabartmışdız. Məsələn, Rusiyada çalışan Akif Çovdarov Eldar Mahmudov tərəfindən sistemə gətirilib və sonuncu da Rusiya xüsusi xidmət orqanlarının himayəsi altında çalışıb.***

- Şübhəsiz. Hamısı var. Vaxtilə Əli İnsanovun, Fərhad Əliyevin həbsində, buna “Qərb Azərbaycanda inqilab törətmək istəyir” platformasının verilməsində də indiki MTN rəhbərliyinin müstəsna rolu olmuşdu. Və onlar özləri haqqında hakimiyyətin yüksək eşalonunda belə bir fikir formalaşdırmağa nail olmuşdular ki, onlar hakimiyyətin təhlükəsizliyinin təminatçısıdırlar. Məhz bu səbəbdən də onların bir çox əməllərinə göz yumulurdu. Amma cinayətlər göz qabağında idi. Açıq deyirəm, Səid Dadaşbəylinin dəstəsi ilə bağlı cinayət işində açıqlandı ki, 6 nəfər həbs olunub, prokurorluq və MTN açıqlama verib. Amma məhkəməyə 5 nəfər çıxdı, biri işgəncə nəticəsində dünyasını dəyişibmiş... Bu gün bizə məlum olan faktlara əsasən, artıq prokurorluq bu işgəncə faktları ilə bağlı da istintaq aparır. Bu istintaq zamanı işgəncədən ölən tək şəxs deyil. Və ya Akif Çovdarovun gizli həbsxanası... Çox şey demək olar. Amma məsələyə konseptual yanaşaq. Burada yaranmış cəzasızlıq sindromu bu insanları elə bir həddə çatdırmışdı ki, onlar özlərini siyasi hakimiyyətin təminatçısı kimi görürdülər. Bundan sonra özlərini niyə siyasi hakimiyyət kimi görmək istəməsinlər ki?

***- Siz burada Rusiya amilini qabartdınız. Amma Qərblə münasibətlər, hətta bəzi ekspertlərə görə eks nazirin İran kəşfiyyatı ilə əlaqələri də sadalanan iddialar sırasındadır. Hansıdır bunların? Kim düz deyir?***

- Hamı düz deyir. Bunlar elə geniş əlaqələr sistemi qurmuşdular ki, bütün tərəflərlə münasibətlər vardı.

***- Yəni, Hafiz Əsəd sistemidir də... Hamı ilə gizli dost olmaq...***

- Bəli. Çox düzgün paralel apardız burda. Bilirsiz ki, Hafiz Əsəd və onun davamı olan Bəşər Əsəd rejiminin ən qatı düşməni olan İsrail bu rejimin qalmasında maraqlı idi. Çünki bütün münasibətlər qurulmuşdu və bu, İsraili qane edirdi. Amma onlar İranı da qane edirdi.

***- Hesab edirsiz ki, bizimkilər bu gedişləri edəcək zəkaya sahib olublar?***

- Bu, zəka deyil, avantüra idi. Biz siyasi komponentdən danışırıq. Bu komandanın qarşısında bir məqsəd dururdu, hakimiyyəti ələ keçirmək. Çünki Akif Çovdarov bir neçə yerdə açıq şəkildə demişdi ki, Eldar Mahmudov Azərbaycanın gələcək baş naziridir. Baş nazir nə deməkdirsə, bu, aydındır - prezidenti əvəzləyəcək şəxs. Əgər bu söhbət çıxmışdısa, yuxarılara da məruzə olunmuşdu. Bu baxımdan da MTN rəhbərliyi bir sıra xarici dövlətin rəhbərlərinə, onların ailələrinə qarmaq atırdısa, əlaqələr qurmaq istəyirdisə, bu, artıq siyasi iddialardan xəbər verir. Əgər Prezident Administrasiyasının əməkdaşlarının az qala hamısı nəzarətə götürülürsə, bu, artıq siyasi ambisiyalardan xəbər verir. Hakimiyyətə loyal olmayan siyasi qüvvələr, vətəndaş cəmiyyəti institutları sıradan çıxarılırsa, bu, artıq siyasi iddiadan xəbər verir. Hələ həbslər başlayanda mən qısa bir qeyd yazmışdım ki, maliyyə, kəşfiyyat komponenti var, qaldı siyasi və güc komponenti.

***- Siyasi komponent kim idi? Onların müxalifətə uzantıları var idimi? Var idisə, kimlərə?***

***(Davamı növbəti saylarımızda)***

Söhbəti qələmə aldı:
Sevinc TELMANQIZI





## “Əgər Prezident Administrasiyası əməkdaşlarının az qala hamısı nəzarətə götürülürsə, bu, artıq siyasi ambisiyalardan xəbər verir”

# ABŞ Konqresinin murdarlanması



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Siyasət çirkin sahədir deyənlərə haqq qazandırmamaq getdikcə çətinləşir. Əfsuslar olsun ki, illərdir bu çirkinliyin altını çəkən məmləkətlərdın biri də Azərbaycandır. Keçək mətləbə.**

Neçə gündür separatçı Dağlıq Qarabağ rejiminin “xarici işlər naziri” Karen Mirzoyan Vaşinqtondadır. Əlbəttə ki, ABŞ-a ağır cinayətlərdə adı keçməyən hər kəs turist kimi gedə bilər, hərgah Mirzoyanın özü cinayətkar, qanunsuz bir qurumu təmsil edir.

Hələ harasıdır, saxta nazir müstəqil “dövlətin” təmsilçisi kimi Vaşinqtonda, Konqresdə partapart görüşlər keçirir, “məruzələrlə” çıxış edir. Fotolardan göründüyü kimi, Amerika Konqresdəki təmasların birində ABŞ-ın, Ermənistanın bayrağı ilə yanaşı, “DQR”in böyük bir bayrağı da asılıb. Mirzoyanı görüşlərdə isə Dağlıq Qarabağın ABŞ və Kanadadakı “nümayəndəliyinin” rəhbəri Robert Avetisyan müşayiət edir.

Bütün bunlara, Qarabağ separatçılarına daima qucaq açan, onlara hər il maliyyə yardımı edən ABŞ dövlətinin ikili standart yanaşmasına bəlkə də dözmək olardı, əgər eyni isti münasibət tutaq ki, Krım, Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgənin separatçı liderlərinə qarşı da sərgilənsəydi. Amma tam əksinədir: sonunculara qarşı maliyyə sanksiyaları tətbiq olunub, onların və yaxınlarının Qərb ölkələrinə, ABŞ-a girişi yasaqlanıb, bank hesabları bağlanıb .

İndi bunun ardınca ABŞ-ın Azərbaycandakı səfirliyinin Mirzoyanın səfəri ilə bağlı yaydığı “Birləşmiş Ştatlar, həmçinin Ermənistan da daxil olmaqla, digər heç bir ölkə Dağlıq Qarabağı müstəqil və suveren dövlət kimi tanımır” açıqlamasını necə səmimi sayasan? Tanımaq ayrı necə olur ki? Nə vaxtadək belə növbətçi və quru bəyanatlarla Azərbaycan xalqının başının altına yastıq qoyulacaq? Biz gördüyümüzə inanaq, yoxsa səfirdən eşitdiyimizə?

Tanımamaq Krım, Abxaziya, Cənubi Osetiya kimi olar. Axi saxta “DQR”-in bayraq adlandırılan əski parçasının ABŞ kimi nüfuzlu bir dövlətin parlamentində nə işi? Nədən postsovet məkanındakı başqa separatçı qurumlara da eyni lütfkarlıq göstərilmir, onların bayraqları da Konqresə gətirilmir? Ən önəmlisi, parlamentində Dağlıq Qarabağın separatçı liderinə və uydurma bayrağına yer ayıran bir dövlət Qarabağ məsələsində ədalətli münsifliyə necə iddiaçı ola bilər?

Amerikanın ikili standartına dair başqa bir maraqlı və ibrətamiz detal. Karen Mirzoyan Vaşinqtonda sərbəst şəkildə yüksək səviyyəli görüşlər keçirirkən ABŞ Dövlət Departamenti cəbhə xəttindəki gərginlikdən narahatlıq bildirən bəyanat yaydı, tərəfləri təxribatlardan çəkinməyə çağırdı. Olsun. Amma Mirzoyanın Vaşinqtonda “DQR-in xarici işlər naziri” qismində qəbul və təqdim edilib onunla görüşlər təşkil olunması, Konqresdə separatçı qurumun əskisinin asılması (ABŞ parlamentinin murdarlanması) elə ən böyük təxribat, həm də prezidentlərin görüşü ərəfəsi böyük təxribat deyilmi?

Görəsən, Krım, abxaz, osetin separatçılarına deyil, məhz Qarabağdakı erməni separatçılarına ABŞ-ın bu sevgi-rəğbətinin səbəbi nədir?..

Əslində qoyulan sualların cavabı bəllidir. Əminik, Azərbaycan türk-müsəlman dövləti, zəngin neft-qaz ölkəsi olmasaydı, Ermənistan kimi xristian dövləti olsaydı, o zaman erməni işğalçılarına və separatçılarına yanaşma işğalçı və separatçı ruslara yanaşmadan ciddi fəqrlənməyəcəkdi.

Ən qəribəsi də odur ki, işğalçı Ermənistan bölgədə Qərbin köklü maraqları əleyhinə mövcud olan ən güclü alyansın üzvüdür - Qərbin sanksiyalar tətbiq elədiyi Rusiyanın 1 nömrəli müttəfiqi, forpostudur, onun yanındadır. Bunu o, Krım məsələsində, ötən il BMT-də Ukraynaya dair səsvermə zamanı dönə-dönə nümayiş etdirib. Gəl ki, bütün bunlar Amerikanın işğalçı və separatçı ermənilərə hüsn-rəğbətini azaltmır. “Səni sevəcəyəm sən sevməsən də”?

**Siyasətdəki erməni çirkinliyi də elə budur.**

# "İnana bilmirəm ki, atam dalğalara təslim olsun"

## "Günəşli"nin itkin düşən 61 yaşlı xilasedicisinin ailəsi onun sağ olduğuna inanır

**"Günəşli" yatağında baş verən faciədən artıq 8 gün keçir. 23 neftçidən hələ də xəbər yoxdur. İtkin düşmüş neftçilərin ailələri hələ də ümidlə gözləyirlər. Onlar arasında yolunu gözlədikləri şəxsin sağ qayıdacağına inanlar da var, heç olmasa cansız bədənini belə olsa Xəzər sularından tapılacağına ümid edənlər də var.**

İtkin düşən 23 neftçidən biri - Əbdüləziz Əbdüləzizovun da ailəsi ümidlə gözləyənlərdəndir. Onlar ailə başçısının nə zamansa evə qayıdacağına inanır. Onları ümidləndirən 61 yaşlı dənizçinin təcrübəli xilasedici olmasıdır.



**Ə.Əbdüləzizovun oğlu Zaur Əbdüləzizov** musavat.com-un əməkdaşları ilə söhbətində atasının 40 ildən çoxdur dənizdə işlədiyini, qəza baş verən platformanın əsas xilasedicisi olduğunu və Xəzər sularına asanlıqla təslim olacağına inanmadığını deyir: "Atamın necə təcrübəli xilas edici olduğunu iş yoldaşları, onu tanıyanlar da yaxşı bilir. Elə mən də bu işdə atama çox güvənirəm. İnana bilmirəm ki, o dalğalara təslim olsun. Bəlkə də o platformadadır. Sağ olduğuna inamımı itirməmişəm. Acı xəbərə də hazırıq, amma atamın qayıqdan düşdüyünə, suda boğulduğuna inanmıram".

**Diqqətimizi süfrədə olan nemətlər çəkir. Elə ev sahibləri də süfrəyə baxdığımızı görür. Sualımızın onları incidəcəyini düşündüyümüz üçün əvvəlcə tərəddüd etdik. Ancaq biz sual vermədən əvvəl cavabımızı alırıq:**

"Gördüyünüz bu yeri də qonaqları qəbul etmək üçün düzəltmişik. Dünən yağış yağırdı. Örtük çəkib buranı düzəltmişik. Gələnləri qəbul edirik, çay veririk. Ölüyə də, diriyə də rəhmət var. Gəlib başsağlığı verən də var. Amma buranı düzəltmişik, atam sağ qayıtsın, qonaqlıq verəcəm. Mən hələ də inanıram. Başa düşürəm ya yarlıdır, ya da yanıb. Amma yenə də sağdır".

Söhbətimizin davamında hadisə baş verən günü xatırlayırıq. Həmin gün Zaur atası ilə danışıb. Elə hadisədən 4 saat sonra. Lakin Ə.Əbdüləzizov oğluna və daha əvvəl danışdığı qızına partlayış olması haqda heç nə deməyib. İşinin olduğunu deyən Ə.Əbdüləzizov "sonra danışarıq" deyərək övladları ilə sağollaşıb.



Ailə üzvləri qəzanın baş verməsindən xəbər tutandan sonra Ə.Əbdüləzizovla əlaqə saxlamağa çalışıblar. Lakin onun nömrələrindən birinə zəng çatsa da danışa bilməyiblər.

**Zaur deyir ki, hadisədən 21 saat sonra da atasına zəng çatıb. Elə onları da ümidləndirən bu faktdır. Onların fikrincə suya düşən adamın telefonunun 21 saat işləməsi mümkünsüzdür**: "Atamın iki telefonu var idi. Birini gizli işlədirdi. Həmişə yanında olurdu. O nömrəsinə zəng çatırdı. Hadisədən sonra da telefonuna zəng çatırdı. Orada baş verənlərin necə olduğunu bilmirik. Amma inanmıram ki, telefon suda bu qədər işləsin. Bizə də qaranlıq qalan budur. Atam harada olub? Onlar fikirləşirlər ki, mən atamdan pis xəbər eşitmək istəmirəm. Ona görə də belə deyirəm. Atamın işlədiyi idarədən gələnlər olmuşdu. Deyirlər ki, son ana qədər atamla əlaqə saxlayıblar. Bütün məlumatları atam verib. Qayığa oturmaları, qayığın qırılması xəbərini də guya onlara atam deyib. Bu danışıqların saat 23 radələrində olduğunu deyirlər. Amma o saatda atamın həmin nömrəsinə zəng çatmırdı. Yanında olan telefonu isə bizdən başqa heç kim bilmirdi. Mən də hansı nömrəsinə zəng vurduqlarını soruşdum. Məlum oldu ki, zəng çatan nömrəni bilmirlər".

**Ə.Əbdüləzizovu sonuncu dəfə qayıqda görən olmayıb. Bu qənaətə də Zaur xəstəxanada olan neftçilərlə danışığından sonra gəlib:** "Xəstəxanada görüşdüyüm xilas edilmiş neftçilər dedilər ki, evakuasiya işinə baxan əsas adamlardan biri də atam olub. Fuad adlı başqa xilasedici də olub. Platformada iki xilasedici olub. Atam və Fuad. Atam ona uşaqları olduğunu deyib və qayığa mindirib. Fuad qırılan qayıqda olub. O rəhmətə gedib. Bu gün onun 3 mərasiminə getmişdik. Mənə xəstəxanada olan neftçilərdən biri dedi ki, atamı sonuncu dəfə qayığa adam mindirəndə görüblər. Amma dəqiq bilinmir ki, qayıqda olub, ya yox".

Neftçilər arasında "spasatel Abdul" kimi tanınan Ə.Əbdüləzizov bir neçə dəfə Xəzərin soyuq sularından iş yoldaşlarını xilas edib. Ömrünün 40 ilini dənizdə keçirən Ə.Əbdüləzizov işdə qarşılaşdıqları çətinlikləri ailə üzvlərinin yanında danışmazmış.

**Zaur deyir:** "Atam işdə olanları evdə danışmazdı. Bilirdik ki, çətinliyi çox olur. İşi də təhlükəli idi. Sonuncu dəfə qış aylarından birində dənizə düşən neftçini xilas etmək üçün suya düşmüşdü. Uzun müddət xəstə yatdı. Bir onda bildik ki, başına belə işlər də gəlirmiş. Narahat olmayaq deyə, işlə bağlı danışmırdı".

**Əslində Zaurun dedikləri ilə bağlı kontur-arqumentlər də qoymaq olar. Məsələn, Zaurun telefon məsələsi ilə bağlı dediklərinin qüvvəsini itirməsi üçün demək olar ki, bəlkə telefon hadisə zamanı platformada düşüb. Suya düşməyib və. s Ancaq bu bir ailənin ümididir. Bir oğlunun atasını ümidlə gözləyişidir. Elə anlar olur ki, insanlar əlində olan hər şeyi itirir, ancaq ümiddən başqa...**

❑ **İlkin MURADOV**
❑ **Foto: Məğrur SALMANOV**

# "Günəşli" faciəsi zamanı yaralanan rəis "Yeni Müsavat"a danışdı

## "Həkimlər bildirirlər ki, psixoloji sarsıntım qalıb, yaxın günlərdə bu da keçər"

**Günəşli" yatağında baş verən yanğın zamanı xəsarət alan platforma rəisi Allahverdi Məmmədov səhhəti ilə bağlı musavat.com-a danışıb. O bildirib ki, yaxın günlərdə müalicə aldığı Mərkəzi Neftçilər Xəstəxanasından ambulator müalicə üçün evə buraxılacağı gözlənilir: "Səhhətim əvvəlki günlərlə müqayisədə daha yaxşıdır. Tez-tez müayinə edirlər. Həkimlər ciddi nəzarətdə saxlayıblar bizi. Digər yüngül xəsarət alan yoldaşlarımız artıq evə buraxılıb. Mənim də yaxın günlərdə xəstəxanadan çıxmağım gözlənsilir. Həkimlər bildirirlər ki, psixoloji sarsıntım qalıb, yaxın günlərdə bu da keçər".**

Qeyd edək ki, hadisə zamanı xəsarət alan neftçilərdən yalnız Allahverdi Məmmədovun üzərində cərrahiyyə əməliyyatı aparılıb.



**Xatırladaq ki, dekabrın 4-ü axşam saatlarında "Günəşli" yatağındakı 10-cu dərin dəniz özülündə güclü yanğın hadisəsi baş verib. Rəsmi məlumata görə, hadisə baş verən zaman platformada 63 nəfər olub. Onlardan 7-nin meyiti tapılıb. 33 nəfər təxliyyə olunub. 23 nəfərin taleyi isə hələlik naməlumdur. Onlar itkin düşmüş elan edilib.**

❑ **Əli RAİS**



# "Günəşli"də itkin düşən 26 neftçidən xəbər yoxdur

## Qəza baş verən platformada hələ də yanğın davam edir; həmçinin "Neft daşları"nda itkin düşən 3 neftçisinin də axtarışı davam edir

**"Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə baş verən qəzadan sonra itkin düşən 23 neftçidən xəbər yoxdur. Axtarış işlərində Fövqəladə Hallar Nazirliyinin, Xəzər Dəniz Gəmiçiliyinin və Sərhəd Qoşunlarının qüvvələri iştirak edir.**

Sonuncu dəfə Qazaxıstan sahillərində neftçilərin izinə rast gəlinməsi haqda məlumat yayılmışdı. Lakin sonradan məlum oldu ki, dənizdə tapılanlar sadəcə olaraq xilasedici jiletlərdir. Hazırda xilasetmə işlərinə gəmilər, vertolyotlar cəlb olunub. Verilən məlumatda bildirilir ki, gecə saatlarında vertolyotlar axtarışı dayandırsa da gəmilər axtarışa davam edir.

Xatırladaq ki, dekabrın 4-də baş verən qəza zamanı platformada 63 neftçi olub. Qəzadan sonra onlardan 33 nəfəri sağ xilas edilib. Bir nəfərin isə cəsədi tapılıb. İtkin düşən 29 neftçidən 6-nın meyiti isə hadisədən 3 gün sonra dekabrın 7-də tapılıb. Hazırda 23 neftçidən xəbər yoxdur.

Bundan əlavə qeyd edək ki, "Neft daşları"nda itkin düşən 3 neftçisinin axtarışı davam edir.

Qəza baş verən platformada hələ də yanğın davam edir. Partlayış baş verən qaz borusu bağlanıb. Lakin digər quyulara sıçrayan yanğın hələ də davam edir. Yanğının söndürülməsi üçün xarici mütəxəsislər də cəlb olunub. Hazırda yanğının qarşısının alınması istiqamətində işlər gedir.

Mütəxəssislərin verdiyi məlumata görə, hazırda davam edən yanğının söndürülməsi mümkündür. Lakin yanğın söndürləcəyi halda quyulardakı neft dənizə axacaq. Bu isə Xəzərin çirklənməsinə səbəb olacaq. Bu səbəbdən də yanğının söndürülməsi prosesi hələ ki, ləngidilir. Hazırda yanğının davam etdiyi digər 7 quyudan 4-ü qaz, 3-ü isə qaz-kondensat quyularıdır.

Qeyd edək ki, yanğın hadisəsindən sonra ətraf mühitə mümkün təsirlərin öyrənilməsi məqsədilə ekologiya və təbii sərvətlər nazirinin göstərişi əsasında nazirliyin mütəxəssislərindən ibarət Ekspedisiya Qrupu yaradılıb.

Ekspedisiya Qrupunun ilkin rəyinə görə, yanan 4 qaz quyusundan çıxan təbii qaz tam yandığı üçün atmosfer havasına zərərli təsiri nisbətən azdır. Yəni bu, ölkədəki istilik elektrik stansiyalarında yandırılan qazın atmosferə atdığı karbon birləşmələrindən ibarətdir. Yalnız 3 qaz-kondensat quyusundan müəyyən qədər kondensat sızması ehtimalı dəyərləndirilir. Lakin bu quyulardan çıxan karbohidrogenlərin yanması dənizə neft sızması ehtimalını sıfıra endirir və yuxarıda qeyd edildiyi kimi karbohidrogenlər yandıqda daha az zərərli maddələrə çevrilir. Qrupun müşahidələrinə görə dənizdə çirklənmə, platformanın ətrafında neft ləkələri yoxdur.

Son iki gündür isə FHN-in bir neçə əməkdaşı yanğın baş verən platformaya desant edilib. Onlar SOCAR-ın işçiləri tərəfindən yanan quyular ətrafında aparılan qəza-bərpa işlərinin təhlükəsizliyini təmin edirlər.

❑ **İlkin MURADOV**

# Gülər Əhmədova Leyla Yunusun azadlığa çıxmasından danışdı

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunusun həbsdən azad edilməsi təkcə bir hüquq müdafiəçisinin azadlığı yox, eyni zamanda bir azərbaycanlı qadının, ananın, həyat yoldaşının öz həyatına geri qayıtması idi. Onun sağlıq durumunu da nəzərə alanda bu, cəmiyyət üçün kifayət qədər sevindirici bir hadisə oldu.**

## "Bir qadının həbsdən azad olunmasına, bir ananın evinə qayıtmasına sevinirəm"

"Yeni Müsavat" bir neçə il öncə məhbəs həyatı yaşamış tanınmış xanım, **eks-deputat Gülər Əhmədova** ilə bu azadlıqdan danışdı. G.Əhmədova "Yeni Müsavat" vasitəsilə L.Yunusu və həyat yoldaşını təbrik etdi: "Azərbaycan bizim vətənimizdir dövlətimiz müstəqil respublikadır. 20 % torpağımız işğalda, ana-bacılarımız əsirlikdə. Hələ də bu torpaq şəhid qanı ilə suvarılır. Bunu unutmamalıyıq. Çünki biz bu dünyada olmayacağımız dövrlərdə də bizim əməllərimiz haqqında danışılacaq".

**Müsahibimiz daha sonra L.Yunusu müdafiə edən beynəlxalq qurumlar barədə də fikrini söylədi:** "Leyla Yunusu bu gün müdafiə edən Avropa rəsmilərinin və mənim onun azad olunması ilə bağlı sevincimizin arasında böyük fərq var. Avropa rəsmilərini yalnız öz dövlətinin əleyhinə çıxış edən şəxslər maraqlandırır. Mən isə yalnız bir qadının həbsdən azad olunmasına, bir ananın evinə qayıtmasına sevinirəm. Artıq heç kim üçün sirr deyil ki, Avropanı azərbaycanlı qadınlar və körpələr maraqlandırmır. Çünki əks halda günahsız öldürülmüş, işgəncə görmüş erməni faşizminin qurbanları haqqında narahat olardılar. Leyla Yunus həbs olunanda gözümün qabağına vaxtilə nə onunla siyasi mübahisələrimiz, nə də digər fikir ayrılıqlarımız gəldi. Sadəcə qadın və həbsxana. Və bir də "Azadlıq" radiosunda Xədicə İsmayılla qabaq-qənşər oturub da mənimlə bağlı dediyi fikirləri... İşin əslini bilmədən dediyi fikirlər... Mən pisliyə də yaxşılıq prinsipi ilə yanaşan insanlardanam və buna görə də heç zaman nə ona, nə də başqa bir qadına zindan həyatı arzulamaram. Amma gördüm ki, bu xanımlar başqa dəyərlərin daşıyıcılardılar. Əgər buna dəyər demək mümkündürsə..."



### "Mən onun qızının açıqlamalarını oxuyarkən iztirab cəkirdim..."

**G.Əhmədova bildirdi ki, L.Yunus həm ana idi, həm də siyasətlə məşğul olan, azyaşli övlad sahibi başqa bir qadının həbsini ironiya ilə arzulamamalı olduğu yaşda idi:** "Xüsusən də ortada bu qədər müəmma varkən... Amma mən onun qızının açıqlamalarını oxuyarkən iztirab çəkirdim və Allahdan ona da, həyat yoldaşına da azadlıq arzulayırdım. Eyni zamanda cənab prezidentin humanist və gözəl insan olduğunu bilirdim. Artiq bunlar keçmişdir".

**G.Əhmədova söhbət əsnasında L.Yunusun azadlığına sevinən Avropa rəsmilərinə daha bir xatırlatma etdi:** "Azərbaycanda deputat mandatından imtina edən millət vəkili ilə bağlı məhkəmə qərarı olmadan hesabatlar dərc etmək demokratik addım deyildi. Əksinə, istintaqa təzyiq idi. Mandatdan imtina etmək isə demokratik addım və siyasi örnək idi. Təəssüf ki, Avropanı demokratik dəyərlərə əsaslanmış addımlar deyil, tamam başqa məsələlər maraqlandırır".

**Sabiq deputat sonda fikirlərini ümumiləşdirərək aşağıdakıları bildirdi:** "Ümumiyyətlə kiminsə həbsinə yalnız nadan və cahil insanlar sevinə bilər. Bu dünyada heç kim heç nədən sığortalanmayıb. İkincisi, həbsxana qadın yeri deyil. Amma bilmək lazımdır ki, həbsxana həyatı hər bir insanı bu və ya digər formada dəyişdirir".

❑ Sevinc TELMANQIZI



# Rauf Mirqədirovun azadlığı üçün "yaşıl işıq"

## Vicdan məhbusunun içəridə saxlanılması üçün heç bir əsas qalmayıb; **Elçin Şıxlı:** "Raufu həbs edən MTN əməkdaşlarının70 faizi həbsdədir..."

**Leyla və Arif Yunusların azadlığa buraxılmasından sonra bir sıra məhbusların Yeni il qabağı həbsxana həyatı ilə vidalaşacaqları barədə xəbərlər yayılıb. Azad ediləcəklərinə inam yaranan məhbuslar içərisində ilk göz önünə gələn isim "Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovdur.**

Vicdan məhbusun bəlkə də azadlığına "işıq" yandıracaq amillərdən birincisi Yunusların şərti azadlığa buraxılmasıdır. Belə ki, Mirqədirov məhz Yunuslara qarşı irəli sürülmüş ittihamlar çərçivəsində həbs edilib, onlarla əlaqələrinin olmasında ittiham olunur. Hər üç şəxs müxtəlif zamanlarda həbsə salınsalar da əslində qalsa, onlar bir iş üzrə ittiham olundular. Mirqədirovun azadlığa çıxacağı ehtimallarını yüksəldən nüanslardan biri də Yunuslara qarşı irəli sürülmüş cinayət maddələrindən "Dövlətə xəyanət"in ayrıca icraata götürülməsi, hələ də bu maddəyə baxılıb-baxılmamasının sual altında qalmasıdır.

Ən ağır cinayət maddələrindən olan 274-cü maddə (Dövlətə xəyanət) ilə günahlandırılan şəxslərin azad edilməsi Mirqədirovun bundan sonra həbsdə saxlanılmasına heç bir əsasın qalmadığının bariz sübutudur. Təsadüfi deyil ki, jurnalist yalnız bu maddə üzrə ittiham olunur. O maddə ki, həmin maddə üzrə onunla bərabər suçlanan şəxslər artıq azad ediliblər.

Bütün bu faktlar hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində prosesi gedən Mirqədirovun 1 il 9 aydır saxlanıldğı MTN təcridxanası ilə vidalaşacağına olan ümidləri artırır. Bazar ertəsi saat 10:30-da onun növbəti məhkəməsi olacaq. Əvvəlki prosesdə müdafiə tərəfinin vəkili Fuad Ağayevin dili desək, artıq məhkəmə sona yaxınlaşır. Yeni ilə qədər məhkəmənin yekunlaşacağını güman etmək olar.

Mirqədirovun əməkdaşı olduğu **"Ayna Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı** məhkəmənin müsbət qərarını gözlədiklərini bildirdi: "Belə xoş xəbəri eşitməyi çox istərdim. Məntiqlə Leyla və Arif Yunus azadlıqdadırsa, Rauf Mirqədirovun da həbs qətimkan tədbirindən azad edilməsi gözəl olardı. Məntiqə uyğun addım budur. Amma Azərbaycanda Raufun vəkili demişkən, proqnoz vermək müşkül məsələdir. Hər halda ümid var. Bazar ertəsi növbəti məhkəmə iclası olacaq. Orada müdafiə tərəfi çıxış edəcək. Raufun azad edilməsi üçün bütün münbit şərait yaranıb. Onu düşünmək lazımdır ki, Raufu həbs edən, onun işini aparan MTN əməkdaşlarının 80-90 faizi hazırda işindən uzaqlaşdırılıb, 70 faizi barəsində də həbs qətimkan tədbiri seçilib. Deyirlər ki, Yeni il qabağı əfv olacaq. Çox təəssüflər olsun ki, bu əfvin ona heç bir aidiyyəti ola bilməz. Hüquqi cəhətdən mümkün deyil. Müəyyən fərziyyələrə görə, istintaqın gedişatından çıxış edərək demək olar ki, Raufu o işə Leyla və Arif Yunuslar cəlb ediblər. Məntiqsiz fikirlərdir, amma hər halda belə deyirlər. Onlar əgər azadlıqdadırsa, bu ittiham üzrə onlardan kiçik olan şəxs çoxdan azad edilməli idi. Hər halda bu məhkəmənin hüququdur. İnanıram ki, bütün araşdırmalardan sonra məhkəmə Raufun həbs qətimkan tədbirinin dəyişdirilməsi nəticəsinə gələcək. İstəyirəm ki, belə bir şeyin olacağına inanım".

**Rauf Mirqədirovun vəkili Fuad Ağayev** məhkəmə öncəsi bu barədə danışmaq istəmədiyini söylədi: "Növbəti iclas bazar ertəsidir. İstəmirəm ki, hakimlər məni məhkəmə baxışının nəticələrinə təsir göstərmək cəhdində təqsirləndirsinlər. Elə də çox vaxt qalmayıb. Hər şeyi yaxın gələcək göstərəcək".

Qeyd edək ki, günlər öncə **Mirqədirovun anası Rəfiqə İsayeva**nın cəmiyyətə müraciəti yayılmışdı. Müraciətdə məhbus anası oğlunun günahsız olduğunu ürək yanğısı ilə belə ifadə etmişdi: "Mənim oğlum günahsızdır. Bunun əksini sübut edəcək heç bir dəlil, sübut, şahid yoxdur. Ola da bilməz. Bu halda, bu işi belə uzatmağın nə mənası var? Bu ağır günlər mənim oğlumun həyatından gedir. Onun təkotaqlı kamerada yaşadığı hər gün yüz ilə bərabərdir, belə ağır ittihamın altında əzilmək üzərində bir dağ daşımaq deməkdir".

**Xatırladaq ki, Rauf Mirqədirov ötən il aprelin 19-da Türkiyədən deportasiya olunaraq, MTN əməkdaşları tərəfindən həbs edilib. O, dövlətə xəyanətdə ittiham olunur. Bu maddə üzrə məhkəmə onun barəsində ömürlük və ya 15 ilə qədər azadlıqdan məhrumetmə qərarı çıxara bilər. Yerli və beynəlxalq təşkilatlar onu vidan məhbusu kimi tanıyırlar. Mirqədirov ona qarşı irəli sürülən ittihamları qəbul etmir.**

❑ Cavanşir ABBASLI

# Fuad Qəhrəmanlının vəzifədəki qohumları onu buraxdırmağa çalışır?

## AXCP sədri müavininin apelyasiya şikayətinə baxılacaq

**Dekabrın 8-də saxlanılan və Nəsimi Rayon Məhkəməsinin qərarı ilə barsində 3 aylıq həbs qətimkan qərarı verilən AXCP sədrinin müavini artıq hazırda Kürdəxanıdakı istintaq təcridxanasında saxlanılır.**

F.Qəhrəmanlının yaxınları bildiriblər ki, ona isti paltarlarını və dərmanlarını çatdırmaq istəyiblər, lakin bu, mümkün olmayıb. Təcridxanadan bildiriblər ki, F.Qəhrəmanlı karantin müddətindədir və bu müddətdə heç nə qəbul edə bilməzlər.

Fuad Qəhrəmanlının apelyasiya şikayəti üzrə keçiriləcək məhkəmənin vaxtı isə məlum olub.

Vəkil Fəxrəddin Mehdiyev bildirib ki, şikayətə dekabrın 14-də Bakı Apelyasiya Məhkəməsində hakim Əflatun Qasımovun sədrliyi ilə baxılacaq. Şikayətdə F.Qəhrəmanlı barəsində həbs qətimkan tədbirinin ləğv edilməsi istənilib.

Bir sıra xəbər saytları isə diqqəti Fuad Qəhrəmanlının yüksək vəzifələrdə təmsil olunan məmurlarla qohumluq əlaqəsinə yönəltməyə başlayıblar. Vətəninfo.az saytının yazdığına görə, Fuad Qəhrəmanlı uzun illərdir hakimiyyətə qarşı radikal müxalif mövqedə olmasına baxmayaraq, onun yaxın qohumları, xüsusi ilə də həyat yoldaşının yaxın qohumları müxtəlif vəzifələr tutmaqdadırlar. Məsələn, Fuad Qəhrəmanlının qayınatası İsrafil Abıyevin oğlu, yəni Fuad Qəhramanlının qaynı Kamil Abıyev Respublika Yol Polisinin əsas yollarında xidmət edir. İsrafil Abıyevin qardaşı Əhəd Abıyev Daşkəsən rayon İcra Hakimiyyətinin başçısıdır. Fuad Qəhrəmanlının qayınatasının digər bir qardaşı Nadir Abıyev Masallı



Fuad Qəhrəmanlı

rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsində çalışır. İsrafil Abıyevin digər bir qardaşı Səməd Abıyev Masallı rayon Maliyyə İdarəsinin rəisi vəzifəsində işləyir. Beləliklə, Fuad Qəhrəmanlının ətrafı bütövlükdə iqtidar tərəfindən vəzifə verilən şəxslərdir.

Saytın yazdığına görə, Fuad Qəhrəmanlının qayınatasının qardaşı, Əhəd Abıyev Milli Məclisdə Əli Kərimli ilə bağlı səsləndirdiyi məlum çıxışına baxmayaraq, davamlı olaraq F.Qəhrəmanlı Əli Kərimlinin yanında Əhəd Abıyevi müdafiə edib. Sayt daha sonra qeyd edib ki, Əhəd Abıyev Fuad Qəhrəmanlınının azad edilməsinə çalışır.

Əhəd Abıyevin Fuad Qəhrəmanlının azad edilməsi üçün səylər göstərməsi ilə bağlı iddiaların nə qədər əsaslı olub-olmadığını dəqiqləşdirmək, eyni zamanda F.Qəhrəmanlının həbs edilməsinə münasibətini öyrənmək üçün Əhəd Abıyevin mobil telefonuna dünən gün ərzində dəfələrlə zəng etdik. Təəssüflər olsun ki, hörmətli icra başçısı zənglərimizə cavab vermədi.

Xatırladaq ki, Əhəd Abıyev indiyə qədər bir neçə dəfə müsahibələrində F.Qəhrəmanlı ilə qohum olmaları barədə suallara cavabında F.Qəhrəmanlıya görə qardaşı qızı ilə münasibətlərinin qırıldığını dilə gətirib.

**Qeyd edək ki, F.Qəhrəmanlı Cinayət Məcəlləsinin 281 (dövlət əleyhinə açıq çağırışlar) və 283-cü ( milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddələri ilə ittiham olunur.**

❑ E.SEYİDAĞA

# Tofiq Yaqublu azad edilə bilər

## Onun əfvə düşmək şansları daha çoxdur; Avropa Şurasının Nazirlər Komitəsi İlqar Məmmədovun növbəti dəfə azadlığa çıxmasını tələb etdi


Tofiq Yaqublu

**Yeni ildə əfv sərəncamının veriləcəyi barədə xəbərlər intensivləşir. Əfvlə azadlığa çıxma ehtimalı daha yüksək görünən siyasilərdən biri də Müsavat başqanının müavini Tofiq Yaqubludur. Bu ilin aprelində gənc qızı Nərgiz Yaqublunun vəfat etməsindən sonra başqan müavininin bu günə qədər azadlığa çıxması ilə bağlı xəbərlər daim aktual olub. Yeni il qabağı bir daha bu məsələ gündəmə gəlib. Əslinə qalsa, T.Yaqublunun əfvə düşməsinə bir manea də qalmayıb. Belə ki, məhkəmə proseduralarını keçən, fevral ayında həbsinin iki ili tamam olan vicdan məhbusu azad olunması üçün bütün tələblərə cavab verir. Barəsində 5 il həbs qərarı verilən Yaqublu əfvə düşmək üçün tələb olunan həbsdə qalma müddətinin 1/3-ni arxada qoyub.**

Üç başqan müavini həbsdə olan **Müsavatın Məclis sədri Nüşabə Sadıxlı** partiya olaraq hər bir siyasi məhbusun azadlığına böyük önəm verdiklərini bildirdi: "İclaslarımızda daim siyasi məhbus məsələsini gündəmdə saxlayırıq. Leyla Yunus azadlığa buraxılmamışdan bir gün öncə onun azad edilməsi üçün bəyanat vermişdik. İnsanların həbsdə saxlanılmasından ağır cəza ola bilməz. Tofiq bəyin azad olunacağına ümidimiz var. İnanırıq ki, o da əfvə düşəcək. Amma əfvin təkcə Tofiq bəylə bitməsini istəməzdik. Yadigar Sadıqov, Fərəc və Sirac qardaşlarına da bu qərar şamil olunsun. Bütün siyasi dustaqların azad olunması bizim üçün sevindirici xəbər olardı. Əgər biz demokratik dövlət görmək istəyiriksə, bu dövlət ilk növbədə siyasi məhbuslarsız olmalıdır".

**Başqan müavininin qızı Nigar Yaqublu** siyasi məhbusların azad edilməsinin davamlı olacağını gözlədiklərini qeyd etdi: "Leyla və Arif Yunusların həbsdən azad edilmələri həm bizim, həm Yunuslar ailəsi, həm də Azərbaycan cəmiyyəti üçün çox sevindirici bir haldır. Gözləyirik ki, yenə də siyasi məhbuslar azad olunsunlar. Amma Tofiq Yaqubluya gəldikdə, onun azad olunmasını gözləmirik. Çünki kifayət qədər onu buraxmaq imkanları olub. Amma daim gözləntilərimiz bu olub ki, əfv olacaq, Tofiq Yaqubluya şamil olunmaycaq. Azad etsələr, çox yaxşı olacaq. Azad etməsələr, yenə də mübarizə davam edəcək. Başqa çarəmiz də yoxdur".

**N.Yaqublu atasının son durumu barədə də danışdı:** "Atamla bu həftə görüşmüşəm. Yunusları təbrik etdi. Xəbəri ANS-dən eşidib, çox sevinmişdi. Hətta həmin gün axşam Leyla Yunusun azad edilməsini qeyd ediblər. Amma özü barədə belə qərar düşünmür. Azad etsələr edəcəklər, etməsələr də heç nə dəyişməyəcək. Özünü o məsələyə kökləməyib. Cəzaçəkmə müəssisində ümumi vəziyyəti qənaətbəxşdir. Ciddi problemləri yoxdur".

**T.Yaqublunun vəkili Nemət Kərimli** daim insanlarda ümid olduğunu bildirdi: "İnsanlar çətin vəziyyətdə ümidlərlə yaşayırlar. Xüsusilə, bayramlar qabağı belə ümidlər çoxalır. Açığı mən ümid etmirəm. Hakimiyyətin humanizm prinsipi olsaydı, Nərgiz xanım rəhmətə gedəndə bu addımı atardı. O vaxt övladın ölümündən sonra belə bir addım atılmadı. Leyla Yunus Fransanın müqəddəs ordeni ilə təltif olunmuşdu. Onun azadlığını tələb etmək Fransanın borcu idi. Hakimiyyət onunla bağlı ciddi təzyiqlər etdi. Ona görə də sonda azad etdilər".

Qeyd edək ki, Tofiq Yaqublu ilə birlikdə 2013-cü ilin yanvarında baş verən İsmayıllı hadisələrinə görə həbs edilən REAL sədri İlqar Məmmədov barəsində Avropa Şurası Nazirlər Komitəsi insan hüquqları ilə bağlı keçirdiyi iclasda 3-cü dəfə qərar çıxarıb. Əvvəlki qərarlar kimi, bu qərarda da REAL sədrinin azadlığa buraxılması tələb olunur.

Avropa Şurası Nazirlər Komitəsinin məlumatında deyilir ki, müzakirələrin yekunlarına dair qərarda Azərbaycan hakimiyyətinin indiyədək İlqar Məmmədovu azad etməməsindən "dərin təəssüf hissi"nin keçirildiyi ifadə olunub. Halbuki, bu barədə Avropa Məhkəməsinin qərarı və Azərbaycan rəhbərliyinə çoxsaylı müraciətlər var.

**Qərarda İ.Məmmədovun dərhal azad edilməsi və Avropa Məhkəməsinin qərarlarının icrasından yan keçmək cəhdlərinə son qoyulması tələb olunub.**

❑ **Cavanşir ABBASLI**

# Azərbaycan prezidentinin Çin səfərinin pərdəarxası

**Azərbaycan prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri dekabrın 11-də başa çatıb. Prezident Çinin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri ilə görüşüb, 10-dək müqavilə imzalanıb.**


**Qubad İbadoğlu:** "İki ölkə arasında özəl sektorda əməkdaşlığın perspektivi yüksəkdir"


**Fikrət Yusifov:** "Çin Azərbaycanla bərabər əsaslarla iqtisadi əməkdaşlıq etmək niyyətindədir"


**Zahid Oruc:** "Əldə olunmuş razılaşmalar hazırkı dövrdə böyük dəyişiliklər dövrünü yaşayan Azərbaycan dəmiryolu nəqliyyatı üçün yeni mərhələ olacaq"

Səfərin son günü Azərbaycan prezidentinə Renmin Universitetinin "Tarix üzrə fəxri professor" diplomunun təqdim edilməsi mərasimi keçirilib. Prezident mərasimdəki çıxışında fəxri adın ona verilməsinə görə universitetin rəhbərliyinə təşəkkürünü bildirib və deyib ki, bu, ölkələrimiz arasındakı dostluq münasibətlərinin göstəricisidir: "Azərbaycanın Çin ilə uzun illərdir uğurlu əməkdaşlıq etdiyini deyən Prezident İlham Əliyev münasibətlərimizin hazırkı səviyyəsindən məmnunluğunu ifadə etdi. Çinə dövlət səfəri çərçivəsində keçirdiyi görüşlərin səmərəli olduğunu deyən Prezident İlham Əliyev ikitərəfli münasibətlərin inkişaf etdirilməsi üçün ortaq siyasi iradənin mövcud olduğunu vurğuladı" - xəbərdə deyilir. Prezident çıxışında Dağlıq Qarabağ münaqişəsindən də bəhs edib. Çinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini vurğulayıb, Azərbaycanın da "Vahid Çin" prinsipini dəstəklədiyini diqqətə çatdırıb.

Qeyd edək ki, prezidentin Çinə səfərinin məram-məqsədləri barədə müxtəlif fikirlər səslənir. Ölkə başçısı Pekində keçirdiyi görüşlərdə bu barədə danışıb. "Azərbaycanın Çin ilə Avropa arasında mühüm tranzit dəhlizi rolunu oynaması üçün yaxşı potensial var"- prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinlə geniş tərkibdə görüşündə deyib. Ölkə başçısı deyib ki, bu səfər ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək: "Bu gün biz münasibətlərimizin gələcək inkişafını müəyyən edəcək bir sıra mühüm sənədlər imzalayacağıq. Onların arasında, əlbəttə, Sizinlə bərabər imzalayacağımız Bəyannaməni xüsusi qeyd etmək istərdim. Həmin Bəyannamə bizim niyyətlərimizi əks etdirir. Biz əlaqələrimizi genişləndirmək, siyasi dialoqu inkişaf etdirmək, beynəlxalq təşkilatlarda fəal əməkdaşlığı bundan sonra da davam etdirmək və iqtisadi əlaqələri möhkəmlətmək istəyirik. İpək Yolu iqtisadi zolağının yaradılması barədə Sizin təşəbbüsünüzü biz Azərbaycanda çox yüksək qiymətləndiririk".

Nəqliyyat sahəsində əməkdaşlığa toxunan prezident İlham Əliyev bildirib ki, Azərbaycanın Çin ilə Avropa arasında mühüm tranzit dəhlizi rolunu oynaması üçün yaxşı potensial var və ölkəmizdən keçən yol Çin ilə Avropa arasında ən qısa yol ola bilər. Azərbaycanda infrastrukturun yaradılması, nəqliyyat sisteminin təkmilləşdirilməsi istiqamətində çox böyük işlər görüldüyünü deyən dövlətimizin başçısı investisiya qoyuluşu sahəsində əməkdaşlığın genişləndirilməsinin, texnoparklarda Çin şirkətlərinin iştirakının mümkünlüyünü qeyd edib.

Prezidentin səfərini şərh edən **İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu** "Yeni Müsavat"a bildirdi ki, hazırda Azərbaycanın Çinin investisiyalarına ehtiyaci var: "Xüsusilə də texnologiya, nəqliyyat və kəmər infrastrukturunda Çin şirkətlərinin iştirakı vacibdir. Odur ki, hesab edirəm səfər çərçivəsində imzalanmış dövlətlərarası müqavilələr bu istiqamətdə səmərə verə bilər. Bununla yanaşı, iki ölkə arasında özəl sektorda da əməkdaşlığın perspektivi yüksəkdir".

**"Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin sədri, professor Fikrət Yusifov** deyir ki, son illər ərzində Azərbaycan hökuməti Çinlə münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində çox ciddi addımlar atıb və bunun da əsasında hər iki ölkənin iqtisadi maraqlarının müxtəlif formalarda kəsişməsi faktı dayanır: "Son 10 ildən bir qədər artıq vaxt ərzində Çinlə Azərbaycanın ticari əlaqələri 3 dəfəyə qədər artıb. Lakin potensial imkanların bundan dəfələrlə artıq olduğu hər iki tərəfə tam aydındır. Elə bu səbəbdəndir ki, hər iki ölkənin siyasi rəhbərliyi iqtisadi əlaqələrin daha da genişləndirilməsi və bundan hər iki ölkənin maksimum iqtisadi fayda götürməsi şanslarını reallaşdırmağa qərar veriblər. Bu gün Çin dünya Ümumi Daxili Məhsulunun 13%-dən çoxunu istehsal edir. Bu prizmadan yanaşıldığı halda kimsə Azərbaycan-Çin iqtisadi əlaqələrinin Çin üçün əhəmiyyətini lazımınca dəyərləndirməyə də bilər. Ancaq əsl həqiqət ondan ibarətdir ki, bu münasibətlərdə fiziki həcmlər ölçü vahidi deyil. Söhbət qarşılıqlı iqtisadi əlaqələrdən hər iki tərəfin maksimum yararlana bilməsindən gedir". **F.Yusifov deyir ki, əslində Çinlə Azərbaycanın iqtisadi əlaqələrinin tarixi çox qədimlərə gedib çıxır:** "Bu əlaqələrin başlanğıcı iki min il öncə Böyük İpək Yolu vasitəsilə qoyulub. Bu gün isə tarixi bu qədər qədim olan həmin əlaqələri əsaslı şəkildə genişləndirmək şansları yaranıb. Çinlə iqtisadi münasibətlərin dərinləşdirilməsində Azərbaycanın maraqları hər kəsə aydındır. Dünya iqtisadiyyatında bu qədər böyük rolu olan nəhənglərdən birilə iqtisadi əlaqələrin genişləndirilməsi bizə çox dividentlər verə bilər. Digər tərəfdən, bu münasibətlərdən istifadə edib Çin kapitalının Azərbaycana yönəlməsinə nail olmaq mümkündür ki, bu da az əhəmiyyət kəsb edən məsələ deyil". Ekspert deyir ki, Çinin Azərbaycanla bağlı siyasi ambisiyaları yoxdur: "Çin Azərbaycanla bərabər əsaslarla iqtisadi əməkdaşlıq etmək niyyətindədir. Bu gün Azərbaycanı öz təsir dairəsinə almaq üçün min bir oyundan çıxan Qərb ölkələri və qonşu ölkələrdən Çini bizim üçün fərqləndirən əsas məqamlardan biri də elə budur. Azərbaycan hökuməti bütün bu məqamları təhlil edib Çinlə əlaqələrin daha da genişləndirilməsi yolunu tutmağa qərar verib. Bu, çox doğru və uzaqgörən bir siyasətin nəticəsidir".

**Deputat Zahid Oruc** isə dedi ki, Çin iqtisadiyyatı dünyadakı qeyri-sabit maliyyə vəziyyətinə baxmayaraq, stabil inkişaf xəttini qoruyub saxlayır: "O cümlədən, BMT Təhlükəsizlik Şurasının üzvü kimi həmin ölkənin bir çox beynəlxalq münaqişələrə fərqli münasibəti mövcuddur. Daha konkret söyləsək, hazırkı dünya düzəninə yön verən geoplotik nəhənglərdən biridir. Azərbaycan prezidentinin Çinə səfəri neft bumunun söndüyü və alternativ iqtisadiyyatın daha da dirçəldilməsi, yeni bazarlar və investisiya mənbələri tapmaq baxımından çox böyük əhəmiyyət daşıyır. Nəzərə alsaq ki, ölkəmizin yerləşdiyi coğrafiya böyük İpək yolunun üstündə yerləşir, onda gündoğar ölkənin özü üçün geniş bir məkanda yükdaşımaların məhz bu regiondan keçməsini qərarlaşdırmaq məhz belə ikitərəfli görüşlər vasitəsilə mümkündür. Vaxtilə Traseka layihəsi çərçivəsində formalaşan nəqliyyat infrastrukturu, sonralar Azərbaycanın müstəqil və iddialı qərarları ilə daha da genişləndi. İndi Bakı-Qars dəmir yolu layihəsi Asiya-Avropa arasında ən yaxşı "dəmir körpü" və ya "ötürücü qovşaq" ola bilər". Z.Orucun sözlərinə görə, vaxtilə atılmış addımın strateji marağa xidmət etməsi göz qabağındadır: "Ümidvarıq ki, əldə olunmuş razılaşmalar hazırkı dövrdə böyük dəyişiliklər dövrünü yaşayan Azərbaycan dəmir yolu nəqliyyatı üçün yeni mərhələ olacaq. Neftin erasını bitirənlər hər bir əlkədə real iqtisadiyyatın kölgədən çıxmasına təkan veriblər. Çinin Qarabağ məsələsində siyasi mövqeyi ölkə başçımızın dünən ifadə etdiyi kimi "Vahid Çin" bəyanatına qarışlıq olaraq verilir və bu dünya nəhəngi separatizmin nə olduğunu yaxşı bilir. Ona görə Azərbaycan dünyada dəyişən siyasi-iqtisadi şəraitə uyğun yeni dostlar qazanmaq üçün fəal xarici siyasət kursu yürütməkdədir. Çin Azərbaycanı əhalisinə və ərazisinə görə deyil, siyasi əhəmiyyətinə görə qiymətləndirir".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 277 (6304) 12 dekabr 2015

**2015-ci ili Azərbaycan iqtisadiyyatında təlatümlü bir il kimi də qiymətləndirmək olar. Artıq il başa çatmaq üzrədir. Lakin 2015-ci ilin miras qoyduğu iqtisadi problemlər 2016-cı ilin də "böhran ili" olmasını şərtləndirir. Ümumilikdə 2015-ci il Azərbaycan iqtisadiyyatının mənzərəsi kifayət qədər bədbin oldu.**

# 2015-ci ilin iqtisadi mənzərəsi: devalvasiya və onun fəsadları...

## **Vüqar Bayramov:** "2015-cil ilin müsbət cəhəti sahibkarlığın inkişafı ilə bağlı atılan addımlar oldu"

## **Samir Əliyev:** "Çox təəssüf ki, hökumət bu il də iqtisadiyyatdakı neqativ halların qarşısını almaq üçün hər hansı addım atmadı, islahat aparılmadı"

"Yeni Müsavat"a açıqlamasında 2015-cil ili iqtisadi yekunlarını dəyərləndirən iqtisadçı **ekspert Samir Əliyev** də vurğuladı ki, 2015-ci il Azərbaycan iqtisadiyyatı üçün heç də uğurlu il olmadı: "Bu il postneft iqtisadiyyatı istiqamətində ilk adım atıldı, ucuz neft pulları dövrü bitdi. Ümumən götürəndə, Azərbaycan iqtisadiyyatı 2015-ci ildə itki verdi. Bütün parametrlər üzrə iqtisadiyyatın həcmi 2011-ci ilin həddinə düşdü. İstər büdcənin həcmi, istər maliyyə sektorunun gəlirlərinin həcmində azalmalar oldu. Təbii ki, bu da ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinə təsir göstərdi. İl gərgin başladı. Bunun səbəbi 2011-ci ilin yay-payız aylarından başlayaraq neftin ucuzlaşması səbəbindən ölkədə devalvasiya mühitinin formalaşması idi. Nəticədə, bu ilin fevral ayında devalvasiya oldu və manat 30-35 faiz öz dəyərini itirdi. Həm kəskin şəkildə devalvasiya baş verməsi, həm də sonradan növbəti devalvasiya gözləntisi cəmiyyətdə gərginlik yaratdı, eyni zamanda iqtisadiyyatın dollarlaşmasına gətirib çıxartdı. Təsadüfi deyil ki, əmanət qoyuluşunda əvvəllər manat üstünlük təşkil edirdisə, əhali devalvasiyadan sonra kütləvi şəkildə əmanətlərini dollara dəyişməyə başladı. Banklar da eyni zamanda kreditləri dollarla təklif etməyə başladılar. Nəticədə iqtisadiyyatda dollarlaşma prosesi intensivləşdi".

**Ekspertin sözlərinə görə, devalvasiyanın baş verməsi bank və maliyyə sektoruna öldürücü zərbə vurdu və banklar hələ də devalvasiyanın vurduğu zərbədən qurtula bilməyiblər:** "Bankların gəlirləri kəskin azaldı, zərərlər kəskin artdı. Problemli kreditlər artdı. Devalvasiyanın baş verməsi bankların öz valyuta mövqelərini düzgün idarə edə bilməməsi nəticəsində çox böyük zərərə uğramasına gətirib çıxartdı. Bankların aktivlərinin əhəmiyyətli hissəsi zərərə çevrildi. Bəzi banklar bu durumdan çıxa bildi, bəziləri isə gəlirlərini xilas edə bilmədi. Bir neçə bank bazarı tərk etdi, bir neçə bank da hazırda bazarı tərk etmək üzrədir.

Biz bilirik ki, Beynəlxalq Bankın aktivlərinin daha çox zərərdə olması gündəmə gəldi və onun özəlləşdirilməsi məsələsi prezidentin sərəncamı ilə rəsmiləşdi. Halbuki neçə illər ərzində bu məsələnin müzakirəsi gedirdi. Mərkəzi Bank pul kütləsini azaltmağa başladı və bu da eyni zamanda biznes mühitini, sahibkarların pula əlçatanlılığını məhdudlaşdırdı. Hazırda ölkə iqtisadiyyatı növbəti devalvasiya gözləntisi ərəfəsindədir. Qiymətlər devalvasiyadan sonra artmağa başladı və növbəti devalvasiya baş versə, bu artım davam edəcək.


Vüqar Bayramov


Samir Əliyev

Çox təəssüf ki, hökumət bu neqativ halların qarşısını almaq üçün hər hansı addım atmadı, islahat aparılmadı. Müəyyən bir kosmetik tədbirlər görüldü, ancaq islahat xarakterli hər hansı addım atılmadı. Struktur islahatına misal olaraq Dövlət Əmlak Komitəsinin ləğvini göstərmək olar. Lakin bu proses davam etdirilmədi. 2016-cı ilin büdcəsi 2015-ci ilin büdcəsindən təqribən 25 faiz azaldıldı. Büdcənin azaldılması fonunda hökumətin 2016-cı ilin büdcəsində qeyri-neft sektorunu prioritet elan etməsi qeyd edildi. Ümumilikdə, hazırda 2016-cı il ilin daha da ağır keçəcəyi gözlənilir. Yəqin ki, hökumət növbəti ildə əsas diqqəti qeyri-neft sektorunun inkişafına yönəldəcək".

**İqtisadçı-alim Vüqar Bayramov** da "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, 2015 Azərbaycan iqtisadiyyatı üçün əvvəlki illərdən fərqli bir il kimi yadda qaldı: "Bu il uzun müddət stabil olan manat öz dəyərini itirdi. Son 10 ildə ilk dəfə olaraq manat devalvasiyaya uğradı. Bu sonrakı proseslərlə də öz təsirini göstərdi. 2015-ci ilin asan olacağı gözlənilmirdi və Azərbaycan bu ilə aşağı neft qiymətləri ilə daxil oldu. Region dövlətlərində və xüsusən Rusiya iqtisadiyyatında yaşanan böhran Azərbaycana da təsirsiz ötüşmədi. Oradakı vətəndaşlarımızın ölkəyə göndərdikləri vəsaitin azalmasına səbəb oldu.

Əgər il üzrə müsbət və mənfi iqtisadi hadisələri qruplaşdırmağa çalışsaq, devalvasiya və neft gəlirlərinin az olmasına baxmayaraq, ümumdaxili məhsulun həcminin artması müsbət hadisə kimi yadda qaldı. Qeyri-neft sektorunda 7 faizdən artıq artım oldu. Sözsüz ki, bu 2015-ci ildə Azərbaycan iqtisadiyyatındakı böhranın minimuma enməsinə səbəb oldu. Buna baxmayaraq, xidmət sektorunda durğunluq müşahidə olundu. İnsanlar əsasən yığıma üstünlük verdilər. Hökumətin də öncədən bəyan etdiyi kimi 2015-ci il qənaət ili oldu. Bu isə bir sıra hallarda qiymətlərin azalmasına səbəb oldu. Daşınmaz əmlak, mənzil bazarında qiymət azalmaları oldu. Qızılın qiyməti dünya bazarında baş verənlər fonunda Azərbaycanda da aşağı düşdü.

Bu qiymət azalmalarına baxmayaraq yerli və xaricdən gətirilən ərzaq məhsullarında bahalaşma qeydə alındı. İstehlak bazarı 2015-ci ildə baş verənlərə reaksiya verdi. Daha çox vəsait tələb edən seqmentlərdə qiymət azalması, gündəlik istehlak olunan mallarda isə qiymət artımları baş verdi".

Vüqar Bayramovun sözlərinə görə, 2015-cil ilin müsbət cəhəti sahibkarlığın inkişafı ilə bağlı atılan addımlar oldu. Ölkə prezidentinin imzaladığı qanun və fərmanlar sahibkarlığın inkişafı ilə bağlı yeni bir mərhələnin başlanğıcı oldu. Lisenziyalaşmanın genişləndirilməsi və sahibkarlara təklif edilən xidmətlərin elektronlaşması müsbət dəyişikliklər kimi qiymətləndirilməlidir.

Bu il də Mərkəzi Bankın dövlət rezervlərinin azalması davam etdi, təxminən iki dəfəyə yaxın aşağı düşdü və təxminən 6 milyard dollara yaxınlaşıb. Manatın məzənnəsinin qorunması ilə bağlı intervensiya xərcləri də artdı. AMB fevral devalvasiyasından sonra manatın məzənnəsinin sabitliyini qoruyub saxladı və bu da dövlət rezervlərinin xərclənməsi hesabına baş verdi.

Azərbaycan neft ölkəsi olduğu üçün neftin dünya bazarındakı qiyməti bu il də olduqca həlledici oldu. Neftin ucuzlaşması davam etdi və bizim üçün arzuolunan deyildi".

**Ekspertin fikrincə, 2015-ci il bir mesaj ili olaraq da qiymətləndirilməlidir:** "Neftin qiymətinin azalması fonunda Azərbaycan iqtisadiyyatının diversifikasiyasının, qeyri-neft sektorunda ixrac qabiliyyətinin artırılması bir mesaj kimi qiymətləndirilməlidir. Hökumət sahibkarlığı inkişaf etdirməklə iqtisadi şaxələndirməni inkişaf etdirməlidir. Bu baxımdan neftin dünya bazarındakı qiyməti iqtisadiyyatın şaxələndirilməsinin vacibliyini gündəmə gətirdi və bu proseslərin sürətlənməsinə səbəb oldu".

**İqtisadçıekspert Natiq Cəfərli** isə bu ilin iqtisadi mənzərəsində məhz manatın devalvasiyasının damğa vurduğunu açıqladı: "2015-ci ilin iqtisadi yekunları bir neçə hadisə ilə yadda qaldı. Bunlardan biri fevral ayının 21-də manatın kəskin devalvasiyaya uğraması oldu. Bu Azərbaycan iqtisadiyyatında elə bir şəraitə gətirib çıxartdı ki, bü günə qədər də iqtisadiyyat özünə gələ bilmir.

İkinci ən böyük hadisələrdən biri o oldu ki, bütün sahələrdə iqtisadi aktivlik zəiflədi. Mənzil bazarında, daşınmaz əmlak bazarından, avtomobil bazarında, elektrotexnika, telefon və geyim bazarında adətən hər zaman aktivlik müşahidə olunsa da, bu il kəskin azalmalar oldu. Hazırda mənzil və avtomobil bazarında durğunluq yaşanır, alqı-satqı əməliyyatları azalıb. Bütün bu proseslər bir-biri ilə qarşılıqlı əlaqədədir".

**İqtisadçının fikrincə, neftin qiymətinin kəskin düşməsi isə bütün bu proseslərin başında dayanan əsas səbəbdir:** "Məhz neftin qiymətini düşməsi devalvasiyanın olmasını şərtləndirdi. Bu proseslər büdcədən də yan keçmədi. Bu il ilk dəfə olaraq büdcədə müəyyən layihələr dayandırıldı və həyata keçirilməsi ertələndi. Bu da həmin layihələrdə çalışan və gələcəkdə çalışacaq insanların iş yerlərindən məhrum olması ilə nəticələndi. İş yerlərinin azalması prosesi büdcə ilə bağlı da artmaqda davam etdi. Bütün bu proseslərin davamı olaraq 2016-cı ildə sadalanan problemlər özünü daha kəskin şəkildə bürüzə verəcək. Çox təəssüf ki, 2016-cı ilin böhran ilinin başlanğıcı olmasına baxmayaraq, hökumət heç bir antiböhran planı hazırlayıb ictimaiyyətə təqdim etmədi. Bu da onu göstərir ki, Azərbaycan hökuməti bu böhrana hazırlıqsız yaxalandı. Çünki neft pullarının bol olduğu dövrdə çox primitiv bir iqtisadi model qurulmuşdu, işlək olmayan bir model idi. 2016-cı il bu ildən də ağır olacaq. Ona görə də böhran planı bu ildən təsdiq edilməli və addım-addım həyata keçirilməli idi ki, 2016-cı ilin böhranını biz o qədər də hiss etməyək. Lakin təəssüf ki, biz bunu görmürük".

❑ Nərgiz LİFTİYEVA



# Yaşayış minimumu problemə çevrildi - açıqlamalar bir-birini təkzib edir...

## **Əkrəm Həsənov:** "İpoteka Fondu Mərkəzi Bankı təkzib edir"

**Son günlər yaşayış minimumunun artması barədə informasiya banklara daha bir qorxu yaşadır. Kreditlərin ödənməsi zamanı yaşayış minimumunun nəzərə alınması məsələsi bankları və Mərkəzi Bankı təşvişə salıb. Məsələni gündəmə gətirən ekspert Əkrəm Həsənov son olaraq bildirib ki, yaşayış minimumu toxunulmazdır və bunu İpoteka Fondu da təsdiqləyir: "Son günlər başda Mərkəzi Bank olmaqla banklar əhaliyə yanlış məlumat verir ki, guya bank kreditləri üzrə borc insanların yaşayış minimumunun təmin olunması nəzərə alınmadan gəlirlərlərindən tutula bilər. Bunun niyə yanlış olduğunu bir neçə aspektdə və müxtəlif dəlillərlə sübut etmişəm. Bankların dəlilləri isə qanunvericiliyə deyil, havalarına uyğun mülahizələrinə əsaslanır. Ən maraqlısı isə budur ki, Mərkəzi Bankın nəzdindəki İpoteka Fondu da mənimlə razılaşaraq hesab edir ki, yaşayış minimumu toxunulmazdır. Belə ki, həmin Fondun saytında ipoteka kreditinin verilməsinin şərtlərindən biri kimi bu göstərilib: "Borcalanın və onun ailəsinin həyatı və fəaliyyəti ilə əlaqədar müntəzəm ödənişlər hər bir ailə üzvünün saxlanılması üçün xərc ölkə üzrə müəyyən olunmuş yaşayış minimumundan az götürülə bilməz". Başqa sözlə, vətəndaş ipoteka kreditini gəlirinin özünün və ailəsinin yaşayış minimumundan artıq hissəsi hesabına ödəməlidir. Yaşayış minimumu isə toxunulmazdır. Yeri gəlmişkən, həmin Fondun saytındakı "İpoteka kalkulyatoru" daha da sərtdir. Belə ki, bir nəfərin gəliri 200 manatdırsa, ondan yalnız 5 manatın kreditin ödənilməsinə sərf edilməsinə yol verir. Mərkəzi Bankın öz qurumu bankları təkzib edir".**

Ekspert qeyd edib ki, vətəndaşların bankların qanunsuz əməllərinə qarşı çıxması lazımdır: "Bu günlərdə bir ukraynalı keçmiş bankir mənə dedi ki, Ukraynada banklar Azərbaycan bankları kimi əhaliyə belə qan uddursaydı, çoxdan müflis olardılar. Ona görə ki, əhali özü kütləvi şəkildə bankları məhkəməyə verərdi, onları çoxsaylı şikayətləri ilə məhv edərdi. Məgər Ukraynada korrupsiya yoxdur? Var, az da deyil. Amma insanların öz hüquqlarını fəal müdafiə etməsi bankların özbaşınalıqlarına imkan vermir. Buna görə də vətəndaşlarımız bankların qanunsuz əməllərinə qarşı çıxması lazımdır ki, qanunlar işləsin. Məhkəmələrdə iddia qaldırın. Prezidentə, Milli Məclisə, Ombudsmana, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə, İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə şikayət edin".

❑ Röya

YENİ MÜSAVAT
N 277 (6304) 12 dekabr 2015

# Faciə erasından fəlakət erasına keçid

## Azərbaycanlı ixtiraçı-alim Rəsman Hacıyevə görə, xilas yoluna çıxmaq mümkündür, əgər...

**Dekabrın əvvəlində Fransanın paytaxtı Parisdə BMT-nin iqlim konfransı keçirildi. Mötəbər toplantıda əsas müzakirə mövzularından biri də atmosferin korlanmasına qarşı birgə qlobal mübarizə üsulları axtarıb tapmaq ətrafında idi. Maraqlıdır ki, azərbaycanlı ixtiraçı Rəsman Hacıyev hələ on il öncə, 2015-ci ilin 17 avqustunda "Bakı-Xəbər" qəzetindəki məqalədə bu barədə həyəcan təbili çalıb və çıxış yolunu göstərib. Problemin aktuallığını nəzərə alıb alimin təqdim elədiyi məqaləni oxucuların diqqətinə çatdırırıq.**

Bəşəriyyət elmi-texnniki cəhətdən inkişaf etdikcə qarşıda dunran bir problemi həll etməklə, digər probnlemin yaranmasının təməl daşını qoyur. XX əsrin əvvəllərində ixtirasına böyük ehtiyac duyulan və haqlı olaraq əsrin texniki inqilabı adlandırılan daxili yanacaq mühərrikinin ixtira edilməsi insanlar qarşısında duran bir sıra problemləri həll etməklə yanaşı, digər qlobal problemlərin yaranmasına səbəb oldu.

Alimlər XX əsrin 60-70-ci illərində elmi əsaslarla izah etməyə çalışmışlar ki, yanacağın yaradılması və digər proseslərin getməsi nəticənsində atmosferə atılan külli miqdarda tullantılar *(C02, CO, N2, 0, N02, NO)* əsrin sonunda və ondan sonra aşağıdakı qlobal problemlənrin yaranmasına səbəb olancaq:

Yanacağın yandırılması nəticəsində atmosferə atılan tullantılar *(C02, CO qazları)* parnik effektin yaranmasına və yer səthində temperatunrun 2-3 dərəcə C yüksəlməsinə səbəb olacaq. Bu gün bu elmi proqnozun doğruluğuna heç kim şübhə edə bilməz.

Yanacağın yandırılması zamanı insan həyatı üçün zəruri əhəmiyyət kəsb edən oksigenin külli miqdarda istifadə olunması atmosferdə oksigen çatışmazlığına gətirib çıxaracaq. Bu elmi proqnozun sindromları artıq hiss olunmaqdadır. Elmi hesablamalara görə, yanacağın yandırılması nəticəsində 1860-cı ilə kimi 1,3 milyard ton, 1960-cı ilə kimi 12 milyard ton, 2000-ci ilə kimi 57 milyard ton, 2050-ci ilə kimi 230 milyard ton oksigen sərf olunacaq.

Yanacağın yandırılması və digər proseslərin getməsi nəticəsində atmosferə atılan tullantılar *(N02, NO qazlar)* ozon qatının dağılmasına səbəb olacaq. Bu elmi proqnozun da sindromları artıq özünü biruzə verir. Ozon qatının tam dağılması yer səthində canlı orqanizmin məhv olması deməkdir.





Yanacağa olan böyük tələbat və onun günü-gündən artması *(1 sutkada dünnyada 70 milyon barel neft işlədilir)* sonda yanacaq böhranının baş verməsilə nəticələnəcək. Bu elmi proqnoz da öz təsdiqini tapmağa doğru gedir. Elmi hesablamalara görə (dünyada olan neft ehtiyatına əsasən), bu böhran halı 2030-2040- cı illərdə baş verəcək.

Yanacağın yandırılması nəticəsində atmosferə atılan tullantılar iqlim şəraitinin süni surətdə dəyişməsinə sənbəb olacaq. Nəticədə bir rengionda görünməmiş dərəcəndə yağıntıların, kəskin temnperatur dəyişikliyinin, tufan, qasırğa kimi təbii anomaliyaların baş verməsi özünü açıq şəkildə göstərəcək. Hər bir şəxs bu gün bu hadısələrin canlı şahididir.

Yer səthində iqlim şəraitinə süni surətdə təsir edən amillərin nəticəsində planetdə istiləşmə faktoru özünü göstərəcək. Bu da Şımal buzlu okeanında buzun əriməsinə səbəb olacaq. Bu elmi proqnoz öz təsdiqini tapmağa doğru gedir.

Deyilənlərdən bir çoxu *(Parnik effektinin, oksigen çatışmazlığının hiss olunmansı, ozon qatının deşilməsi, kəskin temperatur dəyişiklıyinin baş verməsi, bir regıonda görünməmiş dərəcədə yağıntılar, tufan, qasırğa kimi təbii anomaliyalar)* artıq günümüzün reallıqlarıdır. Bu hadisələr bu gün faciə xarakterlidir. Sabah böyüyərək fəlakət xarakterli olacaq.

Baş verən və verəcək qlobal problemlərin yaranma səbəblərini axtardıqda bunun daxili yanacaq mühərriki əsasında yaradılmış nəqliyyat vasitələrinin kütləvi istehsalına başlandıqdan sonra meydana çıxdığını aydın şəkildə görmək olar. Deyilənlərə diqqətlə nəzər saldıqda görünür ki, bəşər qarşısında iki yol dayanır - biri məhvə aparır, digəri isə xilasa gedən yoldur.

**Birinci yol** - bəşər övladı daxili yanacaq mühərriki ilə işləyən nəqliyyat vasitələrinin kütləvi istehsalını dayandırmır. Əksinə, yüksələn templə onu inkişaf etdirir. Beləliklə, qlobal problemləri həll etmək əvəzinə, onu danhа da qloballaşdırırıq. Bu istiqamətdə inkişaf 2015-ci ildən sonra faciə erasından fəlakət erasına keçir. Bundan sonra insanların planetdə gedən bir sıra proseslər üzərində nəzarəti tam itmiş olur. Baş verən fəlakətlər önündə insanlar çox aciz və gücsüz görünür. Bu, məhvə doğru gedən yoldur.

**İkinci yol** - bəşər övladı daxili yanacaq mühərriki ilə işləyən nəqliyyat vasitələrinin kütləvi istehsalını tədrıcən məhdudlaşdırır. Onun əvəzində ekoloji cəhətdən təmiz və zərərsiz veloelektromobil nəqiliyyat vasitənlərinin yaradılmasına və kütləvi istehsalına başlanır. 2015-ci ilə kimi avtomobillərin *(birinci növbədə yüngül minik maşınları)* veloelektromobillərlə əvəzlənməsi prosesi başa çatdırılır. Bununla da faciə erasından fəlakət erasına keçidin qarşısı alınır. Bu, xilasa doğru gedən yoldur.

Veloelektromobil - biomühərrik vasitəsilə insan bioenerjisinin (əzələ qüvnvəsinin hərəkəti hesabına) elektrik enerjisinə çevrilməsi və alınan elektrik enerjisi hesabına hərəkətə gələn nəqliyyat vasitələrinin yaradılması deməkdir. Belə nəqliyyat vasitəsinin ilkin sınaq nümunəsi Azərbaycanda artıq yaradılıb. Maliyyə imkanlarının məhdudluğu ilə əlaqədar veloelektromobil minik maşınının həyata vəsiqə alması hələlik mümkün olmayıb. Belə nəqliyyat vasitələrinin kütləvi istehsalına başlandıqdan sonra avtomobillərin istehsalına ehtiyac qalmayacaq və bununla da bəşəriyyət onu gözləyən faciə və fəlakətlərdən xilas olacaq.

İxtiraçı və yaradıcı bir insan kimi gördüklərimi, bildiklərimi və düşündüklərimi diqqətə çatdırdım. İnansaq da, inanmasaq da, seçdiyimiz yoldan asılı olaraq elmi əsaslara söykənərək deyilən bu həqiqətlər baş verəcək. Allah bizi gözlənilən bu fəlakətlərdən hifz eləsin.

***P.S.*** *2013-cü ildə Rəsman Hacıyev tərəfindən ixtira olunmuş veloelektromobilin ilk sınaq nümunəsinin təqdimatı keçirilib.*

❑ **Hazırladı: NURLAN**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## Artıq köhnə telefon köhnədə qaldı

### "Nar" və "Irshad Electronics" yeni mobil telefon almaq istəyənlər üçün əla fürsət təqdim edir

**Yeni il kampaniyası çərçivəsində "İrshad Electronics" mağazalar şəbəkəsindən smartfon əldə edən şəxslər ilkin ödənişsiz, 12 ay müddətində hissə-hissə ödəmə fürsəti ilə "Nar"dan pulsuz nömrə, 6 ay ərzində aylıq 50 manat bonus və pulsuz internet əldə etmiş olacaqlar.**

Gəlin birlikdə böyüyək

**Kampaniyadan yararlanıb mobil telefonları əldə etmək üçün "Nar" mobil operatorunun rəsmi tərəfdaşı olan "İrshad Electronics" mağazalarına müraciət etmək kifayətdir.**

**Telefonu əldə etdikdən sonra hədiyyə olunacaq pulsuz "Nar" nömrəsinə daxil olan aylıq 50 AZN şəbəkədaxili danışıq və 250 MB internet trafiki abunəçiyə 6 ay ərzində təqdim olunur. Bonusları yoxlamaq üçün *777#84#YES şifrəsini yığmaq kifayətdir. Qeyd edək ki, kampaniya çərçivəsində səsli zənglər «0» tarifinə əsasən hesablanır və bonuslar yalnız bu tarif daxilində aktivdir.**

**1-31 dekabr 2015-ci il tarixləri aralığında aktiv olacaq kampaniya bütün smartfonları əhatə edir. Əlavə məlumatı "Nar" mobil operatorunun internet səhifəsindən öyrənə bilərsiniz: www.nar.az**

YENİ MÜSAVAT
N 277 (6205) 12 dekabr 2015



# Təcridxanada məhbuslar üçün fantastik "preyskurant"

## Əvəz Zeynallı gizli detalları açıqlayır; "Nəfəsliyini açıq qoymaq - ayda 150-200 manat, kameranın qapısını açıq saxlamaq 800-1000 manat, kameraya "plitka" qoymaq 700-800 manat, mobil telefon saxlamaq

**MTN generallarının, zabitlərinin, bankirlərin səs-küylü həbsləri, türməyə düşmələri yeni bir mövzunu da aktual etdi. Orada varlı məhbuslar üçün hansı şərtlər, "yazılmamış qanunlar" hökm sürür? Pulun varsa, türmə sənin üçün "ev" ola bilərmi?**

Kürdəxanıda istintaq təcridxanası tikilən zaman tanınmış müxalifətçilərin klassik bir "qarğışı" vardı: "Özlərinə qismət olsun". Hətta ölkənin son 10 illik tarixində hər inqilab ehtimalında bu söhbət aktuallaşır. Müxalifətçilərin dilindən bu kəlmələri eşidirik: "İnşallah, hakimiyyətə gələcəyik və o türmələri indiki məmurlarla dolduracağıq".

Doğrudur, müxalifət ondan gözləniləni edib hakimiyyətə gəlmədi, türmələri də hazırkı iqtidar nümayəndələri ilə doldurmadı. Amma proseslər sürətlə, fərqli istiqamətdə cərəyan etdi və iqtidar öz kadrlarını bir-bir türməyə göndərdi. Təbii ki, ilkin olaraq Kürdəxanıda yerləşən 1 saylı İstintaq Təcridxanasına.

Bu günə qədər yolu ordan keçən müxalifətçilər də az deyil. Onlarla, eləcə də vəkillərlə danışıb maraqlandıq. Kürdəxanı həyatını digər türmələrdəki həyatdan nə ilə fərqləndirmək olar? Şərait, üstünlüklər, bəzi özəlliklər. Bəzən kluarlarda dolaşan söhbətlərdə həbsxana işçilərinin, nəzarətçilərinin vaxtilə dövlət qulluğunda çalışmış məmurların, varlı iş adamlarının həbsindən xeyli məmnun olduğu üzə çıxır. Çünki onların türmələrə düşməsi işçilər üçün "yağlı qapı" anlamını daşıyır. Hər qulluq üçün neçə min manat pul, hər jestin çox ağır qarşılığı... Bütün bunlar məhbəs həyatının "olmazsa olmaz"ı sayılır.

Keçmiş məhbuslar birmənalı şəkildə qeyd edirlər ki, əslində istintaq təcridxanası məhkəməyə qədərki dönəm üçün olduqca əhəmiyyətli yer sayılır. Məhbusun ilk həbs stressini dəf etməsi üçün istintaq təcridxanası, ordakı şərait, psixoloji mühit önəm daşıyır. Türməni qəbirlə müqayisə edənlər bu səbəbdən də şəraitlə bağlı bəzi nəfəsliklərə xüsusi önəm verirlər.

**"Xural" qəzetinin baş redaktoru, keçmiş siyasi məhbus Əvəz Zeynallı** bizimlə söhbətində bildirdi ki, son dönəmlərdə tutulan məmurların hamısı olduqca zəngin adamlardır. Onun sözlərinə görə, bu imkanın miqyası o qədər böyükdür ki, zamanında tonlarla dolları, manatı daşıyıblar: "Bizim həbsxanalarda da yaxşı yaşamaq üçün pul kifayətdir. Kilolarla da pulu olan adamlar hər şeyi edə bilər. Penitensiar sistemdə hər şeyi pulla etmək, hətta bayırdakından daha yaxşı yaşamaq mümkündür. Təbii ki, müəyyən istisnalar var. Birinci şəxsin nəzarətində olan adamlar istədiklərini etməyə bilərlər. Təkcə Akif Çovdarov nümunəsinə baxmaq kifayətdir. Onun geyim tərzi, qandalın arxadan deyil, qabaqdan vurulması onun "yaxşı yaşadığını" göstərir. Kimə qandal qabaqdan vurulur, kimə arxadan - bunun özü belə ciddi detaldır. İmran Tağızadəni yəqin xatırlayırsız, o vaxt Mədət Quliyevin müavini idi. O zaman bir çıxış etmişdi ki, kimin pulu varsa, şəraiti də yaradır. Amma daha sonra o çıxışı təkzib etdilər. Sistemi özləri qurduqlarına görə bilirlər. Bugünkü sistemdə kim pulunu verirsə, mahnısını sifariş verir".

**Müsahibimiz daha sonra pul hesabına Penitensiar Xidmətdə nələr edilə biləcəyinin mümkünlüyündən danışdı. Dedi ki, ümumiyyətlə, pullu və imkanlı adamlar üçün indiki Penitensiar Xidmətdə hər şey etmək mümkündür. Ən xırda şeylərdən ən çətinə - qanunun imkan tanımadığı şeylərə qədər:** "Buna Ədliyyə işçilərinin imkansızlıqları, maaşlarının az olması da təkan verir. Ayda 450-600 manat alan bir "nadzor" hər zaman milyonlarla pulu olan dustaqdan asılı olur. Ona görə də onun dediklərini edir. Sadəcə, hər şeyin qiyməti var. Onlardan bəzilərini sadalamaq olar - hava vermək, kameranın "kormuşka" adlanan nəfəsliyini açıq qoymaq - ayda 150-200 manat, kameranın qapısını açıq saxlamaq 800-1000 manat, kameraya "plitka" qoymaq 700-800 manat, mobil telefon saxlamaq 3000-5000 manat, tez-tez növbədənkənar görüş imkanı əldə etmək 300-500 manat və s. Təcridxanaya içki keçirməkdən tutmuş, Lamiyənin etdiyini etməyə qədər hər şey mümkündür".

**Ə.Zeynallı dedi ki, bunların olunmasına da qadağa qoyula bilər. Onun sözlərinə görə, əgər məhkum ya təcridxana rəhbərliyi, ya da ölkə rəhbərliyinin birbaşa qəzəbinə tuş gələn biridirsə, o zaman pullu xidmət dövrədən çıxır və təqsirləndirilən şəxsin ümidi qalır Allaha. O zaman artıq pul rol oynamır:** "Bir xatirəm yadıma düşdü. 2011-ci ilin noyabr ayının 17-də Nemət Pənahlını təbrik etmişdim və ona balaca bir məktub yazmışdım. Onu Nemətə çatdıra bilmədim. Bunun üçün fantastik məbləğ - 20 manat pul da verməyə hazır idim, amma edə bilmədim, çünki rəisin - Elxan Sadıqovun Nemətə münasibəti çox kəskin idi və sonralar öyrəndim ki, bunun sifarişi daha yuxarıdan gəlirmiş".

**Müsahibimiz eyni zamanda türmədəki digər xərclər barədə də danışdı. Onun sözlərinə görə, məhkumun hansı mərtəbədə olması, kimlərlə bir otaqda qalmasının da xüsusi xərci var:** "Bakı İstintaq Təcridxanasında "rəisin korpusu" deyilən korpus var ki, orada qalmağın qiyməti ayrıdır. Baxır dustağına. 500 manatdan 2500-3000 manata qədər dəyişir. Dustağı cəzalandırmaq üçün bəzən onu 1-ci mərtəbədən 2-ci, ya da 3-cü mərtəbəyə atırlar. Hamısı pulun başındadır. Bütün bunları tanınmış siyasi məhbuslar bilmədən edirlər. Çalışırlar ki, siyasilər xəbər tutmasın, amma orada xəbər axışı bayırdan yaxşı işləyir. Xəbəri saxlamaq və gizlətmək mümkün deyil. Görüşün ayrı qiyməti, qanuni telefonla danışmağın ayrı qiyməti, hər gün telefonla danışmağın ayrı qiyməti, evə məktub göndərməyin ayrı qiyməti, hətta narkotik maddə istəyirsənsə onun ayrı qiyməti var".

**Baş redaktor dedi ki, danışdıqları təcridxana üçün səciyyəvidir. "Zon"larda durum daha fərqlidir:** "Zon" təcridxanaya nisbətən bataqlıqdır və orada daha dəhşətli şeylər baş verir".

❑ **Sevinc TELMANQIZI**

# "Biz adam deyilik?"

## BDU-nun yataqxanasında qalan köçkünlər: "Hər günü qorxu, təhlükə içində yaşayırıq... Nə vaxtadək gözləməliyik?"









**Paytaxtda yaşayan köçkünlərin bir neçə il əvvəl baş tutan sonuncu köçürülməsi ilə bağlı problemlər hələ də davam edir. Yasamal rayonu ərazisində yerləşən Bakı Dövlət Universitetinin yataqxanalarında hələ də onlarla ailə ağır şəraitdə yaşamaqdadır. Yataqxanaların əksəriyyəti sökülsə də, bir neçəsində hələ də köçkünlər qalırlar və onlara nə zaman dövlət tərəfindən ev veriləcəyini gözləyirlər. Köçkünlər bildirirlər ki, onlara qanunla verilməli olan evlər "Qaçqınkom"un səlahiyyətli şəxsləri tərəfindən mənimsənilib: "Bizə çatacaq evləri başqalarına verdilər. Müşfiqabaddakı o mənzillərə köçənlərin bir hissəsinin evləri var idi. Ancaq biz burada dözülməz şəraitdə yaşamağa məcbur edilmişik".**

Köçkünlərin sözlərinə görə, iyirmi ildən artıq müddətdə şəraitsiz yataqxanalarda yaşamağa məcburdurlar: "Dəfələrlə buranın işığını da kəsiblər. Günlərlə qaranlıqda və soyuqda qalmışıq. Biz bu ölkənin vətəndaşı deyilikmi? Biz adam deyilik? Niyə bu qədər zülm edirlər?"

**Füzuli rayonundan olan köçkün İbrahim Quliyev bildirir ki, 1992-ci ildən bu uçuq-sökük yataqxanalarda yaşayırlar:** "Əksər binalar artıq sökülüb. Bir neçəsində yaşayış var. Elə bina var ki, cəmi bir ailə yaşayır. Bizi qəsdlə köçürmürlər, zülm edirlər".

**Minirə Quliyeva isə deyir ki, bir neçə gün əvvəl "Qaçqınkom" sədri Əli Həsənov televiziyada çıxış edərək Müşfiqabadda ev alıb yaşamayan köçkünlərlə bağlı danışıb:** "Əli Həsənov həmin köçkünlərin evinin başqalarına veriləcəyini deyib. Guya özü bilmirdimi həmin adamların başqa yerlərdə evi var? İndi həmin adamlar o evləri kirayə veriblər. Bizsə doqquz nəfər çox pis durumda burada yaşayırıq. Bizi köçürmürlər. Bu binada iki dəfə də yanğın olub, elektrik xətləri pis gündədir. Bir həftə əvvəl də yandı mərtəbələdən biri və gəlib söndürdülər. Beləcə, hər günü qorxu, təhlükə içində yaşayırıq. Nə vaxtadək gözləməliyik? Əli Həsənov özü bilə-bilə evləri evi olanlara verdi və bizim kimilər də qaldı çöllədə".

**Köçkünlərin sözlərinə görə, ev paylayan qurum olan "Qaçqınkom"da səlahiyyətlilər rola girməklə illəri və köçkünləri yola verirlər:** "Bir evi olanlara birini də verdi, indi televizora çıxıb danışır, camaatın gözünə kül üfürür".

**M.Quliyeva deyir ki, 9 nəfərdən ibarət 3 ailəyə uzun müzakirədən sonra cəmi bir ev təklif ediblər:** "Biz üç ailəyik, iki övladımın ailəsi və uşağı var. Bizə dördotaqlı mənzil təklif etdilər sonunda. Neyləyək? Bir evdə necə yaşamaq olar? Əksəriyyət köçüb, bizsə üçüncü qışdır ki, buradayıq. Balaca nəvələr nə zaman buradan köçəcəyimizi soruşur".

**Köçkünlər deyirlər ki, rəsmilər Bakı Dövlət Universitetindən köçürülmənin başa çatdığını bildirirlər:** "Bəs biz kimik? Buradakılar kimdir? Köçkün deyil?"

**Laçından olan köçkün Rəfiqə İsgəndərova da qeyd edir ki, ailəsi, iki azyaşlı qızı ilə burada yaşayı və ev növbəsini gözləyir:** "Problem ev məsələsidi. Köçürülmə zamanı bizə ev paylanmadı, yəni vermədilər. Altı və səkkiz yaşında iki qızım var. Nə vaxta qədər gözləyəcəyik, onu bilmirik. Axırıncı dəfə "Qaçqınkom"a bir il əvvəl getdim, dedilər gözləyin, sizi yataqxanadan çıxaran yoxdur ki, yaşayın orada. Bu, nə vaxtadək davam edəcək?"

**On yaşlı Həsən də kiçik qardaşı və anası ilə illərdir bu yataqxanada yaşayır. Deyir ki, anası hərdən gedib dövlətdən ev istəyir, amma xeyri yoxdur:** "Anam da gözləyir, qardaşımla mən də. Biz də istəyirik isti ev versinlər. Anama demişəm ki, prezidentə müraciət edək".

**Qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq.**

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

Son səhifə

N 277 (6304) 12 dekabr 2015




## Bədbəxtlik və stress ömrü qısaltmır

İngiltərədə aparılan araşdırmalar nəticəsində məlum olub ki, deyilənlərin əksinə, bədbəxtlik və stress ömrü qısaltmır. BBC-nin xəbərinə görə, İngiltərədə 10 il ərzində 1 milyon qadın üzərində aparılan araşdırma qəribə nəticə ortaya çıxarıb. Daha əvvəl aparılan araşdırmalara görə, bədbəxtlik insan səhhətinə, xüsusi ilə də ürəyə pis təsir etdiyi, hətta xərçəngə gətirib çıxardığı deyilirdi. Bir çox insan həyat şəraitinin və ya ailədaxili pis münasibətlərin ölümə apardığını düşünürdü. Lakin son illər aparılan və nəticələri "Lancet" jurnalında yayımlanan araşdırmalar bu düşüncənin yanlış olduğunu göstərir. Araşdırmada iştirak edən 60 yaş səviyyəsindəki 1 milyon qadının həyat tərzi göstərib ki, xoşbəxt və bədbəxt olmağın ölüm riski üzərində heç bir təsiri yoxdur. Lakin siqaret və spirtli içkilər bu riski artırır. Xəstəliklər insanları bədbəxt etsə də, bədbəxtliklər insanı öldürmür.

# Yoqa hesabına 133 kilo arıqladı

**ABŞ sakini, 222 kilo ağırlığında olan 40 yaşlı kişi yoqa ilə məşğul olaraq 133 kilo arıqlayıb. Salt Lahe ad-soyadlı kişi 40 yaşını qeyd edərkən kök olmaq istəmədiyini deyib və bunun üçün əlindən gələni etməyə başlayıb. Yaşadığı ərazidə ən kök adam sayılan Lahe çətinliklə yeriyirmiş. Arıqlamağa qərar verən Lahe yoqanı seçib və həyatı haqqında bunları yazıb: "Bütün həyatım boyunca kök idim. Hər gün bir az daha kökəlirdim. Bu, artıq həyatımın gərçəyi idi və bunu qəbul etmişdim. 40 yaşımda həyat tərzimi dəyişdirməyə qərar verdim və arıqladım".**



15 ay ərzində 133 kilo çəki atan S.Lake yoqa ilə bərabər idman da edib. Eyni zamanda yeməyinə diqqət edib.

# Facebookdan internetsiz istifadə

**Facebook rəhbərliyi artıq sosial şəbəkə istifadəçilərinin internetsiz və internetin zəif olduğu yerlərdə də xəbərsiz qalmayacaqlarını və şərh yaza biləcəklərini açıqlayıb.**

Dünya əhalisinin ?-i facebookda olduğu üçün ondan istifadə qaydaları hər gün bir az daha asanlaşır. Üstəlik, facebookdakı yeniliklər dayanmadan artmaqdadır. Həmin yeniliklərdən biri də internetsiz istifadənin mümkünlüyüdür. Belə ki, artıq sosial şəbəkə istifadəçiləri metro və ya tunel kimi yerlərdə olduqları zaman internet əlaqəsi olmadan da yeni xəbərləri oxuya və şərh yaza biləcəklər. Lakin yazılan şərhlər internet bağlantısı qurulduğu zaman dostlarla paylaşılacaq. "Xəbərlərə yardım" adı verilən yeni sistem insanların facebookda daha çox vaxt keçirməsi və xəbərsiz qalmaması üçün nəzərdə tutulub.






## Ən balaca narkoman

**Amerikada yaşayan bir qadın hamilə ikən narkotik maddələrdən istifadə etdiyi üçün uşağı da narkotik aludəsi kimi dünyaya gəlib. Klorissa Jones adlı qadın ilk uşağını dünyaya gətirdikdən sonra narkotik maddələrdən istifadə etməyə başlayıb və ikinci uşağına hamilə ikən də bu vərdişindən vaz keçməyib. Dünyaya gətirdiyi uşağına Braxton adını verən qadın övladı doğulan zaman acı xəbəri alıb. Belə ki, həkimlər uşağın durmadan ayağını oynatdığını görüb ondan analizlər götürüblər. Nəticədə məlum olub ki, uşaq narkotik aludəçisi kimi dünyaya gəlib.**

Gənc qadın doğuş zamanı da damardan narkotik qəbul etdiyini etiraf edib. Uşağı müayinə edən həkim isə açıqlamasında bunları deyib: "Bu, bir xəstəlikdir, virusdur. Bu ölkədə narkotik istifadəçilərinin sayı hər gün daha da artır. Narkotik aludəsi olaraq doğulan uşaqların sayı hər gün bir az daha artır. Son 10 ildə 130 min belə uşaq dünyaya gəlib".




**QOÇ** - Ünsiyyətdə olduğunuz hər bir kəslə, ələlxüsus da doğmalarınızla mehriban davranın. Nəzərə alın ki, qarşılıqlı hörmət sizə səmərə verə bilər. Qaranlıq havada daha çox evdə olun

**BUĞA** - Maraqlı sövdələşmələr aparmaq üçün kifayət qədər məhsuldar gündür. Qarşı tərəf sizin bütün təkliflərinizə müsbət rəy bildirəcək. Amma gərək lovğalıqdan uzaq olasınız.

**ƏKİZLƏR** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyətə yönəldəsiniz. Çünki digər sahələrdə xoşagəlməz hadisələr mümkündür. Pulla bağlı bütün planlarınızı təxirə salın. Uzaq yola çıxmayın.

**XƏRÇƏNG** - Qidanıza fikir verin.Astroloji göstəricilər maliyyə durumunuzun yaxşılaşacağını bəyan edir. Münasibətlər zəminində isə vəziyyət bir qədər gərginləşə bilər. Mübahisədən yayının.

**ŞİR** - Təxminən saat 16-ya qədər gərgin situasiyalarla üzləşə bilərsiniz. Odur ki, oturub-durduğunuz adamların kimliyini götür-qoy edin. Etibar etmədiyiniz kəslərə mühüm sirlərinizi verməyin.

**QIZ** - Həddindən ziyadə yorğun bir gün yaşamalı olacaqsınız. Üzərinizə düşən vəzifələrin məsuliyyətini dərk etməyə çalışın. Həmkarlarınızla yerli-yersiz mübahisəyə girişməyin.

**TƏRƏZİ** - Nəhayət ki, neçə gündən bəri davam edən üzüntülü anlarınız arxada qalacaq. Təxminən saat 11-dən etibarən şəxsi işlərinizdə böyük dönüş baş qaldıracaq. Çətinlikdən qorxmayın.

**ƏQRƏB** - Sevindirici hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, ağlınıza gətirmədiyiniz istiqamətdən işgüzar təkliflər də alasınız. Vaxtınız olsa, müqəddəs yerlərə mütləq baş çəkin.

**OXATAN** - İki gündən bəri mənfi enerjili Ay bürcünüzdə olsa da, bunun nəzərdə tutduğunuz işlərin həyata keçməsinə maneçiliyi olmayacaq. Əksinə, bütün planlarınız reallığa yaxınlaşacaq..

**OĞLAQ** - İxtiyarınızda olan bu təqvimdən qeyri-adi heç nə gözləməyin. Necə deyərlər, başınızı aşağı salıb adi işlərlə məşğul olun. Hər dedi-qoduya ciddi yanaşmayın. Soyuqdan qorunun!

**SUTÖKƏN** - Bir qədər problemli gün hesab etmək olar. Çünki bir tərəfdən səhhətinizdə çətinliklər, digər tərəfdənsə pulsuzluq ovqatınızı korlaya bilər. Heç olmasa münasibətləri tənzimləyin.

**BALIQLAR** - İş üslubunda dönüş yaratmaq üçün şanslarınız artacaq. Bunun üçün ilk növbədə ədalət prinsiplərinə riayət etməyiniz tələb olunur. Özünüzü həmkarlarınızdan daha üstün tutmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Küncütün faydaları və zərərləri



**Yağ nisbəti və enerji dəyəri çox yüksək bir qida olan küncüt zülal, kalsium, maqnezium, kalium mineralları və B vitaminləri ilə zəngindir. Bol miqdarda yağ daşıyan bu bitki istifadə edildikdə işlətmə dərmanı effektini verir. Yaralar və sərtliklər üzərinə məlhəm kimi sürtülən dərman istehsalında qatqı maddəsi olaraq da istifadə edilir.**

Küncüt bədənə enerji verir. Cinsi gücü artırır. Tənəffüs yolu xəstəliklərinə qarşı faydalıdır. Sinəni yumşaldaraq nəfəs darlığı və bronxitə qarşı yaxşı təsir göstərir. Antioksidant təsiri var - xərçəngə qarşı qoruyucudur. Lakin küncüt allergik qidalardan biridir. Avropa Birliyi ölkələrində və Kanadada tərkibində küncüt olan məhsulların üzərində allergiya xəbərdarlıq yazısı mütləq yazılır. Çünki proteinlə zəngin olduğundan allergiyaya səbəb ola bilir. Allergiyalı və ya ailəsində allergiyaya meyllilik olan uşaqların küncütdən istifadə etməsi çox təhlükəlidir.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300